www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 17 oktyabr 2014-cü il Cümə № 256 (5965) Qiyməti 40 qəpik

**Xəbər**

## Üç uşaq anası intihar etmək istəyir; şok təfərrütlar

yazısı səh.10-da

**Gündəm**

### Azərbaycan ABŞ-a nota verdi



XİN Dövlət Departamentinin Arif və Leyla Yunuslara dərhal azadlıq tələbini sərt cavablandırdı; "Amerikanın davamlı şəkildə Azərbaycanın daxili işlərinə qarışmaq cəhdləri tamamilə qəbuledilməzdir"

yazısı səh.3-də

### Avropa Şurasında Azərbaycanla bağlı mühüm sənəd qəbul olundu

yazısı səh.9-da

### Bakıdakı nurçu dövlət çevrilişi planı haqda şok açıqlamalar

yazısı səh.3-də

### Qubad İbadoğlu müsavatçılara çağırış etdi ki, partiyadan getməsinlər

Müsavatın Tovuz təşkilatı istefa verib; partiya isə hamının istefa vermədiyini və təşkilatın fəaliyyətinin bərpa olunacağını açıqladı

yazısı səh.6-da

### "Deyirdi sizə sürpriz edəcəyəm, görərsiz..."

Əməkdaşımız gənc NİDA-çı Şahin Novruzlunun atasının yas yerindən yazır

yazısı səh.4-də

### Pirallahıda bir gün...

Paytaxtın 12-ci rayonunda yeni şəhər layihəsi "böyük köç"ə səbəb olacaq

yazısı səh.15-də

### Ehsan qadağası məmurlar üçün rüşvət mənbəyinə çevrildi

yazısı səh.4-də

### Həbsdəki hüquq müdafiəçisi prezidentə müraciət etdi

yazısı səh.2-də

### Səudiyyə Ərəbistanının səfiri "Khazar İslands"a səfər edib

yazısı səh.7-də

### Vasif Talıbovun oğlu Gürcüstanda beşulduzlu hotel açdı

yazısı səh.13-də

### Erməni jurnalist Ermənistan məmurlarını ifşa etdi

yazısı səh.11-də

## Moskvanın "Bakı kartları" yenidən dövriyyədə

# ABBAS ABBASOV MOSKVADA VƏ BAKIDA FƏALLAŞIB - ÇEVRİLİŞƏ HAZIRLAŞIR

Kreml baş nazirin sabiq birinci müavinini yenidən dövriyyəyə qaytarır; onun hələ Rusiyaya xidmət, vətənə xəyanət potensialı qalıbmış; Abbas Abbasovla bərabər, onun Bakıdakı dostları da hərəkətə keçiblər...



yazısı səh.9-da

## Azərbaycan siyasətində Rusiyaya tərəf təhlükəli "əyilmə"

Hakim nomenklaturanın, deputat korpusunun və siyasi elitanın müəyyən hissəsi, "5-ci kolon" ölkəni "ayı ağuşu"na itələməyə çalışır...

yazısı səh.8-də



*Siyavuş Novruzov:*

### "Beş-altı hüştürüm düşüb ortaya..."

yazısı səh.5-də



### Elmar Vəliyevə "bıçaqlı hücum" xəbəri yayıldı

yazısı səh.3-də



*İlham İsmayıl:*

### "Azərbaycana İŞİD təhlükəsi güclənib"

yazısı səh.13-də

# 17 oktyabr 2014

## İlham Əliyevlə Emoməli Rəhmon sənədlər imzaladı



**Tacikistana səfər edən Azərbaycan prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimindən sonra onunla Tacikistan prezidenti Emoməli Rəhmon arasında təkbətək görüş olub.**

APA-nın məlumatına görə, təkbətək görüşdən sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilib.

Azərbaycan və Tacikistan prezidentləri görüşdə çıxış ediblər.

Görüş başa çatdıqdan sonra Azərbaycan-Tacikistan sənədlərinin imzalanması mərasimi olub.

Daha sonra Tacikistan prezidenti Emoməli Rəhmon və Azərbaycan prezidenti İlham Əliyev mətbuata birgə bəyanatlarla çıxış ediblər.

Düşənbədə həmçinin İlham Əliyevə Tacikistan Milli Universitetinin Fəxri Doktoru diplomunun təntənəli təqdim edilməsi mərasimi keçirilib.

Universitetin rektoru Mahmadyusuf İmomov bu ali təhsil ocağının Elmi Şurasının Azərbaycan prezidentinə Fəxri Doktor adının verilməsi və Elmi Şuranın fəxri üzvü seçilməsi ilə bağlı qərarını oxuyub.

Sonra Azərbaycan prezidentinə Fəxri Doktor diplomu və mantiyası təqdim olunub.

Dövlət başçısı universitetin professor-müəllim heyəti və tələbələri qarşısında çıxış edib.

## Məmməd İsmayılın yeni kitabı çap olunub

### Şairin 75 illik yubileyi keçiriləcək



**Türk dünyasının böyük şairi Məmməd İsmayılın düz 5 ildən sonra doğma vətənində yeni şeirlər kitabı işıq üzü görüb. Əsərləri 50-dən artıq dilə tərcümə olunan, çeşidli ölkələrdə kitabları çıxan azman sənətkarın yaradıcılığı təkcə Azərbaycan və türk poeziyasının deyil, çağdaş dünya ədəbiyyatının faktına çevrilib.**

Uzun və böyük bir yaradıcılıq yolu keçən ustad şairin "Yetmişdən sonra" adlı yeni kitabına onun son illərdə yazdığı yeni şeirləri və kiril əlifbasl ilə əvvəllər yayınlanmış kitablarından seçmə əsərlər daxil edilib. Noyabr ayının 1-də 75 yaşı tamam olan Məmməd İsmayılı - nəhəng söz və əxlaq adamını, halallığı ilə cəmiyyətə örnək olan məğrur insanı, parlaq və əyilməz şəxsiyyəti həm yubileyi, həm də bu yeni və sanballı kitabı münasibətilə candan-ürəkdən təbrik edirik...

❑ **Ehtiram İLHAM, şair-jurnalist**

TÜRKSAT
CAN ERZİNCAN
AzadliqRadiosuTV (ARTV)
hər cümə: 21:00 - 21:45
«Fərqli xəbərlər»
Peyk: TürkSat 42°, 1c
Kanal: CanErzincan
Tezlik: 11.509
Sürət: 30.000
Pol: H
Bu İnternet TV deyil, əsl televiziyadır!
http://AzadliqRadiosu.az
em@il efir@AzadliqRadiosu.az
facebook /AzadliqRadiosu
YouTube /AzadliqRadiosu
twitter /RadioAzadliq
Qaynar xətt: 012/436-77-41

## Məhbuslarla bağlı QHT yaradıldı

### Təşkilatın təsisçiləri keçmiş vicdan məhbuslarıdır

**Oktyabrın 15-də "Siyasi Məhbusların Monitorinq Mərkəzi" İctimai Birliyi (SMMM) yaradılıb. Təşkilatın təsisçiləri keçmiş vicdan məhbusları və hüquq müdafiəçiləridir. Yeni yaradılan QHT-nin əsas fəaliyyəti Sülh və Femokratiya İnstitutunun həbsdəki rəhbəri Leyla Yunusun siyahısı əsasında siyasi məhbusların vahid siyahısını hazırlamaq olacaq.**

SMMM-nin rəhbərliyi hüquq müdafiəçisi Elşən Həsənova tapşırılıb. E.Həsənov təşkilat barədə musavat.com-a bunları deyib: "Ölkədəki repressiyalar nəticəsində QHT-lərin fəaliyyəti faktiki olaraq dondurulub, hüquq müdafiəçiləri və vəkillər həbs olunub. Hazırda insan haqlarının müdafiəsi ilə bağlı fəaliyyətdə olan bir-iki nəfər var.

Bunları nəzərə alaraq keçmiş vicdan məhbusları olaraq qərara aldıq ki, yeni təşkilat yaradaq. Təşkilatın adı "Siyasi Məhbusların Monitorinq Mərkəzi" İctimai Birliyi olacaq. Təşkilat siyasi məhbuslarin siyahısını aparacaq. Bundan əlavə, siyasi məhbusların saxlanma şəraiti ilə maraqlanacağıq. Cəzaçəkmə müəssisələrində monitorinq aparılacaq.

Fəaliyyətimiz konstitusiyaya, qanunlara və beynəlxalq təşkilatların standartları çərçivəsində olacaq, bütün yerli və xarici beynəlxalq təşkilatlarla əməkdaşlıq edəcəyik.



Yaxın zamanlarda qeydiyyata alınması üçün sənədləri Ədliyyə Nazirliyinin Qeydiyyat Şöbəsinə göndərəcəyik .

Ofisimiz olmadığına görə iclaslarımız imkan və şəraitimiz olan yerdə keçiriləcək.

"Siyasi Məhbuslarsız Azərbaycan " Alyansında fəaliyyətimə koordinator kimi davam edəcəm. Amma ümid edirəm ki, yeni təşkilatımızda fəaliyyətimiz daha aktiv olacaq.

Təşkilatımızın təsisçiləri keçmiş vicdan məhbusları Hacı Mehdi Şamilli, Tural Abbaslı, Əhəd Məmmədli, Rüfət Hacıbəylidir".

❑ **Cavanşir ABBASLI**

## Müsavat başqanının müavininin və qardaşının apelyasiya şikayətinə baxılacaq

**Oktyabrın 17-də Bakı Apelyasiya Məhkəməsində həbsdə olan Müsavat başqanının müavini Fərəc Kərimli və qardaşı Sirac Kərimlinin apelyasiya şikayətinə baxılacaq. Proses saat 11:30-da başlayacaq.**

Bu barədə musavat.com-a qardaşların Hüquqlarını Müdafiə Komitəsinin sədri Əbülfəz Sadıqbəyli məlumat verib: "Bu gün Fərəc və Siracın apelyasiya şikayətinə baxılacaq. Bildiyimiz kimi, onların həbs müddəti heç bir əsas gətirilmədən qanunsuz olaraq uzadılıb. Vəkil bununla bağlı şikayət verib. Həmin şikayətə baxılacaq. Hər kəsi qardaşlara dəstək olmağa çağırıram".

Qeyd edək ki, Fərəc və Sirac qardaşları bu ilin iyulunda həbs ediliblər.

❑ **Cavanşir ABBASLI**

## "Qara Tofiq" Müsavatdan getdi

**"Mən daha Müsavat Partiyasının üzvü deyiləm". Bunu Müsavat Partiyasının Tovuz rayon təşkilatının üzvü Tofiq Hüseynli ("Qara Tofiq") bildirib.**

Müsavat Partiyasının Tovuz rayon təşkilatının keçirdiyi iclasda iştirak edən Qara Tofiq deyib ki, həyatının ən gözəl anlarını sərf etdiyi bir partiyanın daha üzvü deyil.

"Artıq istefa verdim. Nə etmək olar, bu da bir qismətdir. Belə yazılıbmış", - deyə "Qara Tofiq" vurğulayıb.

Tofiq Hüseynli AXC hakimiyyəti dövründə kənd təsərrüfatı naziri işləyib. Onun üzvü olduğu Müsavatın Tovuz rayon təşkilatı son başqanlıq seçkisindən sonra partiya daxilində yaranmış ikitirəliyə etiraz əlaməti olaraq dünən tam tərkibdə Müsavatdan istefa verib (Aznews.az).

## Beyləqanda at kişini öldürdü

**Beyləqan rayonunda faciəvi hadisə baş verib. ANS PRESS-in Daxili İşlər Nazirliyinin mətbuat xidmətinə istinadən verdiyi məlumata görə, hadisə İmamverdilər kəndində qeydə alınıb.**

Belə ki, İlqar Bəşirov oktyabrın 15-də at çaparkən yıxılıb. Ağır vəziyyətdə xəstəxanaya yerləşdirilən İlqar Bəşirovun həyatını xilas etmək mümkün olmayıb.

Faktla bağlı araşdırma aparılır.

Azercell

## «Azercell» Azərbaycan və Qafqaz regionunda ilk Elm Festivalına dəstək olur




**Bu il noyabrın 10-11-də paytaxtda ölkənin ən iri telekommunikasiya şirkəti olan «AzercellTelekom»un sponsorluğu ilə Bakı Elm Festivalı-2014 keçiriləcək. Azərbaycan Milli Elmlər Akademiyasının təşəbbüsü ilə baş tutan tədbir Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti və Təhsil Nazirliyinin təşkilati dəstəyi ilə hazırlanır.**

**Qafqaz regionunda ilk belə formatda tədbir olacaq Bakı Elm Festivalında son illər ölkə alimlərinin dünyada qəbul olunmuş elmi nailiyyətləri nümayiş etdiriləcək. Festival boyunca müxtəlif məkanlarda gənc alimlərin çıxışları, yaradıcılıq nümunələri və interaktiv sərgilərlə tanışlıq nəzərdə tutulub.**

**«Azercell» şirkəti festival iştirakçılarını mobil rabitə, və Wİ-Fİ şəbəkəsi ilə təmin edir. Bundan əlavə, «Azercell» tərəfindən AMEA işçiləri üçün xüsusi nömrələr də təqdim olunub. «Azercell» həmçinin elmlə istehsalı, elmlə sənayeni görüşdürmək üçün festival iştirakçılarına, gənc alimlərə platforma yaradır.**

**Bakı Elm Festivalının iştirakçılarını elmi laboratoriyalara ekskursiyalar, müsabiqələr, yeni elmi nailiyyətləri özündə əks etdirən şoular, elmi-populyar filmlərin nümayişi gözləyir. Əsas tədbirlər akademiya şəhərciyində - AMEA-nın əsas binasında və yeni açılmış Mərkəzi Elmi Kitabxanada keçiriləcək. Universitetlər də bu təşəbbüsə qoşulacaq - Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Aviasiya Akademiyası, Ali Neft Məktəbində maraqlı görüşlər baş tutacaq. Festival çərçivəsində 3 orta məktəbdə - 134, 23 və 6 saylı məktəblərdə tədbirlər planlaşdırılıb.**

**Dünyada ilk Elm Festivalı XIX əsrdə İngiltərədə keçirilib. Festivalın əsas devizi də "İnspire, Educate, Entertain" ( "Ruhlandır, Öyrət, Əyləndir") olub. Festivalın keçirilməsində məqsəd elm və cəmiyyəti, həmçinin elmin müxtəlif sahələrini bir-birinə yaxınlaşdırmaq, elmi nailiyyətləri sərgiləmək və gənc nəslin bu sahəyə marağını artırmaqdır.**

**«Azercell» şirkəti daim Azərbaycanda elm və təhsilin səviyyəsinin yüksəlməsinə, gənclərin biliklərinin artırılmasına yönəlik layihələr icra edir. Elə təkcə Barama layihəsi çərçivəsində bacarıqlı gənclər xeyli kəşflərə, ixtiralara imza atıblar. «Azercell»in dəstəyi ilə start-up-lar öz layihələrini reallaşdırmaq üçün imkan əldə edib, xarici investorlarla görüşüblər. «Azercell» həmçinin uzun müddətdir ki, tələbələr üçün xüsusi təcrübə və təqaüd proqramlarını həyata keçirir.**

**Odur ki, «Azercell Telekom» ölkədə və Qafqazda bir ilk olan bu yeniliyə - Bakı Elm Festivalının baş tutmasına yardım etməkdən qürur duyur.**

**Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz**

**«Azercell Telekom» MMC 1996-cı ildə təsis edilmişdir və fəaliyyətinin ilk illərindən etibarən bazarda lider mövqeyini saxlayır. Bir sıra innovativ texnologiya və konsepsiyaları ilk dəfə olaraq Azərbaycana «Azercell» gətirib: GSM texnologiyası, öncədən ödəmə mobil xidmətləri, GPRS/EDGE (mobil internet), 24/7 Telefon Mərkəzi, tam xidmət göstərən «Azercell Ekspres» ofisləri, mobil elektron xidməti "ASAN İmza" və s. Azərbaycanın mobil rabitə bazarındakı payı 51% olan «Azercell»in şəbəkəsi ölkə əhalisinin 99,8%-ni əhatə edir. 2013-cü ilin sonuna «Azercell» abunəçilərinin sayı 4,5 milyon nəfər təşkil etmişdir. 2011-ci ildə «Azercell» 3G, 2012-ci ildə isə 4-cü nəsl şəbəkəsi olan LTE xidmətini təqdim etmişdir. «Azercell» Azərbaycanın mobil rabitə sənayesinin lideri və qeyri-neft sektorunun ən böyük sərmayədarıdır. Azercell dünyanın 20 ölkəsində fəaliyyət göstərən, ümumilikdə 186 milyon abunəçiyə xidmət edən və 27 min əməkdaçı olan «TeliaSonera» şirkətlər qrupunun bir hissəsidir.**

## Hüquq müdafiəçisi prezidentə və baş prokurora müraciət etdi

### Rəsul Cəfərovun müraciəti müsbət qarşılanıb; o, ev dustaqlığına buraxılmasını xahiş edib

**Oktyabrın 14-də həbsdə olan hüquq müdafiəçisi Rəsul Cəfərov prezident İlham Əliyevə müraciət edib. O, azadlığa buraxılmasının İlham Əliyevdən asılı olduğunu, azad edilməsi üçün sərəncam verməsini xahiş edib. Eyni zamanda Rəsul Cəfərov baş prokuror Zakir Qaralova da müraciət ünvanlayıb.**

Baş prokurora ünvanlanan müraciətdə avqustun 2-də haqqında seçilən həbs-qətimkan tədbirinin müddətinin bitməsi ilə əlaqədar ev dustaqlığına buraxılması xahiş olunub.

"Yerli və beynəlxalq ictimaiyyətin marağını nəzərə alaraq xüsusilə qeyd etmək istəyirəm ki, bu müraciət nə əfv ərizəsidir, nə də indiyə kimi həyata keçirdiyim layihələrə görə heç bir peşmançılıq mövqeyini əks elətdirmir. Müraciətdə qeyd etdiyim kimi, bir daha bəyan edirəm ki, indiyə qədər fəaliyyətim firavan və güclü Azərbaycan, onun insan haqları uğrunda olub və bundan sonra da fəaliyyətimi sırf bu istiqamətdə davam etdirəcəyəm", -deyə Cəfərov müraciətə münasibətini bildirib.

**Rəsul Cəfərovun vəkili Xalid Bağırov hüquqlarını müdafiə etdiyi şəxsin müraciəti ilə bağlı bunları dedi:** "Rəsul Cəfərov müraciətini edib və əsaslandırıb. Öz hüququdur. Bundan istifadə edib. Rəsul Cəfərov dedi ki, mən öz tərəfimdən olan addımı atdım. Əgər xoş niyyət varsa, bunu göstərsinlər. İcazə, yaxud iradə olsa, həbs-qətimkan tədbirinin ev dustaqlığı ilə əvəz olunması mümkündür. Çünki vəsatətin rədd olunması o demək deyil ki, bir daha mümkün olmaz. Hər zaman mümkündür".

**Hüquq müdafiəçisi Səidə Qocamanlı Rəsul Cəfərovun müraciətinə müsbət yanaşdığını bildirdi:** "Bir şeyi unutmaq olmaz ki, Rəsul Cəfərov istintaq altındadır. İstintaq altında olan şəxsin əfv olunması yalnız cənab prezidentdən asılıdır. Amma mən bilən istintaq altında olan şəxsə əfv şamil edilmir. O, gərək istintaq orqanlarına müraciət etsin, Əfv Komissiyasına yox. QHT təmsilçisi baş prokurora da müraciət edib. Rəsul Cəfərovun bu müraciəti etməsi müsbət haldır. Heç kəs istəməz ki, gedib gənclik illərini həbsxanada çürütsün. Ev dustaqlığına buraxılması mümkündür. Bildiyimiz kimi, o, vergiyə görə həbs edilib. Cəriməni ödəyib azad ola bilər. Amma təbii ki, bunların hamısı prokurorluqdan asılıdır. İstənilən halda müraciəti əhəmiyyət daşıyır. Bütün bunlara baxmayaraq, son söz prokurorluğundur".

Qeyd edək ki, avqustun 2-də seçilmiş həbs-qətimkan tədbiri sona yaxınlaşdığı üçün Rəsul Cəfərov belə müraciət edib və bu müraciətə müsbət cavab verilməyəcəyi təqdirdə Cəfərov bunu ondan qisas almağı davam etdirmə kimi qəbul edəcək və bir daha rəsmi şəxslərə müraciət etməyəcək.

❑ **Cavanşir ABBASLI**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**

**Dünən Yevlax rayonunda sensasion hadisə baş verdiyi haqda məlumat yayılıb. Yevlaxdakı mənbələrdən ölke.az-a daxil olan xəbərə görə, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev bu rayonun mərkəzində bıçaqlı hücuma məruz qalıb.**

# Elmar Vəliyevə "bıçaqlı hücum" xəbəri yayıldı

## "İlham adlı sahibkar bıçağı götürərək..."; Gəncə İcra Hakimiyyəti isə prezidentin bölgəyə səfəri ərəfəsində yayılan bu məlumatı təxribat adlandırdı

Məlumatda iddia olunur ki, Gəncədən əvvəl Yevlağın icra başçısı olan E. Vəliyev dünən bu rayonda olarkən onu müşayiət edən bir qrup adamla şəhərin mərkəzindəki bir ərzaq mağazasının qarşısında ayaq saxlayıb. Mağazanın qarşısının zibilli olmasını dükanın sahibinə irad tutan E.Vəliyevlə sahibkar arasında mübahisə yaranıb. Mübahisə böyüyüb və tərəflər qarşılıqlı təhqirə keçiblər.

Mənbə bildirir ki, Gəncə Şəhər İcra Hakimiyyəti başçısının ağır söyüşündən sonra dükan sahibi mağazaya girərək, oradan əlində bıçaq çölə çıxıb və E. Vəliyevi qovalamağa başlayıb. Mənbə iddia edir i, dükan sahibi əlində bıçaq icra başçısını bir az qovduqdan sonra yaxınlıqdakı polis əməkdaşları tərəfindən zərərsizləşdirilib.

Bundan sonra İlham adlı dükan sahibinin Yevlax Rayon Polis Şöbəsinə aparıldığı bildirilir.

Xəbərdə o da var ki, İlham adlı şəxs "Üç qardaş" adlı marketin sahibidir.

Xəbəri musavat.com-dan oxuyan yevlaxlılardan biri müxbirimizə deyib ki, marketin sahibinin rayonda çoxlu qohum-əqrəbası var və onlar müəyyən nüfuz sahibidirlər. Yevlaxlı mənbə iddia edib ki, qohumları icra başçısının İlhamı tutduracağından narahatdırlar. Bu səbəbdən də Bakıya gələrək Prezident Administrasiyası qarşısında aksiya keçirəcəklər.



Məlumatda o da iddia olunur ki, icra başçısı ilə sahibkar arasında olan bıçaqlı insident 3-4 nəfər tərəfindən telefonla videoya çəkilib. İndi rayon rəhbərliyi və E.Vəliyevin adamları qalmaqalı videonu çəkən şəxsləri axtarırlar.

**Bu xəbərlə bağlı Gəncə Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətindən "Yeni Müsavat" verilən açıqlamada isə məlumatın tamamilə əsassız olduğu və belə bir hadisənin baş vermədiyi bildirilir. Açıqlamada qeyd edilir ki, prezident İlham Əliyevin Gəncəyə səfəri gözlənilir və belə bir ərəfədə Elmar Vəliyevin Yevlağa, yaxud hansısa başqa qonşu rayona getməsi mümkün deyil:** "Cənab prezidentin Gəncəyə səfəri ərəfəsində belə hadisə baş verməyə-verməyə, bu cür məlumatın yayılması Elmar Vəliyevə qarşı təxribatdır. Elmar Vəliyev istər Gəncədə, istərsə də Yevlaxda olsun, hər zaman vətəndaşlarla çox normal davranıb və onlarla çox sakit danışıb. Buna görə də heç zaman belə bir hadisənin baş verməsi mümkün deyil. Bu, Elmar Vəliyevin Gəncədə gördüyü işləri, qazandığı uğurları sinirə bilməyənlərin təxribatıdır. Belə məlumatı yayanlar gərək ortaya konkret faktlar qoysunlar, bununla bağlı polislə dəqiqləşdirmə aparsınlar. Bunların heç biri yoxdur ortada. Buna görə də biz bu yanlış və təxribat xarakterli məlumatın yayılmasına görə ölçü götürülməsi üçün lazımi tədbirlər görəcəyik".

Yevlax Rayon İcra Hakimiyyətinin başçısı Qoca Səmədov isə axşam saatlarında ucnoqta.az-a bu məsələnin Elmar Vəliyevlə heç bir əlaqəsinin olmadığını, olayın onun müavininin başına gəldiyini bildirib:

"Dediyiniz hadisə rayon ərazisində yerləşən "Üç qardaş" deyilən marketin sahibləri Nəbiyev Vüsal və Vüqar qardaşları ilə mənim müavinim olan Namiq Süleymanov arasında baş verib. Onlar mənim müavinimi söyüb, təhqir ediblər. Çox tərbiyəsiz insanlardı bu şəxslər. Küçə ticarəti ilə məşğuldurlar. Mən göstəriş vermişəm ki, küçə ticarəti yığışdırılsın. Bunların da atası İnqilab kişi bir neçə gün qabaq mənim qəbulumda olarkən, xahiş etdi ki, bir az malımız qalıb, satıb yığışdıraq. Mən də icazə verdim, amma neçə gün keçib hələ də yığışdırmayıblar. Bu gün müdaxilə edilib və nəticədə polislərə də, mənim müavinimə də hücum ediblər. Məsələ bundan ibarətdir. İnsidenti yaradan şəxslər hazırda polis idarəsindədirlər, qanunlara uyğun hərəkət ediləcək".

❑ **T.HƏSƏNLİ**



Arif Yunus



Leyla Yunus

# Azərbaycan ABŞ-a nota verdi

## XİN Dövlət Departamentinin Arif və Leyla Yunuslara dərhal azadlıq tələbini sərt cavablandırdı; "Amerikanın davamlı şəkildə Azərbaycanın daxili işlərinə qarışmaq cəhdləri tamamilə qəbuledilməzdir"

**"Humanitar əsaslarda biz Azərbaycan hökumətinə təkid edirik ki, Leyla Yunusa dərhal müstəqil tibbi müayinə və qayğı üçün şərait yaratsın, onun təhlükəsizliyini təmin etsin və durumunu yaxşılaşdırsın". Bu bəyanatı ABŞ Dövlət Departamentinin sözçüsü Jen Psaki verib.**

"Amerikanın səsi"nin məlumatına görə, rəsmi Vaşinqtonun açıqlamasında tanınmış insan haqları fəali Leyla Yunusun həbsdə saxlanılmasından, onun lazımi tibbi qayğıdan məhrum edilməsindən və səhhətinin pisləşməsindən həyəcan ifadə olunur.

Bu yaxınlarda onunla eyni kameraya salınmış məhbus və həbsxana nəzarətçisi tərəfindən fiziki hücumlara məruz qalmış Leyla Yunusun fiziki təhlükəsizliyi Dövlət Departamenti tərəfindən dərin narahatlıqla qarşılanır: "Biz Azərbaycan hökumətini qanun aliliyinə hörmət etməyə və səhhəti ağır olan adamlardan başlayaraq fundamental azadlıqlarını ifadə etdiklərinə görə həbsə atılmış bütün adamları dərhal azadlığa buraxmağa təkid edirik".

Leyla və Arif Yunusların sağlamlıq durumunu xüsusi olaraq qeyd edən rəsmi Vaşinqton İlham Əliyev hökumətini öz üzərinə götürdüyü beynəlxalq öhdəliklərə uyğun olaraq vətəndaşlarının hüquqlarına hörmət etməyə çağırır.

"Vətəndaşlarının hüquqlarına, ləyaqətinə, azadlıqlarına hörmət etmək ilk növbədə Azərbaycanın maraqlarındandır," deyə bəyanatda qeyd olunur .

Buna cavab olaraq Azərbaycan XİN-in mətbuat xidmətinin rəhbəri vəzifəsini icra edən Hikmət Hacıyev deyib ki, ABŞ-ın davamlı şəkildə Azərbaycanın daxili işlərinə qarışmaq cəhdləri tamamilə qəbuledilməzdir. APA-nın xəbərinə görə, H. Hacıyev bildirib ki, Azərbaycanda qanunun aliliyi və məhkəmə-hüquq sisteminin müstəqilliyi tam təmin olunub: "ABŞ-ın bu kimi əsassız müdaxiləsi qanunun aliliyinin və ABŞ-ın öz üzərinə götürdüyü öhdəliklərin kobud şəkildə pozulmasıdır. İnsan hüquqları məsələsinin xarici siyasət aləti edilərək, siyasi təzyiq göstərmək məqsədilə istifadə olunması cəhdləri artıq çoxdan özünü nüfuzdan salıb. İnsan hüquqlarına siyasi mülahizələr, seçimli və ikili standartlar baxımından yanaşmaq yolverilməzdir. İnsan hüquqlarının "carçısı" qismində çıxış edən dövlətlərin və konkret bu halda ABŞ-ın Ermənistanın işğalı nəticəsində ən ibtidai hüquqlardan belə məhrum olmuş azərbaycanlı məcburi köçkün və qaçqınların hüquqlarına və Azərbaycanın işğal olunmuş ərazilərində törədilmiş qanlı etnik təmizləmə hallarına diqqətlə yanaşması daha təqdirəlayiq olardı".

# Bakıdakı nurçu dövlət çevrilişi planı haqda şok açıqlamalar

## Taner Yıldız: "Türkiyədəki 17 dekabr əməliyyatları uğur qazansaydı, Bakı da onların əlinə keçərdi"

**Türkiyənin enerji və təbii ehtiyatlar naziri Taner Yıldız bu ölkənin mətbuatına müsahibəsi zamanı keçən ilin sonlarında Bakıda planlaşdırılan nurçu dövlət çevrilişindən danışıb.**



Taner Yıldız

ANS-in məlumatına görə, T.Yıldız müsahibəsində Türkiyədə "paralel dövlət" adlanan qruplaşma tərəfindən 2013-cü il, dekabrın 17-də rüşvət əleyhinə başlamış əməliyyatı xatırladıb. Onda xüsusi əməliyyat qrupu 4 nazir oğlunu, həmçinin iranlı iş adamı Rza Zərrabı həbs eləmişdi. Həmçinin baş nazir Rəcəb Tayyib Ərdoğanın oğlu Bilal Ərdoğan şübhəli kimi istintaqa cəlb edilmişdi.

**Həmin günlər telefonu ən çox dinlənən nazir olduğunu xatırlayan Taner Yıldız sonra deyib:** "Əgər Ankaradakı, Türkiyədəki 17 dekabr əməliyyatları uğur qazansaydı, Bakı da onların əlinə keçərdi. Bakıdakı əməliyyatlar əmrsiz qaldı. Bu zəncirin halqası tamamlanmadığı üçün Bakıdakılar əmrsiz qaldı".

**T.Yıldız 17 dekabr böhranından çıxmaq üçün geniş beynəlxalq danışıqlar apardıqlarına bildirib:** "Dövlət və hökumət başçıları, məsələn, hörmətli Putinlə birbaşa görüşdük. Hansı səlahiyyətlə bizim telefonu dinləyirdilər? Apardıqları kəşfiyyat xidmətini yaxınlara deyil, uzaqlara göstərirdilər".

Xatırladaq ki, baş nazir Rəcəb Tayyib Ərdoğan müxalifətin tələbinə baxmayaraq həmin günlərdə istefa verməsi. Daha sonra hakim partiya yerli seçkiləri qazandıqdan sonra o, rüşvət qarşı əməliyyatlarda iştirak etmiş hüquq-mühafizə işçilərinin iş yerlərini dəyişdi, bəzilərini vəzifədən çıxardı. Daha sonra həbsdə olan nazir balalarını azadlığa buraxdı. Həmçinin məsələni müzakirəyə çıxararaq 17 dekabr əməliyyatı ilə bağlı istintaqın davam etdirilməsini qadağan etdi.

Virtualaz.org xatırladır ki, ötən ilin 17 dekabrında "İmamın ordusu"nun həyata keçirdiyi rüşvət və korrupsiya əməliyyatından sonra Ərdoğan hakimiyyəti ilə Fətullah Gülən arasında əsl müharibə başladı.

Türkiyə hakimiyyəti fətullahçıların dövlət strukturlarındakı şəbəkəsini dağıtmaq üçün hərəkətə keçdi, ardınca bu əməliyyat Azərbaycanda da başladı. O vaxt baş nazir olan Ərdoğan Bakıya səfəri zamanı prezident İlham Əliyevə fətullahçıların dövlət strukturlarına sızmış nümayəndələrinin siyahısını və onların planlarını verdi. Nəticədə bu ilin yazında Azərbaycanda da nurçuların dövlət strukturlarından təmizlənməsi prosesi başladı, onların "baş imamı" olan Elnur Aslanov Prezident Administrasiyasından uzaqlaşdırıldı, deputat Ceyhun Osmanlı və digərləri "küncə qoyuldu".

YENİ MÜSAVAT
N 256 (5965) 17 oktyabr 2014







# “Deyirdi sizə sürpriz edəcəyəm, görərsiz...”

Əməkdaşımız gənc NİDA-çı Şahin Novruzlunun atasının yas yerindən yazır; yaxınları onun ölümünə oğlunun həbsindən sonra keçirdiyi stressin səbəb olduğunu düşünür...

**“Deyirdi ki, bir yekə restoran tutarıq uşaqlar azadlığa çıxanda. Hamımız eyni vaxt qeyd edərik bu gözəl günü. Gəlib-gedənlərimiz çox olacaq deyirdi... Gələnlər çox oldu həqiqətən də. Amma yasına...”**

**Mən onu belə xatırlayıram. Bakı Ağır Cinayətlər Məhkəməsinin qabağında, damağında siqaret, bir az dərdli, bir az da məğrur. 18 yaşı tamam olmadan dəmir barmaqlıqlar arasına atılan NİDA üzvü Şahin Novruzlunun, evin tək oğlunun dərdini çəkmək hər atanın işi deyil. Məhkəmədə şahid qismində dedikləri yadıma düşdü ölüm xəbərini eşidəndə.**

Cümlə-cümlə xatırladım atanın ifadəsini. Evində narkotik “tapılan” Novruzlu ailəsində yaşanan şoku belə təsvir edirdi İbrahim dayı: “Gələnlər məqsədləri barədə heç nə bildirmədilər, bircə onu dedilər ki, narkotik axtarırıq və Şahini aparmağa gəlmişik. Bu sözlərdən şoka düşdüm, dedim: ”Ağlınıza başqa heç nə gəlmədi, nə narkotik?" Mən gördüm ki, etiraz etməyin mənası yoxdur. Təklif etdim ki, əgər axtarış aparacaqsınızsa, hamınızı yoxlayım, ondan sonra girin içəri. Bu sözlərimə acıqları tutdu, “sən kimsən ki, bizi yoxlayasan, bilirsən biz kimik?” dedilər. Gördüm ki, başqa əlac yoxdur, dedim heç olmasa vicdanla axtarın. Sonra bunlar iki nəfər haradansa adam gətirdilər, başladılar otaqları axtarmağa, video çəkməyə. Evimdəki seyfi görüb onu açmağı tələb etdilər. Buna etiraz edərək bildirdim ki, seyfdə ailəmə məxsus zinət əşyaları var. Seyfi mənə güclə açdırıb içindəki 94 100 manat məbləğində pulu götürdülər. Etiraz edəndə isə axtarışdan sonra qaytaracaqlarını dedilər. Axtarışa Qasım adlı şəxs başçılıq edirdi, amma o gedəndə özünü Azər Məcidov kimi təqdim etdi. Mənim ailəm təmiz, heç kəslə işi olmayan ailədir. Şahinin özü də oğlum olduğu üçün demirəm, çox sakit, təmiz insandır. Dövlətimin mənə mükafatı budurmu?"

Dövlətin mükafatı... Qara torpaq. Məhkəmə oğlunu 6 il azadlıqdan məhrum edəndə ilk onun reaksiyasını öyrənmək üçün arxaya çevrilmişdim. Məhbus analarının emosiyalarını az-çox təxmin edirdim. İbrahim Novruzlu elə iki əlini məhkəmə skamyasına qoyub, çökmüşdü... İlk şoku evindəki qanunsuz əməliyyat zamanı keçirmişdi deyilənə görə. Sonra saysız-hesabsız məhkəmə prosesləri, konvoy kobudluğu, prokuror, üzəduran, yalançı şahid həyasızlığı, türmə qapıları və angioqrafiyaya məğlub olan ürəyi. Son xəyal qırıqlığını isə Qurban bayramı ərəfəsində əfv gözləntisinə görə yaşamışdı. Fərmanın imzalanacağı ilə bağlı ümidlər saatbasaat artır, hər an gözü-qulağı dövlət televiziyasında, xəbərlərdə. İndi deyərlər, bir azdan deyərlər... Və nəticədə qosqoca xəyal qırıqlığı, onun gətirdiyi ürək ağrıları, əzablar...

Hadisənin baş verdiyi gün isə adi səhərlərdən biri imiş. Səhər oyanıb, yeməyə iştahı olmadığını deyib. Bir tikə çörək, bir az pendir... İmtina edib. Az keçmədən uzanıb və qəfil xırıldamağa başlayıb. Ardınca ağzı köpüklənib və ürəyi təslim olub. Həmin an təsadüfdən Şahin zəng edib evə. Və zəng zamanı evdəki səs-küyü eşidib. “Telefonu götürüb çıxdıq otaqdan. Uşağı qorxutmamaq üçün dedik ki, qonşuda davadır, onun səs-küyüdür”. Anası danışır bunu da. Və türmədə atasının ölüm xəbərini öyrənən gənc Şahinin reaksiyası: “Axı mən ona bir söz deyəcəkdim. Niyə belə oldu?...”

Türmədəki dostları rəhbərliyə müraciət ediblər. Heç olmasa, bir neçə saatlığa bizi Şahinlə görüşdürün, söhbət edək, dərdi bir az azalsın, toxtasın... Cavab... hər zamankı kimi yox...

***

İ.Novruzluya yaxınları da, həkimlər də təcili əməliyyat məsləhət görmüşdülər. Hamıya verdiyi cavab belə idi: **“Oğlu türmədə olan adama nə əməliyyat? Şahinin dərdi məni öldürmədisə, bu da öldürməyəcək...”**

Mərhum son günlər bacılarına “sürpriz vədi” verirmiş. “Bir də gördüz, qapını döydüm, yanımda da Şahin... Sürpriz edəcəm sizə. Çox sevinəcəksiz”. Yas mağarasında ən çox İbrahim dayının bu sözlərindən danışırdılar.

Rəşadət Axundovun anası Mətanət xala, Zaur Qurbanlının anası Səkinə xala... Bir növ “səngər yoldaşlarını” itirmişdilər. Şəkillərini çəkirəm, Səkinə xala ironiyaqarışıq hazırcavablığından qalmır: **“Altına yaz ki, Azərbaycanın ən xoşbəxt anaları...”**

Bibisinin məhkəmədə verdiyi ifadə gəldi ağlıma sonra... Hakimlərə az qala yalvarırdı. “O körpəni azad edin, onun yeri ora deyil...”

Dünən də NİDA-çılar, onların yaxınlarının gözü-qulağı telefonda idi. Gah hüquq müdafiəçilərinə zəng edirdilər, gah deputatlara... “Kaş Şahini heç olmaya atasının yasına buraxsınlar. Evin tək oğludur, atasını son mənzilə yola sala bilmədi, heç olmasa yasında olsun...”

Qırıq-qırıq mənzərələr, sözlər, cümlələr qaldı ağlımda o yas çadırından. Bir də İbrahim Novruzlunun divardan asılmış fotosu. Dedim axı, mən bu mənzərəni məhkəmə qapısında çox görmüşdüm. İndi isə qarşımda bir ailənin qırılması, boynubükük 3 uşaq, 1 ananın tablosu, hekayəsi var. Sözlərin aciz qaldığı tablo...

**Allah rəhmət eləsin.**

❑ **Sevinc TELMANQIZI**

# Ehsan qadağası məmurlar üçün rüşvət mənbəyinə çevrildi

Deputat yeməkli yas məclisi üçün rüşvət alındığını bildirir, Sumqayıtda isə Eldar Əzizovun müavininin bir ehsan töreni üçün 600 manat aldığı iddia edilir



**Avqustun sonunda hakimiyyətin qərarı ilə başladılan ehsan süfrələrinin ləğvi qərarı “unudulur”. Hökumətin yerli icra strukturları vasitəsilə yas məclislərində ehsan, əsasən də yemək verilməsini yasaqlayan göstərişi ilk günlər ciddi reaksiya doğurdu. Əhalinin böyük qismi hökumətin ehsan qadağasını dəstəkləsə də, buna qarşı çıxanlar da oldu.**

Ancaq az sonra məlum oldu ki, qadağa ətrafında mübahisələr dini sahəyə rəhbərlik edən qurum və şəxslər arasında da mövcuddur. Daha əvvəl büruzə verilməsə də, sonradan QMİ-nin ehsan qadağasına qarşı çıxması aydın oldu. QMİ-nin yerləşdiyi "Təzəpir" məscidindəki ehsan zallarında yemək süfrələrinin davam etməsi, eləcə də şeyxin yaxın ətrafının qadağaya etiraz edən açıqlamaları bu mövzuda yüksək səviyyədə fikir ayrılıqlarının olduğunu ortaya çıxardı.

Sonradan mətbuata çıxan məlumatlardan belə aydın oldu ki, şeyx dövlət məmurlarının onun fəaliyyət sahəsinə aid qadağa tətbiq etməsindən narazı olub və bu narazılığını açıq şəkildə ölkə rəhbərliyinə bildirib. Şeyxin bu müqavimətindən sonra ölkədə ehsan süfrələrinə qarı aparılan qadağa siyasəti müəyyən mənada dəyişdirilib və məcburi deyil, könüllü olaraq ehsan verməməyə çağırıb.

Bu arada məlum olub ki, yerli məmurlar hökumətin bu sahəyə diqqətinin azalmasından istifadə edərək ehsan qadağasını rüşvət mənbəyinə çeviriblər. İlk belə fakt Sumqayıtda qeydə alınıb. Jam.az saytının məlumatına görə, Sumqayıt şəhər icra başçısının müavinlərindən biri ehsan verilməsinə icazə qarşılığında 600 manat tələb edir. Xəbərdə qeyd olunur ki, yas məclisi sahibləri ilə bu mövzuda vasitəçiliyi MİS rəisləri edir. Onlar yas sahibinə müraciət edərək ehsan süfrəsini təşkil etmək üçün yalnız icra başçısının bu sahəyə baxan müavini ilə danışmaq lazım olduğunu və 600 manat qarşılığında ehsan verilməsinə razılıq verilə biləcəyini bildirirlər. Rüşvət verənlər ehsan süfrəsi açıb köhnə qayda ilə məclis təşkil edə bilirlər.

Ötən gün məlum olub ki, Bakıda da bu cür “ehsan rüşvətləri” yığılır. Movqe.az saytına açıqlamasında deputat Fazil Mustafa deyib ki, ona bugünlərdə belə bir məlumat verilib ki, dövlət qurumlarından birinin səlahiyyətliləri ehsan süfrəsinin açıldığı yas mərasimlərindən birinə gedərək rüşvət alıblar. Sitat: **“Məlumata görə, onlara ehsan süfrəsinin verilməsinə şərait yaratdıqlarına görə 200 manat məbləğində rüşvət verilib. Yas mərasimlərində dəbdəbəli ehsan süfrəsinin açılmasına çox təəssüf ki, vətəndaşlar əlavə xərcə düşməklə olsa belə, rüşvət verərək şərait yaradırlar. Yas mərasimlərində dəbdəbəli ehsan süfrəsinin açılmasında çadır mafiyasının rolu böyükdür. Onlar bu kampaniyanın dayandırılması üçün əməlli-başlı mübarizə aparırlar”.**

Bundan başqa, rayonlarda və kəndlərdə yerli icra hakimiyyəti orqanlarının əməkdaşları mərkəzi hökumətin qadağa ilə bağlı göstərişindən sui-istifadə edərək əhalini incidir, özlərindən qaydalar tətbiq edir, istəmədikləri məclisləri dağıdır, yaxud ehsan məclisləri üçün alınan ərzağı, əti müsadirə edərək orduya verilmə adı ilə aparırlar. Gələn şikayətlər, sosial şəbəkələrdə yayılan məlumatlardan belə məlum olur ki, fürsətçi məmurlar bu qadağadan rüşvət mənbəyi kimi istifadə etməyə başlayıblar. Bunun qarşısını almaq üçünsə ilk növbədə bu sahədə normativlərin müəyyən olunması, əlavə sui-istifadələrə imkan verməyən qanun qəbul olunmalıdır. Bu işləri isə yalnız dini və müvafiq dövlət orqanları həyata keçirə bilər ki, onların arasında da bu mövzuda ciddi fikir ayrılıqları mövcuddur. Bu mənada ehsan islahatı təşəbbüsünün dalana dirəndiyini demək olar. Hazırkı şərait isə rüşvətxor məmurların işinə yarayır, çünki bu prosesdən sözün əsl mənasında qazanan məhz onlardır.

❑ **KƏNAN**

# “Beş-altı hüştürüm düşüb ortaya...”

## Siyavuş Novruzov: “Onların “stavka” elədiyi adamlar bu gün Azərbaycanda ictimai-siyasi sabitliyin pozulmasına milçəyin uçduğu vızıltı qədər də təsir göstərə bilməz”

**“YAP tribunası”**

**Milli Şuranın 12 oktyabr mitinqində Avropa Birliyinin bayraqlarının meydanda qaldırılması müxtəlif versiyalara yol açıb. Bəzi müşahidəçilər Azərbaycan hakimiyyətinin Qərblə münasibətlərinin kəskinləşməsi, Rusiya ilə isə yaxınlaşma şəraitində hətta uzaqgedən nəticələr çıxararaq “Avromeydan”ın Azərbaycanda gündəmə gələ biləcəyi barədə ehtimallar səsləndirirlər. YAP icra katibinin müavini, deputat Siyavuş Novruzov isə Bakı ilə Qərb arasında münaqişənin olduğunu inkar edir:**

- Əvvəla, Avropa təşkilatları ilə Azərbaycanın çox yaxşı əlaqələri var və bütün Avropa qurumları ilə hərtərəfli əməkdaşlığımız davam edir. Avropa Parlamenti, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Təşkilatı kimi bəzi qurumlar həmişə Azərbaycana qarşı qərəzli olub. Lakin buna baxmayaraq əlaqələr davam edir. Azərbaycan postsovet və Şərqi Avropa ölkələri arasında Avropa İttifaqı ilə həyata keçirdiyi layihələrə görə birinci yerdə gedir. 20 milyard dollardan yuxarı həcmdə ikitərəfli iqtisadi layihələr həyata keçirilir. Avropanın enerji təhlükəsizliyində Azərbaycan ən vacib rollardan birini oynayır, baxmayaraq ki, bununla bağlı təzyiqlər var. Ümumilikdə Avropa deyəndə Avropa ilə əməkdaşlıqdan söhbət gedir. Elə məsələlər var ki, Azərbaycan onu ölçülü-biçili, balanslaşdırılmış şəkildə, təkamül yolu ilə həyata keçirdir, kor-koranə yox. Məsələn, biz NATO-nun 300-dən artıq proqramında iştirak edirik, Azərbaycan ordusunun zabitləri NATO təlimləri alır. O cümlədən Sərhəd Qoşunları, Daxili Qoşunlar. Azərbaycanın təlim və tədrisi 2007-ci ildən NATO standartlarına uyğunlaşdırılıb. NATO-ya üzv olmaq üçün bəyanat verən ölkələrin nə ordusunun büdcəsi, nə dövlət büdcəsi, nə qanunvericilik Azərbaycan səviyyəsində deyil. Sadəcə olaraq, onlar bəyanat verməklə “qarğa, məndə qoz var” funksiyasını həyata keçirirlər. Azərbaycan isə balanslaşdırılmış siyasət aparır. O ki 5-6 hüştürüm düşüb ortaya, Avropaya yaxınlığı ilə seçilmək istəyir, biz həmişə görmüşük ki, həmin adamlar narıncı paltar geyib, yaxud əllərinə gül dəstəsi götürüb küçəyə çıxıblar. Yəni dünyada baş verən hadisələrlə bağlı bunların öz fikirləri, xalqa verəcək hansısa təklifləri yoxdur, ondan-bundan oğurluqla, hansısa ölkələri yamsılamaqla məşğuldurlar. Yuqoslaviyadan başlamış indiyədək biz bu proseslərin şahidi olmuşuq. Lakin bunlar zaman, məkan, şəxsiyyət, xalq-dövlət münasibətlərini ölçmürlər. Hadisələr baş verən ölkələrdə tamam başqa məsələlərdən söhbət gedirdi. Yoxsa bir bayraq qaldıran kimi burda nəsə baş verəcəyini düşünmək yanlışdı, bununla məsələ həll olunmur.

***- Siyavuş bəy, belə yanaşma da var ki, Azərbaycanla Qərb arasında konfrontasiyanın dərinləşməsinin əsas səbəbkarı hakimiyyətin özüdür. Yəni iqtidar Avropadan gələn tövsiyələrə adekvat reaksiya vermədiyi üçün özünə olan etimadı tükədib və Qərb də əlində Avropa Birliyinin bayraqlarını tutan alternativin meydanda olmasında maraqlıdır və fərqli qüvvəyə “stavka” məsələsi gündəmə gəlib. Bu fikirləri bölüşürsünüzmü?***

- Qəti şəkildə belə şey yoxdur. Bizi əhatə edən, bizi istəyən dövlətləri də götürsək, onların heç biri özündən güclü bir ölkənin olmasını istəmir. Bu və ya digər şəkildə müxtəlif təzyiq vasitələri ilə o dövləti zəiflətmək, özündən asılı vəziyyətə salmağa çalışır. Bu, onların praktikasıdır. Məsələn, ərəb yarımadasında stabil dövlətlər var idi, dağıtdılar, parçaladılar, indi qan su yerinə axır, heç kəsin də vecinə deyil. Yalandan ortada şou düzəldirlər ki, buna qarşı mübarizə aparacağıq, əslində isə özlərinin yaratdığı problemdir. Bu terrorçu qruplar, təşkilatlar indiyə qədər niyə yox idi? Bu dövlətləri parçaladılar, ordakı hörmətli insanları öldürdülər, həbs etdilər. Nəticə etibarilə ölkədə zəif bir hakimiyyət qaldı ki, o da ölkəni idarə edə bilmədiyi üçün xaos yarandı.

***- Azərbaycanda da belə təhlükəli ssenarinin həyata keçirilə biləcəyindən son vaxtlar danışılmaqdadır. Reallıqmı?***

- Qəti şəkildə. Birincisi, Azərbaycanda xalqla hakimiyyət bir yerdədir. Xalqın tam əksəriyyəti, demək olar ki, 100 faizi prezidenti dəstəkləyir. 1-2 faiz adamlar var ki, bu və ya digər şəkildə 90-cı illərdən müxalifətdə olanların ətrafındadır. Çoxları da artıq bezib, biz bunu bəzi partiyaların fəaliyyətində görür və hiss edirik. Azərbaycanda məsuliyyətə cəlb olunan şəxslər də həmin təşkilatların burdakı vassallarıdır. Onlar bəzi təşkilatların maliyyəsi ilə ölkədə ictimai-siyasi sabitliyi pozmaq, Azərbaycan əleyhinə mənfi rəy formalaşdırmaq kimi işlərlə məşğuldur. O adamlar məsuliyyətə cəlb olunub ki, onlar əks kəşfiyyata qədər ayrı-ayrı təxribatçı əməllərlə məşğul oldular.

***- ABŞ Dövlət Departamentindən növbəti dəfə “Yunusları azad edin” çağırışı oldu...***

- Təbii ki, olmalıydı. Erməni lobbisinin ciddi təsirinin nəticəsidir. Çünki o adamlar erməni lobbisinin maliyyəsi əsasında bu işləri aparırdılar və artıq ifşa olunublar. Yəni onların burdakı kəşfiyyatçıları ifşa olunub. Azərbaycanın ordusu, digər strukturlar haqqında həmin təşkilatlara və Ermənistan kəşfiyyatına üçüncü ölkə vasitəsilə, yaxud bilavasitə özü səfərlər edərək mütəmadi olaraq məlumat ötürürdülər. Ona görə də onlar narahatdır, kəşfiyyatçıları burda tutulub, onların mövqeyini təbii qarşılayıram. Erməni lobbisinin Dövlət Departamenti və yaxud ordakı qurumlara təsirinin səviyyəsini də bilirsiniz. Onların “stavka” elədiyi adamlar bu gün Azərbaycanda ictimai-siyasi sabitliyin pozulmasına milçəyin uçduğu vızıltı qədər də təsir göstərə bilməz.

***- Son cərəyan edən proseslər sanki Azərbaycanı Rusiya ilə ittifaqa doğru aparır. Sizə elə gəlmirmi?***

- Azərbaycan nə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı, nə Gömrük İttifaqı, nə də Avrasiya İttifaqına qoşulub. Ortaya şərt qoyub ki, Azərbaycan ərazisini işğal edən bir dövlətlə eyni təşkilatda ola bilməz. Son anda Ermənistan Avrasiya İttifaqına daxil olmaq üçün Azərbaycanın ərazi bütövlüyünü tanıdı. Çünki şərt qoyulmuşdu ki, bu quruma BMT-yə daxil olarkən tanınmış ərazilərlə üzv ola bilər. Yəni Azərbaycan BMT-yə Dağlıq Qarabağ və ətraf ərazilərlə bir yerdə daxil olub. O baxımdan sabah Ermənistan vahid Gömrük İttifaqına daxil olacaqsa, Ermənistanla Dağlıq Qarabağ arasında gömrük postu yaranmalıdır. Bunu İrəvan imzası ilə bir daha təsdiq etdi. Sabah Azərbaycan Gömrük, yaxud Avrasiya ittifaqlarına daxil olacaqsa, Qarabağla bir yerdə daxil olacaq.



**“Sabah Azərbaycan Gömrük, yaxud Avrasiya ittifaqlarına daxil olacaqsa, Qarabağla bir yerdə daxil olacaq”**

***- Mehman Əliyev maraqlı fikir bildirib ki, 2005-ci ilin əvvəllərində ölkədə yeni siyasət elan olunacaq. Təsdiqləyirsinizmi?***

- Mehman Əliyevin dedikləri, sadəcə olaraq, tərəfdarlarını həvəsləndirməyə hesablanıb. 2015-ci ildə ölkədə parlament seçkiləri keçiriləcək və çoxları indidən hazırlaşır. Azərbaycanda demokratikləşmə ilə bağlı addımlar atılır. Siyasi partiyalara, QHT-lərə, mətbuata dövlət dəstəyi var, sərbəst toplaşma azadlığı var. Kim istəyir gedib mitinqini keçirsin, gördük necə mitinq keçirdilər. Kimlərsə özünü bundan kənarda saxlayırsa, özlərinin problemidir.

***- İqtidarla müxalifətin görüşü, dialoqu gözləniləndirmi?***

- İqtidar parlament müxalifəti və parlamentdə təmsil olunmayan bir sıra müxalifət partiyaları ilə mütəmadi görüşlər keçirir, dialoq var. Sadəcə, bir neçə partiya özünü qırağa çəkib. Son vaxtlar Müsavatda islahat olacağı, demokratik seçki keçiriləcəyi, bunun nəticəsində münasibətlərin normallaşması gözlənilirdi, artıq təşkilatda baş verənlər göz önündədir. Rayon təşkilatları özünü buraxır, istefalar davam edir.

***- Burada iqtidarın barmağı ola bilərmi?***

- Qəti şəkildə. Sadəcə olaraq, ədalətsiz seçkinin nəticəsidir.

❑ **Elşad PAŞASOY**





# “Xarici faktora ümid üzərində köklənmək müxalifətin zərərinə işləyir”

## Qabil Hüseynli: “Xarici faktorun müxalifətə bir vəd verib lazımi anda isə başqa cür hərəkət etdiyini görmüşük”

**Mübarizəni, fəaliyyəti daha çox xarici faktorlara, müxtəlif ölkələrdə gedən inqilabi proseslərə əsaslanaraq “proses bizə də çatmaq üzrədir, xaricdən dəyişikliklərə dəstək olacaq” ümidləri üzərində qurmaq Azərbaycan müxalifət düşərgəsinin yanlışlıqlarındandır. Bu barədə politoloq Qabil Hüseynli “Müxalifətin fəaliyyətini xarici faktorlara ümid üzərində qurması doğrudurmu və bu cür fəaliyyət effekt verə bilərmi” sualına cavabında bildirib. “Yeni Müsavat”a bu mövzuda fikirlərini açıqlayan Qabil Hüseynli hesab edir ki, xaricə yönəlik siyasət yürütmək indiyəqədərki mübarizə tarixi göstərir ki, səmərə vermir. Müxalifətin ölkəmizdə əsas nöqsanlarından biri xarici faktorlara daha çox əsaslanması və ümidlənməsidir: “Belə olduğu üçün də daxildə öz aralarında dil tapmaq, siyasi inteqrasiyaya getmək məsələsi unudulur. Yəni müxalifətin daha iri birliklərinin yaradılması və bu zəmində milli gücün öz ətraflarında formalaşdırılmasına çalışılması məsələsi arxa plana keçirilir. Partiyalar pərakəndə fəaliyyət göstərməklə daha çox öz aralarında konfliktə gedirlər, bir-birini ittihamla məşğul olurlar və bu fonda xalqla əlaqə məsələsi də arxa plana keçir. Bununla yanaşı, partiyalar öz aralarında atışanda və yaxud partiyadaxili atışmalar gedəndə xalqın siyasi partiyalara etimadı xeyli zəifləyir. Mən yeni heç bir şey söyləmirəm. Bunu təcrübə sübut edir ki, partiyalar mütləq öz aralarında siyasi inteqrasiyaya getməlidirlər, iri güc mərkəzləri yaratmağa çalışmalıdırlar. Xalqın içərisinə getmək məsələsinin yollarını aramalıdırlar. Müxalifət partiyaları xaricdən kömək gözləmək, xaricdə gedən proseslərin mütləq tezliklə buraya da keçəcəyini gözləmək və ümidləri buna bağlamaq sindromundan xilas olmalıdırlar. Yalnız bu zəmində, yəni xalqın içərisinə getməklə, xarici faktoru arxa plana keçirməklə, xalqın içərisində öz ideyalarını populyarlaşdırmaqla, xalqın ciddi etimadını yavaş-yavaş əldə edə, hətta reytinqlərini qaldıra bilərlər”.**

Politoloq vurğuladı ki, Azərbaycan cəmiyyətində xarici faktora inam, etimad artıq yox səviyyəsinə enib. Müxalifət bunu da nəzərə almalıdır: “Xarici faktorlarla Azərbaycanın gələcəyini təsəvvür edəndə bu, Azərbaycan xalqının ləyaqətinə toxunur. Cəmiyyət düşünür ki, nəyə görə hansısa xarici qüvvə gəlib burada mənim həll etməli olduğum vəzifələri həll etməlidir. Üstəlik, "Siyasi partiyalar haqqında" Qanunu bilənlər də az deyil. Orada yazılıb ki, siyasi partiyalar xaricdən heç bir yardım almamalıdırlar".

**Q.Hüseynli onu da dedi ki, xarici faktora ümid edib siyasət yürütmək bu 20 il ərzində Azərbaycan müxalifətinin ziyanına işləyib. Ancaq qəribədir ki, bir çox partiyalar hələ də bunu görə-görə həmin siyasəti yürütməkdə davam edirlər:** “Onlara yaxın qəzetin səhifələrində xarici faktor tərənnüm edilir, Qərbin guya bu gün-sabah Azərbaycanda dəyişiklik edəcəyi, hakimiyyətin bir addımlığında olduqları iddiaları irəli sürülür, ağızlarının suyu axa-axa bu cür fikirlər yayırlar. Halbuki xarici faktorun özünün maraqlarını ön plana çəkdiyini və müxalif siyasi partiyaları aldatdığını biz dəfələrlə görmüşük. Müxalifətə bir vəd verib lazımi anda isə başqa cür hərəkət etdiyini görmüşük. Bax, bu nöqteyi-nəzərdən xarici faktor anlayışı o zaman əhəmiyyət kəsb edə bilər ki, müxalifət özü daxildə milli gücə çevrilsin, xalq kütlələrinin dəstəyini, etimadını qazansın. O zaman ola bilsin ki, xaric də müxalifətə müəyyən real etimad göstərə bilər. Belə olmadıqca həmişəki aldadıcı siyasət davam edəcək. İndiki şəraitdə xaricdən kömək gözləmək, hansısa xarici proseslərin nəticəsində burada da dəyişikliyin olacağı haqqında ümidlərə qapılıb siyasəti bunun üzərində qurmaq mənasızdır, özünü aldatmaqdır”.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 256 (5965) 17 oktyabr 2014



# Gedənlər... qalanlar...

Xalid KAZIMLI

**Partiya üzvü olan hər kəsin istədiyi gün təşkilatdan ayrılmaq haqqı var. Bu, onun eksklüziv hüququdur və kimsə tərəfindən əlindən alına bilməz. Ancaq partiya üzvü olan və üzvlüyünü dayandırmaq istəyən şəxslərin bunu mütləq ictimailəşdirməli olması kimi bir öhdəliyi yoxdur. O və başqaları bunu etməyə də bilərlər.**

Partiyaya daxil olarkən bunu etməmisənsə, yəni mətbuat konfransı keçirib partiyaya daxil olduğunu təntənəli şəkildə ictimaiyyətə bildirməmisənsə, çıxanda da etməyə bilərsən.

Yox, dünənə qədər, şair demişkən, "bəşərin vicdanı, eşqi, ürəyi" saydığın, dediyin, "doğma, əziz" partiyandan çıxmağını el-aləmin bilməsini istəyirsənsə, bu, artıq adi küskünlük deyil, nəsə başqa bir nüansı da var.

Bu, acıq çıxmaq, qisas almaq, zərbə vurmaq da ola bilər, kimlərinsə səhv yolda olduqlarını başa salmaq cəhdi də.

Ancaq hər bu kimi ayrılışların başlıca motivi dəyişməzdir. Bütün istefalar həmin partiya daxilində olaraq perspektiv görməmək düşüncəsindən doğur.

İnsanlar belədirlər, ömürlərinin bir yarısını bir ideyaya həsr edə, bir məqsəd uğrunda mübarizəyə xərcləyə, fədakarlıqlar edə, əzabkeş ola bilərlər, amma bir gün yorulur, usanır, bezirlər və az qala getmək üçün bəhanə axtarırlar.

Bəhanə və ya səbəb axtardınsa, onu tapacaqsan. Heç kəs olmasa da, o səbəbi sənə öz partiyadaşların yaradacaq, ya da bəhanə verəcəklər.

Bəzən mövcud rejimin repressiyasından, yaratdığı məhrumiyyətlərdən qorxmayan şəxslər öz liderlərinin adi bir ehtiyatsız sözündən, ya da təşkilat daxilindəki adi bir haqsızlıqdan (yaxud haqsızlıq hesab etdiyi bir şeydən) qırılırlar və bunu ölümcül zərbə kimi qarşılayır, həzm edə bilmirlər.

Qurultaydan sonra Müsavat Partiyasından istefa verənlərin hadisəsində bu faktorların hamısı var. Gerçək olan odur ki, indiyədək bu şəxsləri bir partiya daxilində saxlayan faktor bəzilərini artıq saxlaya bilmir.

Burası dəqiqdir ki, partiya sırf ali ideallar və yalnız saf məfkurə uğrunda mübarizə aparan insanların toplumu deyil. Orada hər cür adamlar da ola bilər - karyeristlər, kəmfürsətlər, şöhrətpərəstlər və başqaları.

Onlar döngələrdə heç də səbatlı olmayacaqlar, niyyətlərinin reallaşmaq imkanından uzaq olduğunu görüncə gedəcəklər. İnciyənlər də o cümlədən.

İllərdir belədir. Ölkədə fəaliyyət göstərən hər bir partiyanın başına bu cür işlər gəlib. Zaman-zaman Müsavatdan da qopanlar olub. Onların arasında sakit gedənlər də, gedişini ictimailəşdirib ajiotaj yaratmağa çalışanlar da tapılıb.

Fəqət bu dəfə vəziyyət bir az fərqlidir. Gedişlərini ictimailəşdirərək gedənlərlə yanaşı, narazılıqlarını içində boğub bir kənara çəkilənlər, bunu çox adama deməyən və gedişini rəsmiləşdirməyənlər də var. Getməyi düşünən, ancaq abrına qısılanlan narazıların varlığı da hiss olunur.

Bu bir çətin dönəmdir, sınaq anıdr və köklü partiyalar bu cür qopmalardan sarsılan deyil. Əsas odur ki, partiyanın yeni rəhbərliyi ölçülü-biçili, təmkinli siyasət yeritsin, tərəddüd edənləri son addıma tətikləyəcək qərarlar və açıqlamalar verməsin.

Bir də gedənlərin asılıb-kəsilməsi, pislənilməsi ənənəsinə son qoyulmalıdır. Bunu xəyanət kimi qələmə vermək olmaz. Çünki partiya üzvü olmaq hər halda ailə qurmaq deyil ki, ayrılanda qalmaqallı olsun. Üstəlik, bir partiyadan ayrılan şəxslər başqa partiyalarda fəaliyyətlərini və mübarizələrini davam etdirə bilərlər.

Təşkilat daxilində fikir və mövqe ayrılığına görə, hansısa mənsəb uğrunda mübarizədə toqquşaraq, uduzaraq ayrılmaq qərarı verənləri dərhal satqınlıqda, xəyanətdə ittiham etmək gələcək əməkdaşlıqların, müttəfiqliklərin də qarşısını alır.

Daha da güclənmək istəyən partiyaların liderləri, xüsusilə də orta ranqlı funksionerləri (təcrübə göstərir ki, bu kimi hallarda onlar daha aqressiv olurlar) istefa haqqında xəbərləri maksimum səbr və təmkinlə qarşılamalıdırlar.

Gedənlərə və getmək istəyənlərə isə artıq klassik bir cavab var: "Getmək istəyirsən, bəhanəsiz get", köhnə xatirələri oyatma, bəyanatı bəyanata calama, hissə qapılıb zərbə vurmağa çalışma və bil ki, hara getsən də, bu arada olacaqsan, bu meydandan çıxa bilməyəcəksən.

**Müsavat Partiyasının Tovuz rayon təşkilatının üzvləri bəyanat yayaraq rayon təşkilatının tam tərkibdə partiyadan istefa verdiyini bildirib. Bəyanatda bildirilir ki, təşkilat üzvləri partiyanın mərkəzi aparatından zaman-zaman etinasızlıqlar görmələrinə baxmayaq, fəal rayon təşkilatlarından biri olublar. Amma qurultay ərəfəsində və qurultaydan sonra təşkilat daxilində baş verənlər, təşkilat rəhbərliyinin demokratik prinsipləri tapdalaması həmin kəslərlə eyni çatı altında mübarizə aparmaq imkanlarını sıfıra endirir: "Bölgə təşkilatı buna görə də bütün müsavatçılardan üzr istəyərək, Tovuz rayon təşkilatının tam tərkibdə partiya üzvlüyündən istefa verdiyini bəyan edir".**

# Qubad İbadoğlu müsavatçılara çağırış etdi ki, partiyadan getməsinlər

## Müsavatın Tovuz təşkilatı tam tərkibdə istefa verib; partiya isə hamının istefa vermədiyini və təşkilatın fəaliyyətinin bərpa olunacağını açıqladı

**Müsavat Partiyasının Tovuz rayon təşkilatının sədri Miryaqub Ağamirli** APA-ya faktı təsdiqləyib. Onun sözlərinə görə, onları bu addımı atmağa Müsavat Partiyasının qurultayı ərəfəsində yaşananlar, qurultayda baş verənlər və qurultaydan sonrakı proseslər vadar edib: "Şura üzvləri ilə məsləhətləşdik və belə qərara gəldik ki, bu partiyada qalmağımız mümkün deyil. Mən artıq partiya üzvü deyiləm. Amma Müsavat ideyalarının daşıyıcısı kimi bu addımı təəssüflə atıram".

Müsavat Partiyası başqanının müavini Gülağa Aslanlı isə Tovuz rayon təşkilatının üzvlərinin istefası ilə bağlı partiyaya heç bir sənəd daxil olmadığını bildirdi: "Partiyanın təşkilat şöbəsi məsələni dəqiqləşdirəndən sonra ona münasibət bildiriləcək. Əgər istefa məsələsi dəqiqləşsə, buna təəssüflənməkdən başqa yolumuz yoxdur. Narazılıq edənlər şikayət ərizəsi təqdim ediblər. Baxılmasını gözləyirlər. Şikayət ərizəsinin nəticəsini gözləmədən belə bəyanat verilməsi təbii ki, bizi təəccübləndirir. Onlar bəyanatlarında qurultayda saxtakarlıqların olması barədə ittihamlar irəli sürüblər. Qubad İbadoğlunu dəstəklədiklərini də bildirirlər. Qubad İbadoğlu da bildirib ki, baş verənlərlə bağlı şikayət ərizəsi verib. Həmin ərizə də partiyanın Nəzarət Təftiş Komissiyası tərəfindən qəbul olunub və onun araşdırılmasına başlanılıb. Araşdırmanın nəticəsini gözləmədən belə bir bəyanatın verilməsi təəssüfləndiricidir".

**G.Aslanlı onu dedi ki, əvvəla, istefa varsa, həmin şəxs özü partiya rəhbərliyi ilə görüşməlidir:** "Partiya qərargahına gəlməyən, heç kimlə görüşməyən adam istefa verir, sonra da deyir ki, məni çağırmalıdırlar. Bu, hansı məntiqə sığır? O, artıq partiya üzvü deyilsə, biz onunla niyə danışmalıyıq? İstefa verəcək adamın kimliyini əvvəlcədən müəyyənləşdirmək xeyli çətindir. Xoş üzlə gələn adamın sabah başqa fikirdə olmasını dəfələrlə görmüşük. Ancaq bütün hallarda bu istefaları partiyanın təşkilat şöbəsi araşdırmalıdır və araşdıracaq".



**Müsavat başqanlığına sabiq namizəd Qubad İbadoglu isə dünən günün birinci yarısı Myanmardan müsavatçılara çağırış edib. Facebook səhifəsində yerləşdirdiyi çağırışda Qubad İbadoğlu bunları bildirib:** "Dəyərli və fədakar müsavatçılar, sizə bir daha bəyan edirəm ki, Müsavat nə bir şəxsin, nə bir ailənin, nə bir kəsimin, nə də bir dönəmin partiyasıdır. Mən necə partiyada qalıb fəaliyyətimi davam etdirirəm, elə də sizləri mübarizənizi partiya daxilində aparmağa çağırıram".

**Əslən Tovuz rayonundan olan Müsavatın sabiq Divan üzvü Vurğun Əyyub isə APA-ya bildirib ki, partiyanın rəhbərliyində olan şəxslər istefaların qarşısını necə alacaqları barədə düşünməlidirlər.**

**V. Əyyub Tovuz təşkilatının üzvlərinin istefasından xəbərsiz olduğunu və bundan təəssüfləndiyini bildirib:** "Təbii ki, onların bu hərəkətinə təəssüf edirəm. Niyə bu qərara gəliblər, kiminlə məsləhətləşiblər, mənim bununla bağlı məlumatım yoxdur. İstefalar partiyanın rəhbərliyində olan adamları maraqlandırmalıdır ki, bunlar hansı səbəbdən baş verir və onun qarşısını necə almaq olar?.."

**Müsavat Partiyası Təşkilat Şöbəsinin müdiri Razim Əmiraslanlı isə bəyan edib ki, ilkin araşdırma aparıblar və məlum olub ki, Tovuz təşkilatının bütün üzvləri yox, rəhbərliyinə daxil olan bəzi şəxslər istefa verib:** "Müsavat Partiyası Tovuz rayon təşkilatının adından verilən bəyanatla tanışıq. Rayon təşkilatının keçmiş sədri ilə danışaraq onların istefası barədə mətbuatda yayılan məlumatı dəqiqləşdirmişik. Rayon təşkilatının rəhbərliyinə daxil olan bəzi şəxslər partiyanı tərk edib. Lakin Tovuz rayon təşkilatında Müsavat Partiyasının ümumi ideoloji xəttini dəstəkləyən müsavatçılar var. Biz onlarla əlaqə saxlamışıq və yaxın zamanlarda Tovuz rayon təşkilatının fəaliyyəti bərpa olunacaq".

**Müsavat Partiyası Məclisinin üzvü Osman Kazımov isə teleqraf.com-a müsahibəsində bildirib ki, vaxtilə Sülhəddin Əkbər partiyadan getdi nə oldu ki, indi kimsə getsə nə olacaq:** "Lap 50-100 nəfər getsin. Müsavat batacaq? Bir müddət bu məsələdən yazacaqlar. Lap gedib partiya da yaratsınlar. Kim getmək istəyirsə, yolu açıq və uğurlu olsun. Bu bizim üçün faciə deyil. Həyat, fəaliyyət davam edir. İndiki mərhələdə getmək fərariliyə bərabərdir. Amma onlar bizim üçün əziz insanlardır. Biz onlardan incimirik. Həyatı hər kəs bir cürə qəbul edir. İndi gəncləri təhrik edən insanlar da var. Mən İsa Qəmbərin Məclisdəki çıxışından sonra Qubad İbadoğlunun reaksiyasına baxdım. Açığı, belə lazım deyil. Əgər kimsə getmək istəyirsə, qapı açıqdır. Müsavatı ləkələməklə, böhtan atmaqla bunu etməyin nə mənası var? Çıxsınlar desinlər ki, biz bu qərara gəlmişik və gedirik. Bu, daha doğru, daha səmimi olar. Görünür, müəyyən ssenari var. Mən qurultaydan əvvəl İsa Qəmbərə dedim ki, belə bir məlumat var, ehtimal olunur ki, bu proses getsin. Həyat da göstərdi ki, mən haqlıyam.

Narazılar 2-3 gün əvvələ qədər şikayət təqdim etməyiblər, ancaq bəyanat veriblər. Bəyanatlarla şikayət araşdırılmır. Partiya nizamnamə ilə fəaliyyət göstərir. İbadoğlu deyir ki, qurultaya qədər ona qarşı ədalətsizlik olub, amma onun tərəfdarı olan Əlövsət Talışxanlı MNTK nümayəndəsi kimi qurultayda hesabat verdi, hər hansı qanun pozuntusunun olduğunu qeyd etmədi. Onlar sadəcə Qubad İbadoğlunun qalib gələcəyini hesablamışdılar və bu səbəbdən də MNTK-nın hesabatında pozuntuya yol verilmədiyini bildirdilər. Əgər Qubad İbadoğlu qalib gəlsəydi, indi də deyəcəkdilər ki, hər şey ədalətli olub.

Vurğun Əyyub Divan üzvü idi və İbadoğlunun xeyrinə təbliğat aparırdı. MNTK-dan Əlövsət Talışxanlı açıq şəkildə təbliğat aparırdı. Əslində isə MNTK partiyanın məhkəmə strukturudur və bütün mübahisələr orada çözülür. Bu mənada MNTK tərəfsiz qalmalı idi. Qubad İbadoğlunun xeyrinə İsa Qəmbərin qardaşından bəyanat alınmışdı, İsa Qəmbərin qohumları İbadoğlunun seçki kampaniyasında açıq iştirak edirdilər. Qurultaya qədər və qurultay günü narazılıq ifadə eləməyən adamlar qurultaydan sonra narazılıq qaldırırlar və bu, anlaşılan deyil".

**O.Kazımov Müsavatın fəaliyyətinə böhtan atan, kölgə salan şəxslərin nizamnamə tələbi ilə cavablarının verilməsinin vacibliyini bildirib:** "Üzvü olduğu partiyanı alçaltmağa çalışan şəxs nizamnamə çərçivəsində cavabını almalıdır. Mən demirəm ki, kimisə asıb-kəsmək lazımdır. Deyirəm ki, hər kəs fikirlərinə, danışığına diqqət etməlidir. Deyirlər ki, İsa Qəmbər başda olmaqla, hamı saxtakarlığa yol verib. Mən də deyirəm ki, saxtakarlıq faktlarını ortaya qoyun. Bu mənada təhqiramiz fikirlərə görə cəza olmalıdır.

İsa Qəmbər haqda təhqir yazmışdılar. Qubad İbadoğlunu dəstəkləyən bir nəfər də bu fikirləri dəstəkləyərək sosial şəbəkələrdə paylaşmışdı. Qubad İbadoğluna da deyirlər ki, bu məsələyə münasibətini bildir, ancaq o susur. Əgər bunu Arif Hacılının tərəfdarı etsəydi, Arif bəy onu tərəfdarlığından silərdi".

**Sonda qeyd edək ki, "Yeni Müsavat"a daxil olan məlumata görə, Müsavat Partiyasının daha bir neçə rayon təşkilatında üzvlərin istefa verməsi üçün müəyyən çevrələrdə müzakirələr aparılır. Mənbə Cəbrayıl və Suraxanı rayon təşkilatlarının adını bu sırada xüsusi çəkib.**

❑ Etibar SEYİDAĞA

# Şimal təhlükəsi ilə bağlı ilginc proqnoz

## Moskvadan təzyiqin ikinci dalğası gələcək; "Milyarderlər ittifaqı" yenidən yada düşəcək

**"Rusiyadan Azərbaycana yönələn təzyiq dalğası ötüb keçməyib, hələ qarşıdadır. Bu gün Azərbaycan-Qərb münasibətləri kifayət qədər pozulub, əlaqələr xeyli dərəcədə zəifləyib. Bakı ilə Vaşinqton, Bakı ilə Brüssel demək olar ki, bir-biri ilə sərt tənqid, təhdid ritorikası ilə danışırlar. Yəni Moskva ilk mərhələdə qarşısına qoyduğu vəzifəni yerinə yetirə bildi".**

Bunu **"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu** Azərbaycan-Rusiya münasibətlərinin indiki durumunu şərh edərkən bildirdi. Ötən illə müqayisədə Bakı ilə Moskvanın münasibətlərindəki "buz" qatının əriməsi, şovinist Jirinovskidən tutmuş bir sıra digər dövlət rəsmilərinə qədər Rusiyadan Azərbaycanla bağlı isti münasibət açıqlayanların əmsalının artması maraqlı mənzərə yaradır. Ötən illərdə milyarderlərlə Bakını təhdid edən Rusiya indi ayrı statusda görünməyə çalışır. **Ə.Oruclu isə hesab edir ki, münasibətlərdə ikinci mərhələ başlayır:** "Bu mərhələdə Azərbaycanı Gömrük İttifaqına və Avrasiya İqtisadi Birliyinə qoşmaq məqsədi var. Güman edirəm ki, burda fikirayrılığı yaranacaq. Məsələ burasındadır ki, əslində Rusiya Azərbaycandan bunu tələb edirsə, - məlumdur ki, minimum tələb budur - Qərb Azərbaycana qarşı bu tipli tələblər irəli sürmür. Qərbin Azərbaycanla bərabərtərəfli iqtisadi əməkdaşlığı var, Qərb Azərbaycandan insan hüquqlarına, qanunlara hörmətli münasibət tələb edir. Amma Rusiyanın iddiası daha böyükdür". Ə.Oruclu şübhə etmir ki, Moskva Azərbaycanı tam təsir dairəsinə almaq niyyətindədir: "Ehtimal etmək olar ki, burda münaqişə, fikirayrılığı yaranacaq. Nəticədə həmin o "Milyarderlər ittifaqı"da, digər qurumlar da yenidən yada düşəcək və işə salınacaq. Bir neçə gün əvvəl də yazmışdım ki, Rusiyanın əslində Ermənistandakı ssenarisi Azərbaycan üçün də məqbul ola bilər. Çünki Azərbaycanda da yetərincə Rusiyaya yaxınlaşa bilən, Rusiya ilə əməkdaşlığa gedə biləcək siyasi qüvvələr var".

**Ekspert qeyd etdi ki, Azərbaycanın iqtisadi cəhətdən Qərblə bağlı olduğu qədər Rusiya ilə bağlılığı yoxdur:** "Amma ikinci mərhələdə Rusiya çalışacaq ki, Azərbaycanı iqtisadi cəhətdən təsir dairəsinə alsın. Azərbaycanla Rusiya arasında birinci münaqişə burdan başlayacaq. Bundan sonra Rusiya çalışacaq ki, Azərbaycana qarşı təzyiq rıçaqlarını işə salsın. Onda da həmin "Milyarderlər klubu" digər qurumlar yenidən ortaya çıxacaq. Yəni yenidən velosiped icad etməyə ehtiyac qalmayacaq. Rusiya o velosipedi icad edib və demək olar ki, ötən il təzyiq vasitəsi kimi uğurla sınaqdan çıxarıb".

**Ə.Oruclu Rusiyanın "dostluq gəmiləri"nin Bakı sahillərində olmasını da şərh etdi:** "Gəmilər də gəlir-gedir, səyahət edir, şəxsi heyət İçərişəhərdədir. Bu, artıq Azərbaycan xarici siyasətinin açıq-aşkar Rusiyaya meyllənməsidir. Ən azı bu gün Rusiyanın təklənməsi, iqtisadiyyatının batması şəraitində Azərbaycana bu, lazım deyildi. Azərbaycan Rusiyadan müəyyən qədər məsafə saxlamalı idi. Bu dərəcədə yaxına getməyə ehtiyac yox idi, amma hər halda, bu, baş verdi".



**Ərəstun Oruclu:** "Rusiyaya bu dərəcədə yaxına getməyə ehtiyac yox idi"



**Elxan Şahinoğlu:** "Sadəcə, bizi aldatmaq istəyirlər, Moskvanın vədinə inanmaq olmaz"

**Amma politoloq perspektiv üçün elə də bədbin deyil:** "SSRİ-nin təcrübəsində çıxış etsək, Rusiyanın qarşısında iki vəzifə duracaq, ya danışıqlara gedəcək, ya da dağılacaq. Ehtimal var ki, Moskva müəyyən rejimləri təhvil verəcək, necə ki, Miloşeviçi, Səddamı təhvil verdi".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə xatırlatdı ki, Azərbaycan müstəqillik qazandıqdan sonra Rusiya ilə münasibətlərdə obyektiv olaraq gərginlik hökm sürürdü. Çünki Rusiyanın siyasi və hərbi dairələri Ermənistana açıq və gizli dəstək verir, nəticədə torpaqlarımız işğal olunurdu:** "Hakimiyyətə Heydər Əliyev gələndən sonra da Rusiya ilə münasibətlərdə sualların sayı azalmadı. Heydər Əliyevin düşünülmüş manevrləri nəticəsində biz Rusiya təhlükəsindən sığortalana bildik. Misal üçün, 1994-cü ildə "neft kontraktı"nı Heydər Əliyev yox, Əbülfəz Elçibəy imzalasaydı, Rusiyanın Azərbaycanda hansı təxribatlar törədəcəyini proqnozlaşdırmaq belə çətindir. Ancaq Heydər Əliyev elə etdi ki, həm Qərbin neft şirkətləri ilə saziş imzaladı, həm də Rusiyanı bu prosesdən mümkün qədər neytrallaşdıra bildi. Doğrudur, Moskva keçmiş baş nazir Surət Hüseynovdan adəti üzrə istifadə etmək istədi, ancaq artıq gec idi, Surət Hüseynovun nə gücü qalmışdı, nə də tərəfdarı. Həmin qrupun "neft kontraktı"na qarşı təxribatı reallaşmadı. Ardınca Moskva Bakı-Tiflis-Ceyhan layihəsinə mane olmaq istədi. Ancaq bu dəfə də alınmadı. Çünki Heydər Əliyev Moskvanı sakitləşdirmək üçün birinci Bakı-Novorossiysk neft kəmərini işə saldı. Halbuki bu gün adıçəkilən neft kəməri faktiki işləmir. Rəsmi Bakı o illərdə Moskvadan o dərəcədə ehtiyat edirdi ki, hətta ABŞ-ın hərbi bazalarını Azərbaycanda yerləşdirməyi təklif etmişdi".

**E.Şahinoğlunun fikrincə, Vaşinqton o zaman strateji səhvə yol verib:** "Elə o vaxt Heydər Əliyevin təklifi ilə Azərbaycanda hərbi bazalarını yerləşdirsəydilər, bu gün "Azərbaycan əldən gedir, Rusiyanın təsiri altına düşür" kimi haray-həşir salmazdılar. Çeçenistanda müharibə getdiyi illərdə Rusiya-Azərbaycan münasibətləri yenidən gərginləşdi. Kreml qeyri-rəsmi şəkildə rəsmi Bakını çeçenlərə dəstək verməkdə ittiham edirdi. Doğrusu, necə ki, Rusiyadakı dairələr Qarabağ separatçılarına dəstək verirdilər və Ermənistan üzərindən onlara silah ötürürdülər, Azərbaycanın da çeçenlərə mənəvi dəstək vermək haqqı var idi. Ancaq 2000-ci ildə Vladimir Putin hakimiyyətə gəldikdən sonra vəziyyət dəyişdi. Putin ilk xarici səfərini Azərbaycana etdi və Rusiya-Azərbaycan münasibətlərində nisbətən istiləşmə qeydə alındı. Bunun nəticəsində "Azərbaycan çeçenlərə dəstək verir" söhbətlər yığışdırıldı, çeçenlərin Bakıdakı nümayəndəliyi qapadıldı və s. Ancaq bunun qarşılığında Putin Dağlıq Qarabağ münaqişəsinin həllində heç bir addım atmadı. Sadəcə, Rusiya-Azərbaycan münasibətlərində "sən mənə problem yaratma, mən də sənə problem yaratmayacam" prinsipi işə düşdü. Ancaq Kremlin yeni sahibi ilə yaxınlaşmağa rəğmən, Bakı Qərblə də əməkdaşlıqdan qopmadı. Hazırda isə vəziyyət fərqlidir. Rəsmi Bakının xarici siyasətdə Rusiya ilə yaxınlaşma meylləri güclənib. Xarici siyasətdə balans Rusiyanın xeyrinə pozulmaqdadır. Bakıya gələn rusiyalı rəsmilərin sayı-hesabı yoxdur. Şəxsən mən bu səfərlərin əleyhinə deyiləm, hətta vaxtilə bizə qarşı nalayiq ifadələr işlədən Jirinovskini belə Bakıya dəvətdə problem görmürəm. Sadəcə, ən aktual sual budur: Rusiyanın istəklərinin yerinə yetirilməsi qarşılığında Azərbaycanın qazancı, faydası nə olacaq? Moskva haqqında çox danışılan 7 rayonu Azərbaycana qaytaracaqmı? Bu suallara aydınlıq gətirmədən, müsbət cavab almadan Rusiyanın Azərbaycanın strateji tərəfdaşına çevrilmək şansı yoxdur. Hamı bilir ki, İrəvan Kremlin əlində alətdir, Putin bir istəyi yetər ki, Sərkisyan onu yerinə yetirsin. Yəni əgər Kreml İrəvanı işğal altındakı torpaqları boşaltmağa razı salmasa, bir gün Rusiya-Azərbaycan münasibətləri yenidən sadəcə qonşuluq münasibətləri səviyyəsinə enəcək. Yox, əgər Moskva bağlı qapılar arxasında vəd etdiyi kimi, həqiqətən 7 rayonunu boşadılmasına yaşıl işıq yandırsa, bu dövlət həm Azərbaycanın strateji müttəfiqliyinə, həm də Azərbaycanın Gömrük İttifaqı ilə Avrasiya İqtisadi Birliyinə üzvlüyünə ümid edə bilər". **Ancaq ekspert Kremlin Dağlıq Qarabağ münaqişəsinin ədalətli həll edəcəyinə inanmır:** "Sadəcə, bizi aldatmaq istəyirlər. Bizi inandırmaq istəyirlər ki, guya Azərbaycan Rusiyanın bütün istəklərini yerinə yetirdikdən sonra Dağlıq Qarabağı geri ala bilər. Bu vədə inanmaq olmaz. Əvvəlcə qoy addım atsınlar, sonrasına baxarıq".

❑ **Cavid TURAN**



# Səudiyyə Ərəbistanının səfiri "Khazar İslands"a səfər edib



**Səudiyyə Ərəbistanı Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Müsaid bin İbrahim əs-Süleymd oktyabrın 14-də "Avesta Concern"in həyata keçirdiyi "Khazar İslands" layihəsi çərçivəsində görülən işlərlə yerində tanış olmaq üçün layihənin həyata keçirildiyi əraziyə gedib. "Avesta Concern"in prezidenti Hacı İbrahim Nehrəmli ilə göşünən səfir Müsaid bin İbrahim əs-Süleymdə "Khazar İslands" layihəsi ilə bağlı geniş məlumat verilib.**



"Avesta Concern"in prezidenti Hacı İbrahim Nehrəmli Azərbaycanla Səudiyyə Ərəbistanı arasında siyasi və iqtisadi münasibətlərin yüksək səviyyədə olmasını qeyd edib və bunun iki ölkənin biznes dairələri üçün geniş imkanlar yaratdığını səfirin diqqətinə çatdırıb. Səfir Müsaid bin İbrahim əs-Süleymdini də iki ölkə arasındakı münasibətlərin yüksək səviyyədə olmasından məmnun olduğunu, bu münasibətlərin iş adamları arasında əlaqələrə öz töhfəsini verəcəyinə ümidini ifadə edib. Danışıqlar zamanı hörmətli qonağa "Khazar Islands" layihəsi ilə bağlı ətraflı məlumat verən "Avesta Concern"in prezidenti Hacı İbrahim Nehrəmli başçılıq etdiyi şirkətin həyata keçirdiyi layihələrdə Səudiyyə Ərəbistanından olan iş adamları ilə ortaq əməkdaşlığa hazır olduğunu bildirib.



Səfir Müsaid bin İbrahim əs-Süleymd də "Khazar İslands" layihəsinin çox cəlbedici olduğunu, ölkəsinin iş adamlarının bu layihədə yer ala biləcəyini qeyd edərək, belə böyük layihəni həyata keçirdiyinə görə "Avesta Concern"in prezidenti Hacı İbrahim Nehrəmlini təbrik edib. "Avesta Concern"in prezidenti Hacı İbrahim Nehrəmli isə belə böyük layihələrin həyata keçirilməsinin Azərbaycanın regionun lider dövlət olmasının məntiqi nəticəsi olduğunu qeyd edib. Səfir Müsaid bin İbrahim əs-Süleymd həm layihə, həm də görülən işlərlə ətraflı tanış olub, "Khazar Islands"dan xoş təəssüratla ayrılıb.





# Qastarbayter əməkdaşlığı

Zamin HACI
zaminhaci@gmail.com

**Dövlət başçısı rəsmi səfərlə Tacikistana gedib. Məncə, bu səfər dövlətçilik gəmimizin yeni kursuna tam uyğundur. Həştərxan - Rusiya, sonra Belarusun paytaxtı Minsk, ardıyca Düşənbəyə yollanması bütün siyasi-iqtisadi, o cümlədən geopolitik-sosial qanunları doğruldur. Həştərxan-Minsk-Düşənbə vektorunun növbəti dayanacaq məntəqəsi əlbəttə, Astana-Daşkənd-Aşqabaq kimi yerlər olacaqdır. Neftin qiyməti düşdükcə, qayıq üstündə dava-qırğın başlayanda hələ çox maraqlı işlər olacaqdır.**

Yeri gəlmişkən, bu Düşənbə səfəri prezidentin bu il ərzində, yanılmıramsa, cəmi ikinci rəsmi səfəridir. Bundan qabaq iyul ayında İtaliyaya getmişdi. Bir də arada, deyəsən, Yunanıstana dövlət səfəri olmuşdu, bunlar məlum məsələdir ki, bizim neftin alıcıları olan ölkələrdir, səfərin başqa marağı yoxdur.

Qayıdaq Tacikistana, görək bura gedib-gəlmək bizə nə verəcəkdir.

Avtoritar, geridəqalmış bir dövlət olan Tacikistanı İmoməli Rəhman adlı kommunist 20 ildən çoxdur fırladır. Ölkə dünyanın insan yaşayışı reytinqlərində həmişə axırıncı sıralarda durur. Amma Tacikistanın dünyada birinci yeri tutduğu azı iki zad vardır. İnsafən, bunları qeyd etməliyik.

Bunlardan biri bayraq dirəyi ilə bağlıdır. Təəssüflə göstərməliyik ki, bu dirək məsələsində Tacikistan vaxtilə bizim analoqu olmayan respublikamıza çox pis badalaq vurmuşdur. Biz dünyanın ən uzun bayraq sapını qayırıb elə təzəcə sevinir, bulvarda dombalaq aşırdıq ki, Düşənbədən pis xəbər gəldi: taciklər də bayraq dirəyi qayırıblar və onlarınkı bizimkindən, türkün məsəli, 3 metr uzundur! Çox ağrıtdı. Respublikamız hələ özünə gələ bilmir. Yüz milyonlarla dollar tök, sapı uzadıb Ginnesin rekordlar kitabına gir, ancaq bu kitabda qalmağın heç 5 ay çəkməsin... Biz gərək bunu taciklərə bağışlamazdıq. Hətta lazım idi səfir Məhərrəm Əliyevi geri çağıraq, amma qıymadıq. Çünki qorxduq Məhərrəm müəllimi geri çağırsaq gedər təzədən oturar Bakı Şəhər Polis İdarəsində, deyər ümumiyyətlə Düşənbəyə getmirəm, kimə lazımdır özü getsin. İnsafən, ən uzun bayraq sapı olan dövlətlərdə səfir işləmək ağırdır. Hətta Amerikanın bizdəki səfirləri də vaxtaşırı narahat olurdular.

İkincisi isə Tacikistanın Ümumi Daxili Məhsulu (ÜDM) ilə bağlıdır. Tacikistan öz ÜDM-nin yarısını - 49 faizini başqa dövlətdən alır və bu biabırçı göstəriciyə görə dünyada 1-ci yeri tutur. Bir az da açıqlasam, dövlətin ÜDM-nin tam yarısını Rusiyada işləyən miqrantlar göndərir. Özü də yazıq taciklər ümumən savadsız olduqları üçün Rusiyada qara işlərdə - küçə süpürmək, tikintidə fəhləlik kimi işlərdə çalışırlar.

Bu mənada, biz taciklərdən qastarbayter sənətinin sirlərini öyrənib özümüzdə tətbiq edə bilərik, Moskvada hansı küçədə zibil az olur, kim suvağın kvadratına yaxşı pul verir tipli informasiyaların qarşılıqlı mübadiləsini apararıq. Bilik paylaşdıqca çoxalır, paxıllıq nəyə gərək? Neft gəlirləri azaldıqca ayrı yolumuz qalmayacaq.

Həmçinin bizi Putinin qayırmağa çalışdığı təzə SSRİ kuklası gözləyir, bu baxımdan da üzümüzü artıq Şərqə, Şimala, Şimal-Şərqə tutmalıyıq. Qərb cəhənnəm olsun, şeyx həzrətlərinin və Şamaxı rəsədxanasındakı münəccimbaşının söylədiyinə görə Qərb Əqrəb bürcü altındadır, ordan bizə ancaq fəlakət gələcəkdir.

Sevindirici haldır, artıq Qərb də bunu anlayır, pulunu, şələ-küləsini yığışdırır. Norveçin "Statoyl" şirkəti "Şahdəniz" yatağındakı payını Malayziya dövlət şirkəti "Petronas"a satıb aradan rəsmi şəkildə çıxdı. Açığı, mən də istəyirəm ARDNŞ-dəki, "Azəri-Çıraq-Günəşli" yatağındakı payımı satıb Pamir dağlarının o biri üzünə gedim. Alan varsa xəbər eləsin.



# Azərbaycan siyasətində Rusiyaya sarı təhlükəli "əyilmə"

## Hakim nomenklaturanın, deputat korpusunun və siyasi elitanın müəyyən hissəsi, "5-ci kolon" ölkəni "ayı ağuşu"na itələməyə çalışır...

**Azərbaycanın daxili və xarici siyasətində Rusiyaya yaxınlaşmanın güclǝndiyini görməkdən ötrü siyasətçi, yaxud siyasi ekspert olmağa ehtiyac yoxdur. Artıq bu, adi gözlə hiss edilir, həyatın müxtəlif sferalarında özünü göstərir və suverenliyimiz, dövlətçiliyimiz və ölkəmizin özünün gələcəyi üçün ciddi həyəcan doğurmaqdadır. Son ayların bəzi tendensiya və əlamətlərini sadalamaq yetər:**

- Bakıya bir-birinin ardınca gizli və açıq missiya ilə ən nüfuzlu Rusiya məmurları baş çəkir - səfərlərin belə intensivliyi çoxdan idi ki, müşahidə olunmurdu.

- Ölkə rəsmi KİV-lərində Ukrayna və dünya hadisələrinin işıqlandırılmasında vurğular tədricən Rusiyaya münasibətdə daha loyal tonlara dəyişir.

- Qərb dövlətlərinə, bir sıra beynəlxalq təşkilatlara və Azərbaycandakı avrointeqrasiya tərəfdarlarına münasibətdə təzyiq və tənqidlər güclənir.

- Azərbaycanda daxildən və xaricdən müəyyən qüvvələrin dəstəyi ilə rusiyayönlü "5-ci kolon"un fəaliyyətinin aşkar fəallaşması baş verir.

- Moskvanın xahişinə səs verən ölkə öz daxili bazarının ziyanına olaraq, yenidən öz üzərinə Rusiyanın "meyvə-tərəvəz bazası" funksiyasını götürür.

- İctimai rəydə Qarabağ probleminin həlli və 7 rayonun qaytarılması üçün Moskva ilə yaxınlaşmanın zəruriliyi versiyası oturdulur.

- Cəmiyyət Bakının əvvəllər rədd elədiyi Avrasiya İqtisadi Birliyinə ölkənin bu və ya başqa statusda daxil olmasının mümkünlüyünə altdan-altdan hazırlanır.

- Bakı Moskvanın təzyiqləri altında Xəzərin statusu məsələsində əvvəllər qəbuledilməz olan və ölkə konstitusiyasına zidd güzəştlərə gedir.

- Azərbaycanlıları təhqir elədiyinə görə vaxtilə ittihamlarla üzləşən Jirinovski Bakı səfəri zamanı 1-ci şəxs qismində qəbula layiq görülür.

- Xəzərdə Rusiya ilə ortaq hərbi qüvvələr yaradılması haqda qərar qəbul edilir.

- Facebook sosial şəbəkəsində hakimiyyətin nəzarətindəki qruplarda tez-tez Putinin tənqidinə və onun imperiya siyasəti aparmasına yönəlik materialların qarşısı alınır.

- Moskvanı qıcıqlandırmamaq üçün "vurulmuş" Makareviçin artıq təyin edilmiş konserti ləğv olunur.

****

Bu siyahını başqa konkret faktlar və olaylarla genişləndirmək də olardı. Ancaq ölkənin siyasi kursundakı narahat meylləri hiss eləmək üçün bunlar da yetərlidir.

Qeyd edək ki, öncəki 5-6 ildə Azərbaycan prezidenti və onun komandası müxtəlif güc mərkəzləri arasında bərabər uzaqlıqlı və çevik balans siyasəti yürüdüb. Bu, xeyli dərəcədə doğru idi və ölkənin stabil, uğurlu və müstəqil inkişaf imkanlarını məhdudlaşdıran çoxsaylı risklərdən və şirniklənmələrdən yayınmaq imkanlı verirdi.

Belə balanslı kurs çərçivəsində ölkə rəhbərliyi periodik olaraq gah Qərbə və Rusiyaya, gah da türk və İslam dünyasına konyuktur meyllənmələr həyata keçirdi. Lakin bu meyllənmələr bir qayda olaraq, taktiki və situativ xarakter daşıyır, çox da uzağa getmir, strateji balanslaşma kursuna və milli-dövlət maraqlarına sadiqliyi şübhə altına almırdı.

Azərbaycan siyasətində Rusiyaya bugünkü yaxınlaşma məhz ona görə ciddi narahatlıq doğurur ki, o, taktiki və situativ manevrlər çərçivəsindən çıxma təhlükəsi yaradır və daha çox şimal qonşumuzun güclənən təzyiqləri qarşısında "əyilməni" xatırladır. Əlbəttə ki, ölkə rəhbərliyinin düşdüyü situasiyanın mürəkkəbliyini başa düşmək olar. Moskva Ukraynadakı aqressiv hərəkətləri və dünya miqyasındakı "pozğunluğu" ilə elə bir siyasi "dəhşət" yaradıb ki, heç bir postsovet ölkəsi onunla münasibətləri korlamaq və analoji hadisələri öz dərisində hiss eləmək istəmir.

***

Bununla belə, əgər Azərbaycan prezidentinin qarant olduğu suverenlik və milli-dövlət maraqlarının məsələsi ortaya qoyulubsa, o zaman ölkənin siyasi kursunda Rusiyaya belə qəfil yaxınlaşma aşkar təlaş doğurmaya bilməz. Şübhəsiz ki, prezident bütün riskləri və vəziyyətin taleyüklü xarakterini dərk edir. O, Azərbaycanın suverenliyinin və milli-dövlət maraqlarının ziyan çəkməsinə aparan təhlükəli "qırmızı xətti" keçməyəcək və tədricən bərabər uzaqlıqlı balans siyasəti yoluna qayıtmağa çalışacaq.

Narahatlıq kəsb edən məsələ hakim nomenklaturanın, deputat korpusunun və siyasi elitanın Rusiya vektoruna oriyentasiya olan müəyyən hissəsi ilə bağlıdır. Bu dairələr hakimiyyət strukturlarında və cəmiyyətdə həmişə olub, ancaq onların səsi və mövqeyi indiyədək elə də eşidilmirdi. Bu gün isə onlar həddən artıq fəallaşıblar və Azərbaycanın xarici və daxili siyasət kursuna təsir göstərib onu Rusiyanın "ayı ağuşu"na itələməyə cəhd edirlər. Məhz bu dairələr geridönməz şəkildə xeyli "odun doğraya" bilərlər. Hazırda müşahidə edilən Rusiya meyllilik də əhəmiyyətli ölçüdə onların məqsədli fəallaşmasının nəticəsidir.

> **"Şübhəsiz ki, prezident bütün risklərin və vəziyyətin taleyüklü xarakterinin fərqindədir. O, Azərbaycanın suverenliyi və milli-dövlət maraqlarının ziyan çəkməsinə aparan təhlükəli "qırmızı xətti" keçməyəcək və tədricən bərabər uzaqlıqlı balans siyasəti yoluna qayıtmağa çalışacaq"**

Azərbaycan özünün bütün tarixi boyu Rusiya ilə ifrat yaxınlaşmanın, dostluq və tərəfdaşlığın ona neçəyə başa gəldiyini artıqlaması ilə görüb. Və bu gün Kreml Avrasiya İttifaqına daxil olmağın qarşılığında Azərbaycana işğal altındakı 7 rayonun qaytarılmasını təklif edir. Məntiqli sual yaranır: məgər həmin rayonların işğalına Moskvanın özü dəstəkçi olmayıb?

Hələ kim bilir, Moskvanın bizə bugünkü "bahalı hədiyyəsi" özündə hansı yeni riskləri və təhlükələri daşıyır. Qarabağın tam, ölkə suverenliyinin isə əhəmiyyətli hissəsinin itirilməsi qarşılığında 7 rayonun qaytarılmasımı? Rusiya hərbi bazaları və siyasi strukturlarının Azərbaycanda bərpası da daxil olmaqla imperiya ağuşuna qayıtmaq müqabilində 7 rayonu qazanmağımı? 7 rayonun işğaldan azad edilməsi naminə bütün ölkənin işğal altına düşməsi və müstəqil inkişaf perspektivinin məhvinimi? Və ümumiyyətlə, hardadı o zəmanətlər ki, bu rayonlar qaytarılacaq və yeni itkilər olmayacaq. Heç yerdə!

Öz tariximizi kənara qoyaq və nə vaxtsa Rusiya üçün qardaş ölkə olmuş Ukraynanın nümunəsinə nəzər salaq. Moskva Ukrayna ilə hansı oyunu çıxarıb və çıxarmaqda davam edir? Məgər bu, hamı üçün ibrətamiz nümunə deyil? Bu gün Kreml Kiyevlə "qamçı", Bakı ilə isə "kökə" dilində danışır. Ancaq aldanmağa dəyərmi? Axı bu, əsla ona görə deyil ki, Moskva bizi Ukraynadan çox istəyir - yəqin ki, əksinədir. Azərbaycan üçün saxlanılan "qamçı" istənilən an işə düşə və nəticəsi bizim üçün Ukraynadakından da dəhşətli ola bilər. Düşünürük ki, bunu hamı anlayır və hamı onunla razıdır.

> **"Bu gün Kreml Kiyevlə "qamçı", Bakı ilə isə "kökə" dilində danışır. Ancaq aldanmağa dəyərmi?.. Azərbaycan üçün saxlanılan "qamçı" istənilən an işə düşə və nəticəsi bizim üçün Ukraynadakından da dəhşətli ola bilər..."**

O halda buradan belə qənaət hasil olurmu ki, ən yaxşısı elə Rusiya ilə höcət etməmək və Kremlin iradəsi önündə əyilmək lazımdır? Xeyr! Fəqət, buradan belə bir əks-nəticə də hasil olmur ki, Moskvaya qarşı müxalifətə keçmək, hər şeydə onunla çəkişməyə girişəsən və irəli atılıb Qərbin "bağlı qapıları"nı sındırmağa çalışasan. Bu da - yox!

Fikrimizcə, hazırkı mürəkkəb şəraitdə prezident ehtiyatsız addımlardan çəkinməklə, risklərdən və kolliziyalardan maksimum qaçmaqla bütövlükdə Moskva ilə münasibətlər xəttini düzgün qurub. Lakin bu zaman dövlətin siyasi kursunda son vaxtlar müşahidə edilən Rusiyaya söykənmə xəttinə də yol vermək olmaz. Bu qorxuludur!

❑ **Analitik Xidmət**

YENİ MÜSAVAT
N 256 (5965) 17 oktyabr 2014

# Moskvanın "Bakı kartları" yenidən dövriyyədə

**Baş nazirin keçmiş müavini Abbas Abbasov yenidən fəallaşıb. Bu barədə Bakıda yayılan və məlumatlı dairələrə bağlı olan saytların yaydığı xəbərlərdən də müəyyən nəticələr çıxartmaq olar. Öncə həmin xəbərlərdən biri ilə tanış olaq. Saytlardan biri - aznews.az yazır ki, Abbas Abbasov Moskvada Rusiya Azərbaycanlılarının Federal Milli-Mədəni Muxtariyyəti - "AzərRos"da çevriliş etməyə hazırlaşır:**



# Abbas Abbasov Moskvada və Bakıda fəallaşıb - çevrilişə hazırlaşır

## Kreml baş nazirin sabiq birinci müavinini yenidən dövriyyəyə qaytarır; onun hələ Rusiyaya xidmət, vətənə xəyanət potensialı qalıbmış; Abbas Abbasovla bərabər, onun Bakıdakı dostları da hərəkətə keçiblər...

AzNews.az-ın əldə etdiyi məlumata görə, Abbasov təşkilatda mövqelərini gücləndirmək, "AzərRos"un yalnız onun diktəsi ilə fəaliyyət göstərməsinə nail olmaq üçün rəhbər postunda dəyişiklik etmək istəyir. Bunun üçün baş nazirin keçmiş müavini oktyabrın 17-nə qurumun fövqəladə toplantısını çağırıb.

Bildirilir ki, Abbasov iclasda Asif Məhərrəmovun təşkilatın prezidenti postundan çıxarılması məsələsini qaldıracaq.

"AzərRos"dan verilən məlumata görə, bu planın baş tutması qurumun gələcək fəaliyyətini sual altında qoyur. Çünki Asif Məhərrəmovun nüfuzu kifayət qədər çoxdur və qurumun funksionerlərinin onu dəstəkləyəcəyi gözlənilir. Amma bir məsələ də bəllidir ki, Abbasov niyyətinə nail olacağına əmin olmasa, belə bir toplantını çağırmazdı. Qeyd olunur ki, Abbas Abbasov Asif Məhərrəmov vəzifəsindən kənarlaşdırıb, həmin posta öz adamını gətirə biləcəyi halda, təşkilatda ciddi çaxnaşmanın baş verəcəyi və parçalanmanın olacağı qaçılmazdır.

Qeyd edək ki, Asif Məhərrəmov "AzərRos"un prezidenti postuna qurumun 25 yanvar 2013-cü ildə keçirilən V qurultayında seçilib. Bu qurultayda "AzərRos"un əsas idarəedici orqanı olan Ağsaqqallar Şurası təsis edilib. A. Abbasov Ağsaqqallar Şurasının sədri seçilib".

Bu xəbərdən ortaya çıxan bir məqama - cənab Abbasovun yenidən fəallaşmasına diqqət edək. Bu, o zamana təsadüf edir ki, A. Abbasovun Bakıda nüfuz edə biləcəyi bir sıra qırımlar da qəfil bir fəallıq nümayiş etdirməyə başlayıblar. Üstəlik, Rusiyanın Azərbaycan və regionla bağlı iddiaları ciddi şəkildə yüksəlişdədir. Putin Rusiyası Avrasiya və Gömrük İttifaqlarının gələcəyini və ümumiyyətlə taleyini Azərbaycanın bu qurumlara münasibəti ilə əlaqələndirib. Bu da o deməkdir ki, Kreml Azərbaycana təzyiq və təhdidlərini artıracaq; ya da artıq görünməz xətlərlə artırmaqdadır. Xatırlayırsınızsa, ötən ilin son aylarına qədər, düz iki il davam edən bir təzyiq məhz Abbas Abbasovun rəhbərliyində qurulan bir xəyanət təşkilatı ilə Azərbaycana doğru istiqamətlənmişdi. Kreml onun əli ilə Moskvada "Milyarderlər ittifaqı" deyilən bir təsisat yatardı; sonra onun Azərbaycan uzantısını formalaşdırdı; ölkəmizə və ona rəhbərlik edənlərə ciddi təhdid rıçağı əldə etdi və nəticədə... Azərbaycan iqtidarına təhdid ünsürü oluşduran Kreml yekunda ölkəmizdən milyardlarla dəyəri olan layihələr və xəraclar aldı; pərdəarxasındakı oyunlar üçün münbit şərait əldə etdi; siyasi səhnədə öz təşkilatını qurub, konservləşdirdi. O zaman istədiyini əldə edən Rusiya Abbas Abbasovu da konservləşdirdi; "tormoz" basıldı və buna görə də rəsmi Bakıya təhdidlər, təhqirlər yağdıran Abbas müəllim birdən-birə yumşaldı; "layt" bəyanlarda bulundu; kövrəldi, ağladı...

Azərbaycan iqtidarı ona və ölkəyə bu qədər pisliklər edən birisinin Bakı şaxələrini kəsmək, təmizləmək istədi. Lakin bir nöqtədən sonra durdu. Hətta onun deputat oğluna toxunmadı; biznes imperiyasını dağıtmadı. Məsələ məlum idi - Abbasovların arxasında Rusiya durmuşdu və qoruyurdu. Abbas Abbasovun istifadə müddəti bitməmişdi; lazım olacaqdı. O, hələ Rusiyaya xidmət, vətəninə isə xəyanət etmək potensialı daşıyırdı.

Budur, onu yenidən dövriyyəyə soxublar. Bu gündən başlayaraq, yenidən siyasi səhnəyə dönüşünü təşkil etmək istəyirlər. Hansısa yollarla Bakıda qurduqları məlum təşkilatla əlaqəsini saxlayan Abbasov ölkəmizdəki uzantılarını da hərəkətə keçirib.

Məsələ məlumdur. Xoşluqla mümkün olmasa, məcbur etməklə Azərbaycanı Avrasiya İttifaqına və Gömrük Birliyinə üzv etməyə çalışacaqlar. Üstəlik, gələn il ölkəmizdə parlament seçkiləridir. 2013-də konservləşdirdikləri gizli Rusiya qüvvələrini 2015-də yenidən siyasi səhnədə fəallaşdıracaqlar.

❑ **Xəbər xidməti**

# Avropa Şurasında Azərbaycanla bağlı mühüm sənəd qəbul olundu

## Ölkəmizin adı separatçılıqdan əziyyət çəkən dövlətlər sırasına salındı

**Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin 27-ci sessiyasının plenar iclasında "Ukraynada və qonşu ölkələrdə baş verən separatçı gərginliklər" adlı bəyanat layihəsi ətrafında müzakirələr aparılıb.**

APA-nın Avropa bürosunun məlumatına görə, müzakirələrdə iştirak etmək üçün Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov, Ukraynanın regional inkişaf, quruculuq, mənzil və bələdiyyə xidmətləri naziri Vyaçeslav Neqoda, Moldovanın xarici işlər və Avropa quruculuğu naziri Valeriu Çiveri, Kiyev şəhər Bələdiyyələr Şurasının sədri və şəhər merinin müavini Oleksi Reznikov, habelə Gürcüstanın regional inkişaf və infrastruktur naziri Tengiz Şergelaşvili dəvət olunublar.

Konqresin belçikalı üzvü Mark Kulsun hazırladığı sənədin müzakirələrində Azərbaycanın Konqresdəki nümayəndə heyətinin üzvləri, digər xarici həmkarları ilə birgə sənədin 6-cı paraqrafına əlavə irəli sürüblər və bu əlavə 68 lehinə, 35 əleyhinə səslə qəbul edilib. Bəyanat layihəsinin 6-cı paraqrafına irəli sürülmüş əlavəyə əsasən, dövlətlərin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi beynəlxalq hüququn prinsiplərinə hörmət edilməsinin separatçı hərəkətlərlə üzləşən üzv dövlətlərdə baş verən münaqişələrin sülh yolu ilə həll edilməsi üçün vacib şərt olduğu qeyd olunub. Amma səsvermədən öncə Azərbaycanın Konqresdəki nümayəndə heyətinin rəhbəri Anar İbrahimov təklif olunan əlavəyə bir dəyişikliyin də edilməsini şifahi şəkildə bildirib və əlavədəki "dövlətlərin" sözü əvəzinə konkret olaraq Ukrayna, Gürcüstan, Moldova və Azərbaycanın adının salınmasını istəyib. Ermənistan nümayəndə heyəti üzvlərinin etirazlarına baxmayaraq, bu şifahi təklif də böyük əksəriyyətlə qəbul olunub. Sonda bəyanat layihəsi bütövlüklə səsə qoyularaq qəbul edilib.



Beləliklə, "Ukraynada və qonşu ölkələrdə baş verən separatçı gərginliklər" adı altındakı bəyanat layihəsinin daxilindəki 7-ci bəndində separatçılıqdan əziyyət çəkən ölkələr kimi yalnız Ukrayna, Gürcüstan və Moldova göstərilsə də, bu düzəlişlərlə layihənin 6-cı bəndində bu ölkələrlə yanaşı, Azərbaycanın da adı əlavə olunub.

Qeyd edək ki, əvvəlcədən Konqres bu sənədin müzakirələrinə separatçılıqdan əziyyət çəkən ölkələr kimi yalnız Ukrayna, Gürcüstan və Moldovanın təmsilçilərini dəvət etsə də, daha sonra bu müzakirələrə sessiyasında çıxış etmiş Azərbaycanın ədliyyə nazirini də dəvət edib və Azərbaycanın da separatçılığa məruz qaldığını qeyd edib.

# Bizim də 29 peykimiz olsaydı...



Hüseynbala SƏLİMOV

**Bəli, sən demə, belə şeylər də olurmuş. Heç vaxt inanmazdıq, ağlımıza gəlməzdi ki, nə vaxtsa İrana da həsəd aparacağıq. Doğrusu, bunu heç vaxt zənn etməmişdik. Amma bu yaxınlarda Bakıda səfərdə olan bir iranlı məmurun dedikləri bizi həqiqətən də düşünməyə məcbur etdi.**

Məmur dedi ki, İranda düz 160 televiziya və radio var. Bütün bunları isə 29 rabitə peyki əhatə edir...

Dərhal yadımıza salmağa çalışdıq ki, görən, Azərbaycanda neçə televiziya var?

Hər halda, bunu bir daha sadalamağa dəyməz, çünki nəinki 160, hətta heç 60 da deyil...

Demirik ki, İranda söz və ifadə azadlığı aşıb-daşır. Yox, belə deyil. İran da çox sərt avtoritar bir ölkədir.

Amma İranda insanların heç olmasa əyləncə seçmək azadlığı var. Ona görə "əyləncə" deyirik ki, bizim kasad telekanallar xörək bişirməkdən və əyləncədən başqa bir şey göstərmirlər. Elə İranda da çətin ki, insanları sözün həqiqi mənasında düşündürən və maraqlandıran verilişlər olsun.

İran televiziyası və radiosu haqqında düşünərkən bir əski lətifə yadımıza düşür. Qərəz, ABŞ və İran prezidentləri BMT-nin dəhlizində rastlaşırlar. ABŞ prezidenti deyir ki, bizdə demokratiya var, hər bir adam elə Ağ Evin qarşısında prezident haqqında istədiyini deyə bilər. İran prezidenti də qayıdır ki, nə olsun, bizdə də insanlar istədikləri yerdə və istədikləri qədər ABŞ prezidenti haqqında danışa bilərlər...

İndi bilmirik, 160 kanalda İran və onun siyasəti haqqında nə deyilir, nə deyilmir, onu bilirik ki, bu kanallarda nəinki ABŞ, hətta qonşu Azərbaycan haqda istədiklərini deyirlər...

Qayıdaq Azərbaycana. Bu vaxta qədər düşünürdük ki, Azərbaycanın rabitə peyki orbitə çıxarılandan sonra tamaşaçıların və dinləyicilərin seçim imkanı bir az artacaq. Hökumət də elə bunu vəd edirdi.

Di gəl, hələ də gözləyirik-hələki telekanalların sayında hər hansı bir artım yoxdur. Belə məlum olur ki, Azərbaycanda hətta metro stansiyaları daha tez-tez açılır, nəinki telekanallar...

Düzdür, indiki siyasi reallıqlar içində hansısa telekanalın peyda olması bizim maraqsız və bir az da "boz" həyatımıza elə bir rəng gətirməyəcək-sönük və moton verilişlərin sayı bir qədər də artacaq...

Amma bir qədər əvvəldə dedik ki, insanların heç olmasa, əyləncə seçimini artırmaq gərəkir. Məsələn, indi televiziyalar müxtəlif mədəniyyət verilişləri hazırlayırlar. Ortalıqda rəqabətin olmaması onların keyfiyyətinə birbaşa təsir edir...

Düşünürük ki, rəqabət olsaydı bəlkə mədəniyyət haqda verilişlərin keyfiyyəti artardı. Digər verilişlər haqqında isə heç arzulamağa da dəyməz. Burada yalnız rəsmi xronika var. Onu da elə cansıxıcı, monoton şəkildə hazırlayırlar ki, adam darxmaqdan lap çərləmək istəyir...

Üstəlik, telekanallar bir aktyorun teatrını xatırladır- şirkətlər çalışırlar ki, məhdud sayda aparıcıdan və jurnalistdən istifadə etsinlər... Nəticədə də bir aktyorun teatrı alınır...

Amma başqa cür də ola bilərdi. Dünyada media böyük bir imperiyadır. Bu elə bir dünyadır ki, o, hakimiyyətlərlə deyil, hakimiyyətlər onunla hesablaşır...

Belə yerdə jurnalist olmaq heç də ən uğursuz seçim deyil.

Amma bunlar sadəcə, ola bilərdi, di gəl, olmadı... Olmayan şeylərin xiffətini çəkməyə isə dəyməz...

İranda heç olmasa kinoda bir dirçəliş var. Düzdür, bu dirçəliş daha çox hakimiyyətin istəyinə rəğmən baş verir. Misal var deyirlər ki, qadağalı şey daha şirin olur...

Bir ara düşünürdük ki, insanlar azadlığı hissə-hissə əldə etdikcə o, daha dönməz olacaq. Amma bəzən belə təəssürat yaranır ki, bir gün hakimiyyət televiziyaları, radioları, qəzetləri və interneti qapatmaq fikrinə düşsə belə bu ölkədə heç nə baş verməz...

"İnternet" dedikcə, gərək, bir məqamı da qeyd edək. Azərbaycanda İrandan fəqrli olaraq internet hələ azaddır. Amma hələ! Deyilənə, görə Milli Məclis internetlə bağlı da nəsə hazırlayır. Nə? Bilmirik. Deyilənə görə, bunların çox vacib informasiyaları var, onların internetdə yayılmasından qorxurlar...

Nə demək olar? İnsanın nəyisə olanda qorxmağa, ehtiyat etməyə başlayır. Bunların isə çox şeyi var-başqalarının adına rəsmiləşdirilən böyük sərvətlər, xaricdə şirkətlər, villalar, qərəz, çox şey... Bu, bir növ gizli imperiyadır və bu adamlar həmin imperiyanın kameralara tuş gəlməsindən yaman qorxurlar...

# Təhsilə pul çatmadı...



Elşad MƏMMƏDLİ
elshad1978@mail.ru

**Azərbaycan cəmiyyətinin xeyli sosial, yaşam problemləri var. Böyük problemlərdən danışmıram. Bəli, hamımıza bəllidir ki, 2 milyona yaxın vətəndaşın banklara borcu var, yüz minlərlə xəstəlikdən əziyyət çəkən adamlar həkimə getməyə pul tapmır və sair. Bunları hələlik qoyaq bir kənara, ondan danışaq ki, Azərbaycan cəmiyyəti 21-ci əsrdə normal toy etmək, hətta yas vermək ənənəsi, mədəniyyəti formalaşdıra bilməyib. Bizim restoranlardakı qalaq-qalaq yeməklər, qulaq batıran səs, düşük "manıslar"ın yaratdığı "assosiasiya" faktiki olaraq toy mədəniyyətsizliyidir...**

Nə isə burada ilişib qalmayaq, insanlarımız heç özünü ictimai nəqliyyatda, dükan-bazarda aparmaq qaydalarını da mənimsəməyib. Elementar şeyləri, məsələn, nəzakətli müraciət formasından istifadə etmək vərdişinə yiyələnməyib əksəriyyət.

Kriminallar, ailə münaqişələri, qanlı olaylar ifrat həddə çatıb. Bu ölkədə tarixən rast gəlinməyən kütləvi qırğınlar da törədilir artıq. İki həftə öncə Goranboyda belə bir facié yaşandı...

Son vaxtlar xüsusi ilə yeniyetmə və gənclərin tərbiyəsində ciddi problemlər müşahidə edirik. Kriminala meylli, böyük-kiçik bilməyən, savadsız bir yeni nəsil yetişməkdədir. Bu çox təhlükəli bir tendensiyadır və qarşısının alınması üçün tədbirlər görülməlidir. Çünki söhbət "gələcəyimizdən" gedir...

Cəmiyyətdəki bu mənəvi aşınmanın, kriminallaşmanın səbəbləri haqda cəmiyyətşünaslar, ekspertlər müxtəlif səbəblər göstərirlər. Kimi deyir ki, bu arzuolunmaz vəziyyətin yetişməsi sosial problemlərin, ədalətsizliyin, hüquqi dövlətin olmamasının nəticəsidir. Bir başqası iddia edir ki, valideynlər övladlarının təlim-tərbiyəsinə diqqət yetirmirlər. Kimi də söyləyir ki, xaotik bir cəmiyyət formalaşmasına səbəb yediyimiz mənşəyi bilinməyən qidalardır...

Bütün bu səbəblərin səbəbi isə təhsilsizlikdir, dostlar, məhz təhsilsizlik! Daha dəqiq desək, 10 illərdir Azərbaycan təhsilinin anasının ağladılması cəmiyyətimizin bu duruma düşməsi ilə nəticələnib.

Hazırda dünyanın normal ölkələrində tələbələr, hətta şagirdlər böyük ixtiralar edir, kompüter proqramları hazırlayır, virtual dərs sisteminə keçilir. Azərbaycanda isə şagirdlər, tələbələrə müəllimlər sinifdə normal dərs keçməyib, onları pulla fərdi öyrətmək sisteminə keçiblər! Bir qisim vicdanlı müəllimləri çıxmaq şərti ilə əksər pedaqoqlar şagirdlərinə dərsdən sonra ödənişlə təhsil verirlər. Bu isə faktiki ona gətirib çıxarır ki, kasıbın balaları kəmsavad yetişir.

Bu onun nəticəsidir ki, Azərbaycanda müəllimlərə 150-200 manat maaş - yavan çörək pulu verirlər. Pedaqoqlar da elə buna uyğun təhsil verirlər.

Şəhərin mərkəzindəki məktəbləri çıxmaq şərti ilə ölkənin əksər məktəbləri şərait baxımından da bərbad durumdadır.

Uzun illər ərzində Misir Mərdanov Azərbaycan təhsilinin belini qırdı. Ümidlər var idi ki, Mikayıl Cabbarov bu sistemdə inqilab edəcək. Amma olmadı, əksinə, təhsil sistemi daha da geriləmkədədir. Görünən budur ki, dövlətin əsas strateji sahələrindən biri, bəlkə də birincisi olan təhsil sisteminin inkişafı səlahiyyətliləri o qədər də düşündürmür. Elementar bir nümunə; Milli Məclisə təqdim olunan gələn ilin dövlət büdcəsində müvafiq vəsait nəzərdə tutulmadığı üçün 2015-ci il yanvarın 1-dən yaradılması planlaşdırılan regional təhsil idarələrinin islahatı prosesi təxirə salınıb.

Bu, təhsil nazirinin islahatı idi, getdi işinin gücünün dalınca. Mikayıl Cabbarov deyib ki, növbəti ildə də bu il tətbiq olunan sistemdə fəaliyyət göstəriləcək.

İndi diqqət edin; bu ölkədə öz qapısına top vurmaqdan başqa bir iş görə bilməyən futbolçulara hər il 100 milyonlarla manat sərf edilir. Təpik atan, kəllə vuran, faktiki olaraq nazirlərin qoçu dəstəsi kimi fəaliyyət göstərən idmançılara milyonlar xərclənir. Nəqliyyat Nazirliyinin lazımsız müfəttişlərinə iki-üç ildən bir yeni maşınlar alınır. Penitensiar Xidmətin müşayiət maşınları 60 min manatlıq "Toyota Land Cruser"dir. Hər il ölkə yollarında asfalt örtüyünün yenilənməsi adı altında 100 milyonlarla manat vəsait göyə sovrulur. Milyonçu ölkədə bütün sahələrə sərf etməyə pul tapılır, təhsilə çatanda tapılmır!

Bütün suallar burada cavabını tapır; keyfiyyəti təhsil yoxdursa, təhsil ən sonuncu yerdə dayanırsa, ona pul tapılmırsa, bu ölkədə nə savadlı həkim olacaq, nə savadlı hüquqşünas, nə savadlı jurnalist, nə savadlı iqtisadçı. Üstəlik, insanların mədəniyyəti də olmayacaq, başlar çalışdırılmadığı üçün tərbiyəsizlik, kriminallar baş alıb gedəcək. Stop! Yuxarıda Azərbaycan insanlarını təsvir edərkən canlandırdığımız mənzərə elə bu idi axı...

# "Neftin büdcəyə və siyasətə təsiri olacaq"

**"AzəriLayt" markalı Azərbaycan nefti birjalarda kəskin ucuzlaşıb. "AzəriLayt" markalı neftin bir barelinin qiyməti London birjasında 87,44 dollar təşkil edib. Qeyd edək ki, ən böyük ucuzlaşma Bakı neftində qeydə alınıb - 2,19 dollar. "Brend" markalı neft isə 0,92 dollar ucuzlaşıb və 84,12 dollara satılıb. Nyu York birjasında da ucuzlaşma müşahidə edilib. "Layt" markalı neftin bir barelinin qiyməti Nyu York birjasında 0,6 dollar ucuzlaşaraq 81,78 dollar olub.**

Ekspertlər isə bildirirlər ki, dünya bazarında neftin qiyməti Azərbaycanın dövlət büdcəsinə təsirsiz ötüşməyəcək. **İqtisadçı alim Vüqar Bayramovun** fikrincə, neftin qiymətinin azalması büdcənin 11 faizinin formalaşmasına təsir göstərə bilər: "2014-cü ilin ilk 8 ayında Azərbaycan neftinin dünya bazarındakı qiyməti 110 dollar təşkil edib. Bu isə o deməkdir ki, Azərbaycan neftinin dünya bazarında qiyməti büdcədə nəzərdə tutulandan 10 faiz artıq olub. Bu, birmənalı şəkildə imkan verir ki, növbəti aylarda neftin dünya bazarında qiyməti 80 dollardan aşağı düşməyəcəksə, 2014-cü ilin dövlət büdcəsinə baxılmasın. Əvvəlki dövrdə olan 10 faiz artım növbəti aylarda olan azalmanı kompensasiya edəcək".



**Arif Hacılı:** "Ciddi siyasi dəyişikliklər ərəfəsindəyik"



**Vüqar Bayramov:** "Dövlət büdcəsinin gəlirlərinin çoxu məhz birbaşa sığorta olunmuş gəlirlərdir"

**V.Bayramov dünya bazarında neftin qiymətinin kəskin azalmasının dövlət büdcəsinə təsirlərindən danışarkən bildirib ki, 2015-ci ilin dövlət büdcəsində 1 barel neftin qiymətinin 80 dollar nəzərdə tutulmasını təklif ediblər:** "Son müşavirədə ölkə başçısı da büdcədə neftin qiymətinin dünya bazarına uyğun müəyyənləşdirilməsinin əhəmiyyətli olduğunu bildirdi. 2015-ci ilin dövlət büdcəsində neftin 1 barelinin qiyməti 90 dollar nəzərdə tutularsa və dünya bazarında 2015-ci ildə də azalmalar davam edəcəksə, dövlət büdcəsinin gəlir hissəsinin formalaşması ilə bağlı müəyyən çətinliklər yaradacaq. Azərbaycanın dövlət büdcəsinin 53.4 faizi Dövlət Neft Fondu hesabına formalaşır. Bu o deməkdir ki, dövlət büdcəsinin gəlirlərinin çoxu məhz birbaşa sığorta olunmuş gəlirlərdir. Neftin dünya bazarında qiymətinin hansı səviyyədə olmasından asılı olmayaraq 53,4 faiz Neft Fondu hesabına formalaşacaq. Gəlirlərin 35 faizə yaxını qeyri-neft sektorunun payına düşür. Bu isə o deməkdir ki, dünya bazarında neftin qiyməti büdcənin 11 faizinin formalaşmasına təsir göstərə bilər".

**Ekspertin fikrincə, 2015-ci ildə dünya bazarında neftin qiymətinin azalması davam edərsə, büdcənin tikinti və infrastruktur xərcləri azaldıla bilər:** "Neftin dünya bazarında qiymətində azalmalar gedir. 2015- ci ilin dövlət büdcəsində neftin 1 barelinin qiyməti 90 dollar nəzərdə tutularsa, dünya bazarında qiymət azalması baş verərsə, bunu faciə hesab etmirəm. Büdcənin birbaşa neftdən asılı hissəsi təxminən 11 faizdir. Qanunvericiliyə görə, büdcə gəlirlərinin formalaşmasında problem olarsa, əmək haqqı, pensiya xərcləri istisna olmaqla, tikinti-infrastruktur xərcləri azaldıla bilər. Neftin dünya bazarında qiyməti proqnozlaşdırılandan az olarsa, Maliyyə Nazirliyi büdcə xərclərinin azaldılmasını həyata keçirə bilər. Tarazlığı bu şəkildə qorumaq daha məqsədəuyğundur".

Qeyd edək ki, ekspertlər qiymətin daha da aşağı düşəcəyini proqnozlaşdırırlar. ABŞ-ın Energetika Nazirliyi də neftin yaxın və uzaq dövrü ilə bağlı özünün proqnozlarını açıqlayıb. Nazirliyin ekspertləri hesab edirlər ki, neftin qiyməti 2015-ci ildə indiki həddə olan 100 dollardan əvvəlcə 80 dollara, daha sonra isə 70 dollara qədər düşə bilər. Siyasilər isə neftin qiymətinin azalmasını mühüm siyasi proseslərə təkanverici qüvvə kimi analiz edirlər. Məsələn, **Müsavat başqanı Arif Hacılı** bildirib ki, Krım Rusiya tərəfindən işğal olunduqdan sonra Qərblə Rusiya arasında 80-ci illərdə durdurulmuş soyuq müharibə yenidən bərpa olundu. Neftin bir barelinin qiyməti də 80 dollara düşdü. "Sonuncu dəfə neftin qiyməti kəskin azalanda SSRİ dağılmışdı. Ciddi siyasi dəyişikliklər ərəfəsindəyik!",- deyə siyasətçi bildirib.

❑ Röya RƏFİYEVA

# 3 uşaq anası intihar etmək istəyir

**Sələmçi Arzu Cabbarova Zeynəb Muradovanı intihar həddinə gətirib:** "Tərənə adlı avtoritet qadın məni ölümlə hədələdi"



## «Artıq bezmişəm»

**Sələmə pul götürülməsinin bir çox insanın həyatına mənfi təsir göstərməsi hər kəsə məlumdur. Musavat.com-un redaksiyasına müraciət edən Zeynəb Muradova da belə bir hadisə ilə üzləşib. O deyir ki, faizlə borc pul götürdüyü şəxslər ona hücum edib: "Sələmə pul götürmüşəm. Notariusun təsdiqi ilə. Pulun ödənilmə vaxtına hələ müəyyən qədər var. Amma buna baxmayaraq, məndən pulu tələb edirlər. Evimə hücum çəkiblər. Pəncərələrin şüşələrini qırıblar. Qanunsuz olaraq böyük miqdarda faizlər əlavə edib, borcumu şişiriblər. Mən 3 uşaq anasıyam. Bu faizləri necə ödəyə bilərəm? Son çarəm intihardır".**

Bu müraciətdən sonra Zeynəb Muradovanın yaşadığı Lökbatan qəsəbəsinə yollandıq. Zeynəb xanımla görüşdük. Görüşdüyümüz yer onun həm iş yeri idi, həm də evidir. Zeynəb Muradova gözəllik salonu işlədir və evi olmadığı üçün 3 övladı ilə həmin salonda da yaşayır.

Z. Muradova deyir ki, bir neçə ay bundan öncə sələmə 24 min manat pul götürüb. 2 ay sonra pul aldığı Arzu Cabbarova adlı qadın ona borcunun 51000 manat olduğunu deyib. Bundan sonra aralarında razılığa gələrək notariusun təsdiqi ilə sənəd hazırlanıb. Həmin sənədə görə, Z.Muradova 51 min manat borcu noyabr ayına qədər geri verməli idi. Amma həmin vaxtın tamam olmamasına baxmayaraq, Arzu Cabbarova tez-tez onun iş yerinə gələrək ondan pul tələb edib. Hətta hədələyib də: "Mən üç uşaq anasıyam. Ən balacası 3 aylıqdır. Evim yoxdur deyə burada balaca bir otaq düzəltmişəm. İş yerimdə yaşayıram. O pulu ondan götürüb buranı açmışam. Hər gün gəlir, nə qazancım olursa aparır. Amma onun buna ixtiyarı yoxdur.

Məni tez-tez hədələyir. Təhqiramiz mesajlar yazır. Gəlir dükandakı gəlinlikləri dağıdır. Bir Tərənə adlı avtoritet qadına mənim nömrəmi verib. O da mənə yazır ki, "Sənin başına oyun açaram. Doğrayıb ataram Bakının ucqar nöqtələrinə. Heç kim izini də tapa bilməz. Uşaqların məktəbə gedir. Onları fikirləş. Onları oğurlayarıq". Artıq çox qorxuram. Keçən gün bir neçə nəfərlə gəlmişdilər. Qapını sındırmaq istəyirdilər. Polis çağırmışam. Polislər də biganə yanaşırlar. Mənim həyati təhlükəm var. Məni mühafizə edəcək polis lazımdır.

24 min manat pulu 160 min manata qaldırıblar. Mənim o pulları verməyə gücüm yoxdur. Bu mümkün deyil. Mənim üstümə bıçaq çıxardıb. Artıq məni intihar həddinə çatdırıblar. Özümü öldürəcəkdim. Gözümün qabağına 3 aylıq körpəm gəlir. Ona görə dözürəm. Hətta o yerə çatıb ki, uşaqlar Arzu adını eşidəndə qorxurlar. Mənə kömək etsinlər. Axı bu ölkədə qanun var".

Məsələnin hüquqi tərəfini öyrənmək üçün hüquq müdafiəçisi Müzəffər Baxışovla əlaqə saxladıq.

**M.Baxışovun sözlərinə görə, qanunvericilikdə sələmə pul verməklə bağlı hər hansı bir problem yoxdur. Amma burada hədə-qorxu gəlməklə pul tələbindən söhbət gedirsə, bu artıq cinayətdir:** "Qanunla onların arasındakı pul alıb-vermə məsələsində heç bir problem yoxdur. Əslində şəxslər arasında borc müqaviləsi yox, borcun etirafı ilə bağlı müqavilə bağlanmalı idi və notarius da onu təsdiq etməli idi. Əgər borclu olan şəxs noyabr ayına qədər həmin məbləği ödəməsydi, bu zaman sələmə verən şəxs qarşı tərəfi məhkəməyə verərək pulunu tələb etməli idi. Amma burada hədə-qorxu ilə pul istəmək məsələsi varsa və bu iddia sübut edilərsə, sələmə verən şəxs 182-ci maddə ilə cinayət məsuliyyəti daşıyır. Bu işlə isə artıq hüquq-mühafizə orqanları məşğul olmalıdır. Ümumilikdə isə hər şeyin həlli yolu məhkəmədir".

**Musavat.com ümid edir ki, əlaqədar təşkilatlar bu qadının durumu ilə maraqlanacaqlar. Yazıda adları çəkilən tərəflərlə də danışmağa hazırıq.**

❑ Məhəmməd TÜRKMƏN
Foto müəllifindir

# ABŞ Qarabağda müharibə istəyir?

**Rusiya ilə Qərb, özəlliklə də ABŞ arasında informasiya savaşının getdiyi, son aylar isə bu savaşın daha da şiddətləndiyi sirr deyil. İki güc mərkəzi arasında virtual müharibənin cəbhə xətti belə görünür, indi həm də Dağlıq Qarabağ münaqişəsi zonasından keçir.**






## Ekspert Güney Qafqazda Amerika və Türkiyənin Rusiya ilə toqquşacağını istisna eləmir; "atəşkəsin pozulmasında gerçəkdə hansı qüvvənin maraqlı olduğunu Bakı ciddi götür-qoy eləməlidir..."

Artıq belə fikirlər səslənir ki, regionun bu ən üzücü dondurulmuş konfliktindən Amerika da tərəflərə qarşı təhdid elementi kimi yararlanmaq xətti götürüb. İlk dəfə belə bir qənaət bu il iyulun axırı-avqustun əvvəlində, təmas xəttində atəşkəsin geniş miqyaslı pozulması zamanı ortaya atıldı.

O zaman maraqlı bir versiya səsləndi ki, Rusiyaya həddən artıq yaxınlaşmaq kursu götürən və bununla da Qərbin regionla bağlı strateji planlarına aşıq-aşkar ciddi manevələr yaradan işğalçı Ermənistanın hazırkı rəhbərliyini ABŞ cəzalandırmaq niyyətindədir. Bundan ötrü də qonşu ölkənin daxili ağır durumundan yararlanmaq ən mümkün və real variantlardan sayılır. Söhbət Sərkisyan iqtidarının olduqca həssas olduğu Dağlıq Qarabağ məsələsindən yararlanıb *(bu məsələdə üçüncü on ildir heç bir irəliləyiş yoxdur)* ona qarşı ciddi müqavimət hərəkatı yaratmaqdan və "narıncı inqilab"la qərbyönlü qüvvələrin hakimiyyətə gəlişini təmin eləməkdən gedir.

Yeri gəlmişkən, son günlər Ermənistanda baş qaldıran və hakimiyyətin istefası tələbi ilə müşayiət olunan kütləvi aksiyalarda da "Qərb izi" axtaranlar yetərincədir. Bəzi analitiklər isə daha da qabağa gedib Serj Sərkisyanın Avrasiya İqtisadi Birliyinə qoşulmaq barədə sazişi rəsmən imzalamasının ardınca Qərbin Ermənistanda hakimiyyət dəyişikliyi üçün düyməni basdığını iddia edirlər.

Bu mülahizələrin nə dərəcədə əsaslı olduğunu zaman göstərəcək. Amma Dağlıq Qarabağ məsələsi ətrafında situasiyaya yeni və prinsipial korrektlərin edildiyi göz önündədir. Belə görünür, Moskva kimi Vaşinqton da həll olunmamış münaqişədən tərəflərə manipulyasiya üçün yararlanmaq yolları axtarmaqdadır. İlk növbədə də, qeyd edildiyi kimi, Ermənistandaxili duruma təsir və yaranacaq yeni durumu idarə eləmək variantlarının müzakirə mövzusu olduğu real hesab edilir...

***

Rusiyalı siyasi icmalçı Viktor Yaduxanın da bu yöndə fikirləri diqqət çəkir. Şübhəsiz ki, o, ən əvvəl öz ölkəsinin maraqlarından çıxış edərək təxminlər irəli sürür - bu da var. Amma söylədikləri az qala sensasiya xarakterlidir.

Öncə Azərbaycanın sürətlə silahlanmasına toxunan politoloqun gümanına görə, rəsmi Bakı öz ərazisində NATO qoşunlarını qəbul eləməyə hazırlaşır (vesti.az). **Sitat:** "Birinci dəfə deyil ki, Amerika "Əfqanıstandan çıxarılma" adı altında qoşunlarını regionda yerləşdirmək istəyir. Bu ilin aprelində **NATO baş katibinin müavini Sorin Dukari** bəyan elədi ki, "Azərbaycan bizim üçün tranzit imkanları açıb". NATO-nun Xəzər hövzəsində mövcudluğunu isə Moskva təkcə ona görə məqbul saymır ki, bu, neft qaz amili ilə bağlıdır. Məsələ ondadır ki, bu, alyansa imkan yaradacaq ki, Rusiyanın materik hissəsinə nəzarət imkanı qazansın, Rusiyanı Qafqaz və Volqoboyu üzrə parçalamaqla təhdid edəcək. Bu məsələdə Bakı, yeri gəlmişkən, yalnız Rusiya tərəfdən deyil, İran, Çin sarıdan da müqavimətə hazır olmamalıdır".

**Analitikə görə, Amerikanın Xəzər hövzəsinə öz qoşunlarını yerləşdirmək üçün daha bir variantı Qarabağ zonasında yeni müharibəni qızışdırmaqdır:** "Ki, sonra ABŞ sülhməramlı qismində çıxış edib ora özünün və ya Türkiyənin hərbi birləşmələrini yerləşdirsin. Ancaq Rusiyanın buna asanca imkan verəcəyini düşünmək olmaz. Türkiyə də daxil, NATO qoşunlarının Rusiya ordusu ilə toqquşması isə nüvə müharibəsinə gətirə bilər. Odur ki, əsla pis olmaz ki, Bakıdakı hirsli vəz qəzəbli azərbaycanlılar hərdən dərindən düşünüb-daşınsınlar: təmas xəttində davam edən atışmalar gerçəkdə kimin xeyrinədir?"

***

Bu, təbii ki, ehtimallardır. Münaqişənin həlli uzandıqca Azərbaycan şübhəsiz ki, konflikt ətrafında vəziyyətin istənilən ssenari üzrə inkişafına və fors-major vəziyyətlərə hazır olmalıdır. Proseslərin izlənmə dinamikası isə yəqin ki, qardaş Türkiyənin müvafiq strukturları ilə ortaq şəkildə aparılır. O Türkiyə ki, əslində Rusiyanın Qarabağ zonasında onunla toqquşması Kremlə, ümumiyyətlə, əl vermir. Ən azı o səbəbdən ki, Kremlə qarşı Qərbin hələ uzun müddət davam edəcək sanksiyaları fonunda qardaş ölkənin şimal qonşumuz üçün dəyəri xeyli artıb.

Moskva-Ankara siyasi-diplomatik və iqtisadi-ticari münasibətləri hazırda bəlkə də ən yaxşı dövrünü yaşayır. Üstəgəl, son vaxtlar hətta Türkiyənin Avrasiya İttifaqına qoşulacağı ilə bağlı ehtiyatlı təxminlər səslənir. Bütün hallarda bu gün kimin tərəfindən qızışdırılmasından asılı olmayaraq yeni Qarabağ savaşında Kremlin maraqlı olmadığı inandırıcı görünür. O ayrı məsələ ki, Moskvanın münaqişədən güddüyü maraqlar region ölkələrinin köklü mənafeyi ilə nə dərəcədə uzlaşır...

# Erməni jurnalist Ermənistan məmurlarını ifşa etdi

## Parisdə nəşr olunan "Ermənistan xəbərləri" jurnalında bu ölkənin sürətlə boşaldığı, təhsilin yox səviyyədə olduğu bildirilib



**Parisdə erməni lobbisinin vəsaiti hesabına gündəlik nəşr olunan "Ermənistan xəbərləri" jurnalında müstəqil erməni jurnalisti Arevik Saakyanın "Ermənistanda kənd məktəbləri qürub edir" sərlövhəli məqaləsi dərc olunub. Ermənistanın orta məktəblərində təhsilin vəziyyətindən söhbət açan jurnalist bu sahədə acınacaqlı vəziyyətin yarandığını diqqətə çatdırıb.**

Karabakhinfo.com-un məlumatına görə, müəllif bildirib ki, Ermənistanın elm və təhsil naziri yerli kütləvi informasiya vasitələrinə verdiyi müsahibəsində təhsil sahəsində problemlərin həll olunduğunu bildirsə də, son dörd ildə onlarla kənd məktəbinin bağlanması onun dediklərini şübhə altına alır.

Ermənistanın kənd yerlərində orta məktəblərin bağlanmasının əsas səbəbini işləmək üçün ölkəni tərk edənlərin hesabına kəndlərin sürətlə boşalmasında görən müəllif bu ölkənin Dövlət Miqrasiya Xidmətinin məlumatına istinad etməklə 900 min - 1 milyon erməninin xarici ölkələrə köçdüyünü, onların əksəriyyətinin getdikləri ölkələrdə həmişəlik məskunlaşdıqlarını diqqətə çatdırıb.

İqtisadiyyatı sürətlə tənəzzülə uğrayan, işsizliyin tüğyan etdiyi və məmurları bir nəfər kimi korrupsiyaya qurşanan Ermənistanda 2008-2013-cü illərdə 212 min əmək qabiliyyətli insanın ölkəni tərk etdiyi və əhalisi üç milyondan az olan bir ölkə üçün bunun çox ağır olduğu vurğulanan məqalədə belə vəziyyətin orta məktəblərin fəaliyyətinə ciddi təsir edən amil olduğu bildirilib.

Məqalədə əksər kəndlərdə orta məktəblərin bağlanması səbəbindən kənddə qalan və məktəb yaşı çatan bir neçə uşağın qonşu kənddəki məktəbə getməyə məcbur olması qeyd edilib.

Araqtsyan regionunun Otevan kənd bələdiyyəsinin rəhbəri jurnalistlə söhbətində bildirib ki, kənddəki orta məktəb keçən il bağlanıb. Valideynlər iş axtarmaq üçün başqa yerə getdiklərindən kənddə məktəb yaşlı bir uşaq da qalmayıb. Kəndi tərk edənlərdən geri qayıtmağı dəfələrlə tələb etsək də, heç bir nəticə alınmayıb.

Şirak rayonunun Kakavar kənd bələdiyyəsinin rəhbərinin kənd məktəbinin bağlanmasının qarşısını almaq üçün qonşu kənddə qalan bir neçə ailənin onların kəndinə köçmələri barədə xahişi də cavabsız qalıb.

Müəllif sovet dövründə 330 şagirdin təhsil aldığı Tavuş rayonunun Barekamavan kənd orta məktəbində 25 uşağın, həmin vaxt 1200 şagirdin oxuduğu Movses kənd məktəbində isə 100-dən az uşağın qaldığını bildirib.

Nazirliyin ümumi təhsil şöbəsinin müdiri uşaq doğumunun azalmasını kənd yerlərində məktəblərin bağlanmasına əsas səbəb kimi göstərsə də, məqalədə bunun bəhanə olduğu qeyd edilib. Bildirilib ki, erməni məmurların bu cür bəhanə gətirmələri əslində riyakarlıq olmaqla yanaşı, ictimaiyyəti aldatmaqdan başqa bir şey deyil.

# Müğənnilərdən kimlərin gizli biznesi var?

## Onların bir çoxu bu sahədə uğur qazansa da, "əli gətirməyənlər", "biznes mənlik deyil" deyənlər də az deyil...

**Üzdə olan sənət adamlarının əksəriyyəti bir qayda olaraq, öz gələcəklərini qarantiyaya almaq üçün şəxsi bizneslərini qururlar. Məlum məsələdir ki, yaşı 60-ı keçmiş hansısa aktyor, yaxud müğənni artıq ya heç kimə lazım olmur, ya da əvvəlki gücünü sərgiləyə bilmədiyi üçün meydandan çəkilməyə məcbur olur. Buna görə də əksər sənətçi gələcəyini indidən düşünüb, kiçik də olsa özünə biznes qurur.**



Lakin bəziləri bunu reklam etməyə səy göstərsə də, çoxları gizlin saxlamağı üstün tutur. Biz də müğənnilərdən kimlərin biznesinin olub olmadığını öyrənmək üçün onlardan bir neçəsi ilə telefon əlaqəsi saxladıq.

**Xalq artisti, müğənni Səməd Səmədov heç vaxt bizneslə məşğul olmadığını dedi:** "5 nəvəmin canına and olsun ki, heç bir biznesim yoxdur. Heç bu haqda düşünməmişəm. Çünki biznes mən bacaran iş deyil. Mənimki, odur ki, min nəfərlik zal olsun və mən insanları əyləndirim. Onlara yaxşı xoş əhval, şənlik bəxş edim".

**Müğənni Manaf Ağayev isə biznesinin olmasını istədiyini bildirdi:** "Hazırda məşğul olduğum biznes sahəsi yoxdur. Amma istərdim ki, olsun. Bu istiqamət üzrə hazırda çalışıram. Müğənnilik o demək deyil ki, ömrün boyu oxuyasan. Vaxt gəlir ki, dəbdən düşürsən. Yaşa dolduqca təravət itir. Ona görə də gələcək üçün özünə bir gün ağlamalısan. Mən indi desəm ki, bina tikəcəyəm və yaxud başqa bir şey - yalan olar. Amma çalışıram ki, işləyib qazanım və dükan və ya mağaza alım".

**Əməkdar artist Nüşabə Ələsgərli əvvəl biznesinin olduğunu söyləsə də, hazırda bu işlə məşğul olmadığını dedi:** "Mənim əvvəl gözəllik salonum və supermarektim var idi. Ancaq hazırda yoxdur. Bizneslə məşğul olmağı bacarmadım, işlərim alınmadı. Gələcəkdə yenidən biznesə qol qoymağı düşünmürəm. Mənə elə gəlir ki, hər kəs öz işi ilə məşğul olsa yaxşıdır".

**Xalq artisti Brilliant Dadaşova isə bu haqda heç vaxt düşünmədiyini dedi:** "Mənim biznesim yox, səsim və musiqim var".

**Əməkdar artist Baloğlan Əşrəfov isə onun biznesinin "boğazı" olduğunu bildirdi:** "Müəyyən yaşa qədər mənim biznesim boğazımdır. Ondan sonra övladlarım məni saxlayar. Necə ki, mən atamı, babamı saxlamışam. Mən biznes işini bacarmaram. Amma vaxtilə məndən alınan borc pullarla özlərinə doğrudan da böyük biznes quranlar olub. İndi də onların mağazaları və sairələri var. Amma mən bunu bacarmadım. Çünki mənə yol göstərən olmadı".

**Müğənni Əli Mirəliyev isə 165 manat təqaüd aldığını və heç bir biznesinin olmadığını dedi:** "Bir müğənninin sənəti, istedadı varsa və o insan öz musiqisi, səsi ilə insanları düşündürə bilirsə, bu elə onun üçün biznesdir. Yəni Allah tərəfindən verilən bir varlıqdır. Nə vaxt eşitmisiniz ki, Rübabə Muradovanın, Qulu Əsgərovun və digər korifeylərin biznesi olsun. Bu insanların biznesləri onların sənəti olub. Amma indi "xalq artistləri", "əməkdar artistlər" var ki, onları oxumaq yox, biznesləri düşündürür. Onlar ancaq brilyantlarını, evlərini, bahalı maşınlarını, paltarlarını nümayiş etdirirlər. Adama sual verərlər ki, bu sizə haradandır? Əgər bütün bunları oxumaqla qazanırsınızsa, o zaman mənim niyə olmasın?! Demək ki, bunlar başqa iş görürlər. Bu insanlar hətta insan, orqan alveri ilə məşğuldular. Fikir versəniz görərsiniz ki, elə müğənnilər var, oxumaqları alınmayıb deyə keçiblər veriliş aparmağa. Veriliş aparmaq üçün onlar kanalın sahibinə pul ödəməlidir. Çünki özəl kanaldır. Bu pulu haradan alırlar?! Bunlar Türkiyədə, Rusiyada evi necə, hansı pulla alırlar?! Bu, toyla, oxumaqla mümkün deyil. Bunlar xalqın gözündən düşmüş insanlardır. Səsi olmayan xalq artistləri, əməkdar artistlər prezident təqaüdü alır. Mən isə 160 manat təqaüd. Niyə mənə, Akif İslamzadəyə prezident təqaüdü vermirlər? Çünki biz düz danışırıq. Amma yaltaqlıq edənlərə verirlər".

Xalq artisti Ağadadaş Ağayevin bir zamanlar Bakıda məşhur olan "Büsat" şadlıq sarayının sahibi olduğu deyilir.

Əməkdar artist, aktrisa Vəfa Zeynalova da gözəllik salonu işlədən sənətçilər sırasındadır. "LS" adlanan salon V.Zeynalovanın qızlarının adları ilə bağlıdır.

Şoumen Murad Dadaşov isə həm bir "prodakşn" ("M Group production"), həm də şirniyyat dükanına sahibdir.

Rəqqasə Fatimə də bizneslə məşğul olan sənət adamları sırasında yer alır. Onun bir neçə mağazalarının olduğu məlumdur.

Müğənni Xəyyam Nisanov isə "Little Smile" adlı uşaq əyləncə mərkəzinin sahibidir.

Müğənni Zamiq Hüseynov "ZH" geyim mağazasının, Əməkdar artist Abbas Bağırov isə "ABA" şirniyyat evinin sahibidir.

Müğənni Röya Ayxanın Xaçmaz rayonunun Nabran qəsəbəsində şəxsi villası var. Villasının yanında istirahət üçün nəzərdə tutulmuş bir neçə kiçik evlər tikdirib. Adıçəkilən mənzillər isə Nabrana istirahətə gələn turistlərə və ən əsası ailəvi insanlara kirayə verilir.

Əməkdar artist, hamının "Toppuş bacı" kimi tanıdığı aktrisa Tünzalə Əliyeva da öz biznesini quran sənətçilər sırasındadır.

Əməkdar artist Aygün Bəylər də biznesi olan sənətçilərdəndir. Müğənni Suraxanı rayonunda bir neçə avtoservisin sahibəsidir.

❑ **Günel MANAFLI**


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**

# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**

Tel: (055) 776-70-34

# Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A «Nərimanov» m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**




# «Bakcell» təhsil və karyera sərgilərində iştirak edib

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti Bakıda keçirilən 8-ci Azərbaycan Beynəlxalq "Təhsil" və 8-ci Azərbaycan Beynəlxalq "Karyera" sərgisində uğurla iştirak edib.**

**3 gün davam edən sərgidə nümayiş olunan «Bakcell» stendi və təşkil olunan müsabiqə, sorğu və s. tədbirlər iştirakçılar tərəfindən maraqla qarşılanıb. Bununla yanaşı, «Bakcell»də hazırda mövcud olan 14 vakansiya barədə məlumat verilib, eyni zamanda stendin ziyarətçiləri arasında müsabiqə keçirilib. Müsabiqədə «Bakcell», şirkətin həyata keçirdiyi layihələr, əmək qanunvericiliyi, kadrların idarə olunması və s. ilə bağlı suallara cavab verən 24 sərgi iştirakçıya xüsusi hədiyyələr təqdim olunub.**

**Sərgi zamanı şirkətin təqdim etdiyi vakansiyalara 300-dən artıq müraciət daxil olub. Hazırda elan olunmuş vakansiyalara uyğun gələn müraciətlərə «Bakcell»in insan resursları şöbəsi tərəfindən baxılır.**

**Sərgi iştirakçıları arasında keçirilənnn məşğulluq sorğusunda 200-dən çox ziyatərçi iştirak edib və "«Bakcell»"də işəgötürmə prosesi, özlərinin əməkhaqqı gözləntiləri, sosial statusu, yaşı, maraqlandıqları sahə və s. ilə bağlı sulları cavablandırıblar.**

**Müxtəlif sərgilər zamanı həyata keçirilən bu cür sorğuların nəticələri təhlil olunaraq şirkətin işə qəbul prosesinin təkmilləşdirilməsi üçün istifadə olunur.**

**Qeyd edək ki, "Təhsil" və "Karyera" sərgiləri Azərbaycan Respublikası Təhsil Nazirliyinin rəsmi dəstəyi ilə təşkil olunan yeganə tədbirdir. Sərginin təşkilatçıları qismində isə "Iteca Caspian" və "Caspian Event Organisers" (CEO) şirkətləridir.**

**«Bakcell» şirkəti Azərbaycanın ən böyük işə götürənlərindən biridir. Şirkət peşəkarların işə cəlb olunması, eyni zamanda tələbə və gənclərin karyeraya başlaması üçün müxtəlif layihələr həyata keçirir. «Bakcell»in "Smart Start" adlı təcrübə bu proqramı bu yaxınlarda uğurla başa çatıb.**

YENİ MÜSAVAT
N 256 (5965) 17 oktyabr 2014

**Yaxın günlərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun oğlu Rza Talıbova məxsus "Gəmiqaya Holding" Gürcüstanın kurort şəhəri olan Batumidə 5 ulduzlu hotel açıb. Xalq.az saytının verdiyi xəbərə görə, "Gəmiqaya Holding"in "Divan Suites Batumi" adlı hotelinin açılışında Acarıstan Muxtar Respublikası hökumətinin rəhbəri Arçil Xabadze, Acarıstan Muxtar Respublikası Ali Məclisinin sədri Aftandil Beridze, "Gəmiqaya Holding"in rəhbəri Rza Talıbov, eləcə də digər rəsmi qonaqlar iştirak edib.**

# Vasif Talıbovun oğlu Gürcüstanda beşulduzlu hotel açdı

## Rza Talıbova məxsus "Divan Suites Batumi"nin açılışına Acarıstan hökumətinin rəhbərləri qatılıb; hotelin keyfiyyəti və qiyməti Azərbaycanla müqayisədə çox əlverişlidir





Yada salaq ki, Vasif Talıbovun oğlu Rza Talıbov siyasi elmlər üzrə fəlsəfə doktorudur. Xalq.az yazır ki, siyasət və bizneslə məşğul olan Rza Talıbovun eyni zamanda xeyriyyəçilik fəaliyyəti də var.

"Yeni Müsavat"ın Batumidəki qaynaqlardan əldə etdiyi xəbərə görə, rəsmi açılışı yaxın günlərdə gerçəkləşən "Divan Suites Batumi" 5 aydır istifadəyə verilib. 2014-cü ilin iyun ayından ilk qonaqlarını qəbul edən hotel şəhərin ən pristijli hotellərindən sayılır. Batumidəki qaynaqlar onu da bildirir ki, hotel "Gəmiqaya Holding"in Türkiyə iş dünyasının nəhəngi "Koç Holding"lə ortaq layihəsidir.

"Divan Suites Batumi" bu yay Batumiyə gələn zəngin turistlərin sevimli məkanı olub. Batum bulvarına yaxın mövqedə yerləşməsi, xidmətin keyfiyyətinə görə 5 ulduzlu hotel konseptinə tam cavab verməsi, eyni zamanda dünyanın bir neçə mətbəxi təqdim edilən restoranı hoteli həm yerli iş adamları, həm də xarici qonaqlar üçün cəlbedici edir. Onu da vurğulayaq ki, "Divan Suites Batumi"də qiymətlər Batumi üçün orta səviyyəli sayılır. Hotelin standart otaqlarının bir gecəlik qiyməti 145 dollardır. Bundan başqa, hoteldə 5 "kral otaqları" da var. "Kral otaqları"nın günlük qiyməti 300 dollara yaxındır. Müqayisə üçün qeyd edək ki, bu qiymətlər Azərbaycandakı 5 ulduzlu hotellərin qiymətindən təxminən 2 dəfə ucuzdur.

**Azərbaycan iş adamları nədən vəsaitlərini daxili turizmin inkişafına deyil, xaricə yatırdır? "Yeni Müsavat"ın bu sualını cavablandıran iqtisadçı-ekspert Vüqar Bayramov deyir ki, səbəb Gürcüstanda investisiya mühitinin çəkiciliyidir:** "Ümumiyyətlə, Batumi son illər ciddi şəkildə inkişaf edib. Gürcüstan hökuməti Batumini turizm mərkəzi kimi inkişaf etdirmək üçün çox böyük layihələr həyata keçirib. Dövlət səviyyəsində görülən tədbirlərdən biri də turizm bölgəsinə xarici investorların cəlb edilməsi üçün bir sıra güzəştlərin tətbiq edilməsidir. Bu güzəştlər Batumiyə geniş sərmayə yatırılmasına imkan verir. Bu da Gürcüstanı xarici ölkələrdən olan iş adamlarının investisiya qoymaları üçün arzuolunan məkana çevirir. Burada ikinci önəmli məqam da var - Gürcüstanda alıcılıq qabiliyyəti yüksəkdir. Yəni qoyulan investisiyanın rentabelli olacağına təminat böyükdür. Bu da imkan verir ki, Azərbaycan iş adamları Gürcüstan iqtisadiyyatına daha çox vəsait yönəltsinlər. Eyni zamanda Gürcüstana gediş-gəlişin rahat olması, dil baryerinin olmaması Azərbaycan iş adamları üçün bu ölkədə daha münbit şərait yaradır".

**Vüqar Bayramov onu da bildirir ki, Gürcüstanın vergi sistemində ciddi islahatlar aparılması ölkənin investisiya mühitinə olduqca müsbət təsir göstərib:** "Gürcüstan Batumini xüsusi iqtisadi zona elan etdiyindən həm yerli, həm də xarici investorlar üçün vergi dərəcələri aşağıdır. Bu mühit öz biznesini inkişaf etdirmək istəyən xarici investorlar üçün son dərəcə uyğun və əlverişli olduğundan Batumiyə xarici investisiyanın axını güclüdür. Proqnozlar göstərir ki, yaxın illərdə də artım tempi davam edəcək".

Azərbaycanda da turizmin inkişaf etdirilməsi Azərbaycan rəsmilərinin dediyinə görə, hökumətin prioritetlərindəndir. Ancaq Gürcüstandan fərqli olaraq Azərbaycanda investisiya mühiti iş adamları üçün o qədər də cəlbedici deyil. Ekspertlər bu sektorun inkişaf etməməsində rüşvət faktorunu əsas maneə sayır. Rüşvət stavkalarının yüksək olması xidmətin qiymətini elə bahalaşdırır ki, ölkəyə nəinki xarici turist axınını təmin etmək mümkün olmur, ölkə vətəndaşları belə xarici ölkələrin daha yaxşı keyfiyyətli və daha ucuz hotellərinə üz tutur

**Bəs o zaman Azərbaycan nədən Gürcüstan kimi həm yerli, həm xarici investorların cəlb edilməsi üçün əlverişli mühit yaratmır? Azərbaycan iş adamlarının maliyyəsi nədən Azərbaycanın deyil, digər ölkələrin turizm sektorunun inkişafına xidmət edir? Üstəlik, Azərbaycanda şərtlər o qədərmi pisdir ki, hətta hakimiyyətə yaxın iş adamları da xarici ölkələrə investisiya yatırır?**

**Vüqar Bayramov deyir ki, ümumiyyətlə kapitalın hərəkətini məhdudlaşdırmaq mümkün deyil. İnvestisiyanın bir ölkədən başqa bir ölkəyə daxil olması heç də hər zaman həmin ölkədə investisiya mühitinin pis olması anlamına gəlmir:** "Çünki bəzi hallarda bunun tam tərsinin şahidi oluruq. Dünyada ən çox investisiya qoyan ölkələr Amerika Birləşmiş Ştatları və Avropa Birliyi ölkələridir. Əlbəttə, heç kim iddia edə bilməz ki, ABŞ və Avropa Birliyi ölkələrində investisiya mühiti yaxşı deyil. Bir daha investisiyaların məhz Batumiyə qoyulması məsələsinə qayıtmaq istəyirəm. Batumiyə yatırılan vəsaitin gəlirliliyi Azərbaycanın turizm sektoruna yatırılan investisiyanın gəlirliliyindən artıqdır. Batumiyə Avropanın bir çox ölkələri vizasız gediş-gəliş tətbiq edir. Azərbaycan iş adamları üçün cəlbedici investisiya məkanları sırasında Şərqi və Mərkəzi Avropa ölkələri də var. Statistikaya baxdığımızda görürük ki, Azərbaycan iş adamları son illər bu ölkələrə ciddi investisiya yatırır. Söhbət yenə də mühitdən gedir. Həmin ölkələrə turizm axını güclüdür".

Gürcüstan Dövlət Statistika Komitəsi xəbər verir ki, 2014-cü ilin iki rübündə ölkəyə 567 milyon dollar xarici investisiya cəlb edilib. Gürcüstan iqtisadiyyatına investisiya qoyan ölkələr sırasında ilk yeri Niderland tutur - 174 milyon dollar. İkinci yer 99,9 milyon dollarla Azərbaycan iş adamlarınındır. Üçüncü yeri 59 milyon dollarla Lüksemburq tutur. Onu da vurğulayaq ki, 2013-cü ildə Gürcüstan iqtisadiyyatına yatırılan investisiyanın ümumi həcmi 942 milyon dollar olub. Ötən il də Azərbaycan iş adamları sıralamada ikinci yerdə dayanıb.

❑ Aygün MURADXANLI

# "Azərbaycana İŞİD təhlükəsi güclənib"

## İlham İsmayıl: "Görünür, Rusiya kəşfiyyatında məlumat var ki, perspektivdə İŞİD Qafqaza yönələ bilər..."

**Bazar günü Milli Şuranın "Məhsul" stadionunda keçirdiyi aksiyada bir neçə nəfərin İŞİD-in bayrağını qaldırması aksiyanın əsas hadisəsinə çevrildi. Dünyanın əsas probleminə çevrilən radikal islamçı qruplaşmanın bayrağının Bakıda siyasi müxalifətin aksiyasında qaldırılması birmənalı qarşılanmadı. Bu olayın təxribat olması versiyası irəli sürüldü.**

Bayraq qaldıranların həbs olunmaması, polisə tutulub təhvil verildikdən sonra bölmədə izahatı alınaraq buraxılması şübhələri artırıb. **Hüquqşünas Müzəffər Baxışov** "Yeni Müsavat"a bildirib ki, İŞİD dünyada düşmənçilik yaratdığını və terror təşkilatı olduğu üçün onun bayrağının kütləvi aksiyada qaldırılması qanunla qadağandır: "Hər hansı milli, irqi, dini ayrı-seçkiliyi yaradan bayraqların mitinqdə qaldırılması qadağandır". Onun sözlərinə görə, nifaq salmaq niyyəti ilə bayraq qaldırılması sübuta yetirilsə, Cinayət Məcəlləsinin 283.1 və eləcə də mütəşəkkil dəstə ilə əlbir olaraq bayrağı qaldırıbsa, 283.2 maddəsi ilə istintaq aparıla və ağırlaşdırıcı hal kimi qeyd oluna bilər. Əgər şəxsin əməli sübuta yetirilərsə, 3 ildən 5 ilədək azadlıqdan məhrumetmə nəzərdə tutulur.

Ancaq bu hadisənin daha bir maraqlı tərəfi də bayrağı qaldıranlardan birinin yerli səlfi liderlərindən olan Qamət Süleymanovun qaynı olmasıdır. Doğrudanmı, Bakıda müxalifətin aksiyalarına gedərək İŞİD-in bayrağını qaldıracaq insanlar var? Bu hadisənin necə baş verdiyi ehtimallarını bir kənara qoysaq, faktın özü ciddi narahatlıq üçün əsas yaradır. Çünki Suriyada savaş başlayandan bu yana yüzlərlə azərbaycanlı ölkəni tərk edərək radikal dinçi qruplaşmalara qoşulub. Bəzi məlumatlarda onların sayının 400 nəfərdən çox olduğu qeyd edilir. Dəqiq statistika məlum olmasa da, tez-tez gələn ölüm xəbəri *(sonuncusu dünən gəldi - K.)* Yaxın Şərqdəki münaqişələrdə azərbaycanlıların olduğunu təsdiqləyir. Ötən ay isə təhlükəsizlik orqanları 26 nəfəri radikal dini qruplara, əsasən də İŞİD-ə qoşulanlar olmaqla həbs edib. Belə görünür təhlükə artıq Bakıya da çatır.



İlham İsmayıl

**Təhlükəsizlik məsələləri üzrə ekspert İlham İsmayıl müxalifətin keçirdiyi aksiyada İŞİD bayrağının qaldırılmasını şübhəli sayır. Onun fikrincə, hər hansı İŞİD üzvü Azərbaycanda özbaşına bayraq qaldıra bilməzdi:** "İŞİD-in özünün qaydaları var. Onlar harada, nə zaman, hansı addımı atacaqlarını, belə desək, ciddi şəkildə planlaşdırırlar. Bəri başdan haradasa mövcud olmağa hazırlaşırlarsa, orda özlərini nümayiş etdirib hədəfə çevirmirlər. Biz hamımız bilirik ki, o mitinqdə İŞİD bayrağı qaldıran adamlar tutulmayıb, polisdən buraxılıblar. O bayrağın haradan gətirildiyini, necə qaldırıldığını, harada istehsal olunduğunu belə hüquq-mühafizə orqanları bir günün içində araşdırıb üzə çıxara bilərlər. Bu, olduqca şübhəli məqamdır və təxribat ehtimalı olduqca çoxdur. Düşünürəm ki, bu bayraq İŞİD tərəfdən deyil, hansısa siyasi maraqlara hesablanmış şübhəli və ucuz bir təxribat olub".

**İlham İsmayıla görə, Azərbaycana İŞİD təhlükəsi hər zaman olub, indi daha güclüdür:** "Diqqət etdinizsə, Rusiya müdafiə naziri Bakıya səfəri zamanı İŞİD təhlükəsindən danışdı. Sergey Şoyqu dedi ki, İŞİD-ə qarşı mübarizədə birgə hərəkət edəcəklər. Çünki bilirlər ki, Şimali Qafqazda fəaliyyət göstərən radikal islamçı qruplar əsasən Azərbaycan ərazisindən istifadə edirlər. Görünür ki, Rusiya kəşfiyyatında məlumat var ki, perspektivdə İŞİD Şimali Qafqaza yönələ bilər. Yəni artıq böyük güclər İŞİD-dən Rusiyaya qarşı istifadə edə bilərlər. Buna da ciddi əsaslar mövcuddur. Çünki Şimali Qafqaz zaman-zaman radikal qruplar tərəfindən idarə olunub, indi də bu qrupların təsiri qalır orda. Onları tamamilə silə bilməyiblər".

**İ.İsmayılın fikrincə, bir qədər əvvəl xüsusi xidmət orqanlarının həbs elədiyi 26 nəfər görünənlərdir:** "Gör indi nə qədər görünməyən, üzdə olmayan simpatizanlar var. Təbii ki, Azərbaycanda vəziyyət İraqda, Suriyada, ya da Pakistanda və Əfqanıstanda olduğu kimi deyil. Ancaq o da var ki, başlı-başına buraxılsa, arxayınlaşsaq, bu tendensiya həddindən artıq sürətlə yayıla bilər. Din həssas sahədir. Hər kim İŞİD-i deyil, İslamı fikirləşir. İŞİD onsuz da özünü gözdən salıb. Burda bir İslamı gözdən salma projesi də var. Xüsusi qəddarlıq səhnələrinin sosial şəbəkələrdə, mediada yayılması dinə qarşı olduqca böyük antipatiya yaradıb. Bu mənada bu qruplaşmanın Azərbaycanda fəaliyyət göstərməsi real görünməsə də, təhlükəni tamamilə inkar etmək olmaz. Hətta SSRİ kimi ateist dövlətdə, dinin qadağan olunduğu, sərhədlərin bağlı olduğu şəraitdə dini mövzu xüsusi xidmət orqanlarının fəaliyyətində aparıcı yer tuturdu. Bundan ötrü xüsusi şöbə də vardı. Çünki din insanların həssas yeridir. SSRİ hökuməti də buna ciddi yanaşırdı".

❑ KƏNAN

Yeni Müsavat
N 256 (5965) 17 oktyabr 2014




# Mübahilə günündə baş verən tarixi dönüş

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Cümə söhbətləri**

**Bismillәhir-Rahmәnir-Rahim! Zilhiccә ayında olan mühüm tarixlәrdәn biri Mübahilә günü ilә bağlı mәsәlәlәrdir. Bu gün - öz әhәmiyyәtinә, öz fәlsәfәsinә görә әslindә İslam tarixindә böyük yer tutur. Bu gün - müәyyәn mәnada İslamın son din olaraq tәsdiqinә aiddir vә digәr tәrәfdәn, insanların Әhli-beyti (ә) tanımasına, düzgün seçim etmәsinә xeyli dәrәcәdә yardım edәn bir fenomendir.**

“Mübahilə” - qarşılıqlı nifrin etmə mənasına dələlət edən bir məfhumdur. Bu tarixi olay, Həzrət Peyğəmbərin (s) axırıncı peyğəmbər olaraq, Xatəmül-ənbiya olaraq hudayət missiyası ilə, haqq yola dəvət vəzifəsi ilə bilavasitə əlaqəli məsələdir. Belə ki, Həzrət Rəsuli-Əkrəm (s) Nəcran məsihilərini İslama dəvət etmişdi. Onlar isə müəyyən bəhanələr gətirərək, bu təklifi qəbul etməmişdilər. Bundan sonra bir hadisələr baş vermşdi ki, çox geniş surətdə yayılaraq, milyonlarla insanın haqq yolunu seçməsinə kömək etmişdir.

Vaqiə belə olmuşdu. Nəcran - Yəmənlə sərhəddə yerləşən bir məntəqədir. Nəcranın əhalisi xaçpərəstlərdən ibarət idi. Peyğəmbərimiz (s) onların yanına təbliğatçılar göndərərək, öz İlahi missiyası ilə bağlı onları məlumatlandırdı və İslama dəvət etdi. İslam Peyğəmbərinin (s) göndərdiyi mübəlliğlər Nəcranda kifayət qədər böyük sayda insanın sonuncu Peyğəmbərin gətirdiyi dinə gəlməsinə səbəb oldular. Amma nəcranlılar arasında böyük bir qrup da var idi ki, bu dəvəti cavablandırmadı. Rəsuli-Əkrəm (s) onlara məktub yazdı, İslamın haqq və sonuncu din olmasını onlara çatdırdı. Axı o Həzrət (s) bir millətə, bir ölkəyə gəlməmişdi. Bütün bəşəriyyəti hidayət etmək üçün məbus edilmişdi.

Nəcran məsihiləri bu məktuba cavab olaraq, Mədinəyə - Peyğəmbərimizin (s) yanına nümayəndə heyətini göndərdilər. Bu heyət 14 nəfərdən ibarət idi. Bu heyətin başında 3 nəfər ən nüfuzlu xristian ruhanisi dururdu.

## Həzrət Adəmin (ə) misalı

Heyət Mədinəyə çatır və Rəsuli-Əkrəmin (s) hüzuruna gəlir. Onların İslama dəvətin mahiyyəti ilə bağlı suallarının cavabında Peyğəmbəri-Əkrəm (s) buyurur ki, dəvətin mahiyyəti - insanları tövhid (təkilahlıq) dininə dəvət etməkdir, yəni, onlara təklif etməkdir ki, Allahdan başqa ibadət ediləcək məbudun olmadığına və Həzrətin nəbiliyinə şəhadət versinlər. Peyğəmbərimizin (s) İslama dəvətinə cavab olaraq, onlar Rəsuli-Əkrəmin (s) İsa peyğəmbər (ə) haqqında rəyini bilmək istədilər. Həzrət Peyğəmbər (s) onlara bildirdi ki, Həzrət Məryəmin oğlu İsa (ə) - Allahın Rəsuludur, Aləmlərin Rəbbinin peyğəmbəridir. Allah Təbarəkə və Təala Həzrət İsanı (ə) öz elçilərindən biri kimi tanıdıb. Həzrət İsa (ə) - Allahın bəndəsidir və Allah tərəfindən xəlq edilmişdir.



Lakin, xristian nəcranlılar bunu qəbul etmədilər və bəyan etdilər ki, Həzrət İsa (ə) atasız dünyaya gəldiyi üçün biz onu (nəüzübillah!) Tanrının oğlu kimi tanıyırıq. Bu haqda Rəsuli-Əkrəmə (s) vəhy nazil oldu: "Həqiqətən, Allah yanında İsanın hekayəti (yaradılışın necəliyi baxımından) Adəmin hekayəti kimidir. Allah onu torpaqdan yaratdı, sonra ona "(canlı insan) ol!" dedi, o da oldu (... onların hər ikisi Allahın əzəli əmrilə, atasız insan oldular. Əgər belə bir iş ilahlığa dəlalət edirsə, gərək onların hər ikisi ilah olsunlar". *(“Ali-İmran” surəsi, 59-cu ayə).* Yəni, Allah Təala Həzrət Adəmi vasitəsiz, yəni ata-anasız yaratdığı kimi, Həzrət İsanı da vasitələrdən biri olmadan, yəni atasız olaraq dünyaya gətirmişdir. Əgər atasız dünyaya gəlmək insanın Tanrı olması deməkdirsə, nə üçün bu, təkcə Həzrət İsaya aid edilir? Nə üçün Həzrət Adəmə aid edilmir?

## Mübahilə təklifi

Lakin Nəcran məsihiləri bu məntiqi qəbul etmədilər. Daha doğrusu, qəbul etmək istəmədilər. Çünki, bu dəlil, onların dünyagörüşlərini alt-üst edirdi və onların üzərinə araşdırma aparmaqla bağlı müəyyən vəzifələr qoyurdu. Əlbəttə ki, əgər xəlq olunmuşlardan kimsə, Allah Təalanın hikməti üzündən, fərqli olaraq dünyaya gəlirsə, məgər bu, ilahlığın göstəricisidirmi?! Nəcran məsihiləri bu sadə məntiqi qəbul etmək istəmədilər. Onlar zahirdə İslamı qəbul etdiklərini dedilər. Peyğəmbərimiz (s) isə onlara bildirdi ki, siz gerçəkdə iman gətirməmisiniz. İslam - ürəklə qəbul etməyi şərtləndirən bir dindir. Belə olduqda, onlar İslamı qəbul etməkdən imtina edirlər. Beləliklə, nəcranlılar əks təklif irəli sürdülər. Onlar təklif etdilər ki, müəyyən bir yerdə, müəyyən bir vaxtda yığışaq və haqqın üzə çıxması, nahaqqın məhvi üçün qarğış edək. Bu zaman Peyğəmbərimizə (s) ayə nazil oldu: “Buna görə də, sənə elm gəldikdən sonra, onun barəsində (Həzrət İsa haqqında) səninlə mübahisə edən (höcətləşən) kəsə de: "Gəlin biz öz oğullarımızı və siz öz oğullarınızı, biz öz qadınlarımızı və siz öz qadınlarınızı, biz özümüzü (bizim canımız kimi olan kəsləri) və siz də özünüzü çağıraq, sonra bir-birimizə nifrin edək, beləliklə, Allahın lənətini yalançılara yağdıraq"". *(“Ali-İmran” surəsi, 61-ci ayə).*

Çox incə bir mətləbdir ki, görəsən Peyğəmbər “oğullarımız” olaraq kimləri özü ilə götürəcək, “qadınlarımız” dedikdə kimləri götürəcək və “özümüz” dedikdə kimi özü ilə götürəcək?

Nəcran məsihiləri bu təklifin ədalətliliyi ilə razılaşırlar və mübahilə üçün vaxt və məkan müəyyən edərək, hazırlaşmağa gedirlər.

## Necə heyət gələcək?

Axşam yetişir. Məsihilər müşavirə təşkil edərək, sabahkı günü müzakirə edirlər. Bunların başbilənləri deyirlər ki, əgər sabah yeni din gətirməyə, peyğəmbərliyə iddialı olan həmin şəxs öz səhabələri ilə gəlsə, demək o, İlahi peyğəmbər deyil. Amma əgər öz ev əhli ilə gəlsə, demək onun iddiası həqiqidir və onda biz gərək bu işə getməyək. O zaman bizim mübahilə etməyimiz pis olar. Çünki, o, öz ev əhlini bu işə dəvət etsə və hazır olsa ki, onları fəda etsin, hazır olsa ki, onlar İlahi əzaba düçar olsun - deməli, həqiqi peyğəmbərdir və iddiası həqiqidir. Bu, ona dəlalət edir ki, o, öz iddiasına arxayındır və yəqini var, tam xatircəmliyi var ki, İlahi əzab ona nazil olmayacaqdır.

Nəcranlılar bu düşüncə ilə səhəri açırlar və mübahilə olunacaq yerə gedirlər. Həmin qərarlaşdıqları yerə çatanda görürlər ki, İslam Peyğəmbəri (s) gəlir və qucağında bir uşaq var. Başqa bir uşağın da əlindən tutub yanında gətirir. Onun ardınca da nuranikdə tayı-bərabəri olmayan bir xanım və bir kişi gəlir.

Nəcranlılar görürlər ki, gələn cəmin xüsusi bir mənəvi haləti, böyüklüyü, vüqarı vardır. Xüsusi bir mənəvi heybətlə həmin məkana yaxınlaşırlar.

Nəcranlılar görürlər ki, Rəsuli-Əkrəm (s) yanındakı mübarək cəmə müraciətlə: “Hər zaman ki, mən nifrin dedim, siz "amin" deyiniz", - deyə buyurur.

Nəcranlılar mübahilə səhnəsini müşahidə etməyə gələn mədinənilərdən soruşurlar ki, bəs Rəsuli-Əkrəmin (s) yanında gələn insanlar kimdir? Mədinəlilər cavab verirlər ki, bunlar - Həzrət Peyğəmbərin (s) yaxınlarıdır, Əhli-beytidir (ə). Və izah verirlər ki, nuraniyyət və əzəmət təcəssümü olan o kişi - Həzrət Əlidir (ə). Nuraniyyət və iffət təcəssümü olan o xanım - qızı Həzrət Fatimədir (s.ə). Qucağında olan o məsum körpə - nəvəsi İmam Hüseyndir (ə). Əlindən tutduğu o məsum uşaq - böyük nəvəsi İmam Həsəndir (ə).

**Vəziyyəti belə görən məsihi ruhanilərin böyüyü bildirdi:** “Mən özümü əzabın bir neçə addımlığında görürəm”. Bu sözlər tarixə düşmüşdür. Həzrət Peyğəmbəri (s) və Əhli-beytini (ə) tanımayan, amma onların sonsuz nuraniyyətini və mənəvi halətlərini görərək, onların mənəvi üstünlüyünü birmənalı olaraq qəbul edənlərin şəhadətidir bu. Bu nuraniyyət və mənəviyyat zirvəsi qarşısında təzim edənin şəhadətidir bu.

Bu hadisə hicrətin 10-cu ili zilhiccə ayının 24-də baş vermişdir. İslam Peyğəmbəri (s) öz Əhli-beyti (ə) ilə Məscidül-İcabə yerləşən məkana gəldilər. Amma Nəcran nümayəndələri onları gördükdə dedilər ki, əgər Rəsuli-Əkrəmin hər nifrininə bu insanlar “amin” desələr, onların kökü kəsilər. Və mübahilədən imtina edərək, İslamın himayəsi altına keçirlər.

## Ali-Əba (ə) hadisəsi

Bəli, Həzrət Peyğəmbər (s) bu hadisədə İmam Həsənlə İmam Hüseyni - övladları, Həzrət Fatiməni - xanım nümayəndə və Həzrət Əlini öz canı kimi götürüb “mübahilə”yə, yəni, ayədə işarə olunan qarşılıqlı nifrin etmə mərasiminə apardı. Amma bundan öncə, mübahiləyə getməzdən əvvəl, bir əbanı çiyninə saldı və Həzrət Əlini (ə), xanım Fatiməyi-Zəhranı (s.ə), İmam Həsəni (ə) və İmam Hüseyni (ə) əbanın altına salıb, dedi: “İlahi, hər peyğəmbərin əhi-beyti olmuşdur ki, ona insanların arasında ən yaxınları olmuşlar. İlahi, bunlar da mənim əhli-beytimdir (ev əhlimdir). Onlardan şəkk və günahı uzaqlaşdır. Onları bütün pisliklədən paklandır”.

Bu zaman Həzrət Cəbrayıl nazil oldu və onlar haqqında İlahi vəhyi gətirdi: “Həqiqətən, Allah *(xüsusi yaradılış iradəsi ilə)* siz əhli-beytdən (əqidə, əxlaq və əməllərdə) hər cür pisliyi təmizləmək və sizi paklığın bütün cəhətlərində - pak etmək istəyir”. *(“Əhzab” surəsi, 33-cü ayə).*

Mübahilə hadisəsi tarixi baxımdan çox önəmli hadisədir. Amma onun əsas önəmliliyi təkcə tarixi fakt olmaqlığı ilə bitmir. Bəlkə də bundan daha artıq əhəmiyyətlisi - müsəlmanlara Peyğəmbərimizin (s) haqq yolunu tapmaqda yardım etməkdir. Belə ki, insanlara Peyğəmbərin (s) ən yaxın insanlarının kim olduğunun bildirilməsi ilə, yəni, dini təmsil edən bir məsələdə, peyğəmbərlik iddiasını təsdiqləyən bir missiyada özü ilə götürdüyü insanların tanıtdırılması ilə haqq yolunun təqdimatı edilir. Müsəlmanlara haqq yol tanıtdırılır. Kimlərdən Rəsuli-Əkrəmin (s) mənəvi irsini öyrənməli olduqları iman əhlinin diqqətinə çatdırılır.

“Oğullarımız” dedikdə, Həsən və Hüseyni təqdim edir ümmətə Rəsuli-Əkrəm (s). “Qadınlarımız” deyiləndə, Həzrət Fatiməni (s.ə) tanıtdırır ümmətə. Bütün möminə qadınların, İslamı təmsil edə biləcək qadınların ünvanı qismində tanıtdırılır Həzrət Zəhra (s.ə). “Biz özümüz” dedikdə, “canımız” deyildikdə - Həzrət Əlini (ə) təqdim edir bəşəriyyətə. Və bu nuraniyyəti təsdiqləyən nəcranlılar geri çəkilir və bu mənəvi cəmin bütün təbərrüklüyünü bir daha təsdiqləyirlər.

## Rüku halında sədəqə

Zilhiccə ayının 24-də digər bir əlamətdar hadisə də baş verib. Həmin gün Həzrət Əli (ə) namaz qıldığı zaman məscidə dilənçi daxil olub, sədəqə istəyir. Həzrət Əi (ə) namazın rükusunda olan bir vəziyyətdə mübarək əlini dilənçiyə tərəf uzadır və işarə ilə barmağındakı qiymətli üzüyü götürməyi bildirir. Dilənçi həmin üzüyü götürür. Bu zaman ayə nazil olur: “Həqiqətən sizin başçınız və işlərinizin ixtiyar sahibi Allah, onun Peyğəmbəri və o iman gətirənlərdir ki, namaz qılıb rüku halında zəkat verirlər”. *(“Maidə” surəsi, ayə 55)*

İslamın hər 2 məzhəbinin alimləri bu ayənin şərhində nəql edilən hədislərdə təsdiq etmişlər ki, cəm şəkildə buyurulan bu ayənin yeganə nümunəsi - Həzrət Əlidir (ə) və onun rüku halında üzük bağışlama hadisəsidir.

Nəql edirlər ki, bu ayə nazil olan kimi Peyğəmbər (s) məscidə getdi. Bu zaman bir dilənçinin sevincək halda məsciddən çıxdığını gördü. Həzrət (s) bunun səbəbini soruşduqda, dilənçi namaz halında olan bir şəxsi göstərib dedi: “O, rükuda olduğu zaman əlini mənə tərəf uzadıb, barmağındakı bu üzüyü mənə verdi”. Peyğəmbərimiz (s) namaz halında olan şəxsin Həzrət Əli (ə) olduğunu görəndə, təkbir (“Allahu əkbər!”) deyərək buyurdu: “Ayə Əlinin barəsində nazil olmuşdur!”.

## Mübahilə gününün əməlləri

Zilhiccə ayının 24-də bir neçə bəyənilən əməl var. O cümlədən, müstəhəb qüsl almaq, oruc tutmaq, 2-rükətli namaz qılmaq. Bu namazın hər rükətində «Həmd» surəsindən sonra 10 dəfə "İxlas" surəsi, 10 dəfə "Ayətül-kursi", 10 dəfə "Qədr" surəsini oxumaq lazımdır.

Eləcə də həmin gün “Mübahilə” duasını oxumaq bəyənilmişdir. Həzrət Əlini (ə) bu gün ziyarət etmək də çox bəyənilmişdir. Bilavasitə ziyarət edə bilməyənlər, müvafiq ziyarətnamə oxumaq kimi imkanlardan yararlana bilirlər.

Bundan əlavə, həmin gün fəqir insanlara sədəqə vermək çox bəyənilmişdir. Əlbəttə ki, sədəqə vermək İslam dini tərəfindən hər zaman bəyənilir, amma xüsusi günlər var ki, bunlarda əməllərin savabı daha çoxdur.

**O cümlədən:**

**əgözəl və təmiz paltar geyinmək,**

**əxoş ətir vurmaq,**

**əmöminlərin təqsirlərindən keçmək, onları sevindirmək,**

**əmöminlərin hacətlərini yerinə yetirmək,**

**əsileyi-rəhm etmək,**

**əmöminlərə iftar yeməyi vermək,**

**əmöminlərin ziyarətinə getmək,**

**ətəbəssüm etmək,**

**əmöminlərə hədiyyə göndərmək,**

**əçoxlu salavat göndərmək - bəyənilən əməllərdəndir.**

**Allahım! Bizləri Əhli-Beytin (ə) həqiqi davamçılarından qərar ver! Amin!**

YENİ MÜSAVAT
N 256 (5965) 17 oktyabr 2014

# Pirallahıda bir gün...

## Paytaxtın 12-ci ada rayonunda yeni şəhər layihəsi “böyük köç”ə səbəb olacaq, helikopter meydançası və limanın da yeri dəyişdirilir; əhali hələ də susuzluqdan əziyyət çəkir, başçı nüavini problemlərin həll edildiyini bildirir








**Bakı buxtasının gözü - Pirallahı bir il əvvələ qədər qəsəbə statusunu daşıyırdı. İndi paytaxtın 12-ci rayonu olmuş keçmiş “Artyom” qəsəbəsinin dərd-səri, problemləri “gözdən iraq, könüldən uzaq”daydı. Əhali əsasən də içməli su sarıdan çox əziyyət çəkirdi.**

“Yeni Müsavat” bir neçə dəfə ada sakinlərinin su problemini işıqlandırıb. Amma Pirallahı rayonunda su dərdi hələ də qalmaqdadır. Bunu Pirallahıda olarkən yerli camaat bildirdi. Onların sözlərinə görə, içməli su problemi çox ciddidir.

“Bizim rayonda su problemi hələ uzun çəkəcək. Ona görə də bu vəziyyətdə qalmışıq. Düzdür, Zirədə 3 su anbarı tikilib, icra hakimiyyəti də bəzi yerləri su ilə təmin edib. Ancaq birdəfəlik su problemin həll etmək çətindir. Artyomun içməli suyu olsa, qalan hər şey düzələr,”- deyə rayon sakini Oqtay Məmmədov deyir.

**Onun dediyinə görə, Pirallahıda su pulludur:** “Dörd tərəfin su ola, adada yaşayasan, susuz qalasan. Belə müsibət yer kürəsində görünməyib. Elə bil ki, səhrada yaşayırıq. Mən gözümü burda açmışam. İndi 65 yaşım var, elə bu günə kimi də sudan əziyyət çəkmişik. Təki bundan sonra yaxşı olsun, suyumuz gəlsin, bilək bu problem dalda qaldı”.

Pirallahıda işsizlik problemini “həll edən” balıqçılıq və neft mədənlərindəki iş yerləridir. Bunlar olmasa, rayon camaatı iqtisadi “blokadada” acınacaqlı vəziyyətlə üzləşə bilər. Xüsusilə də rayonun Çilov qəsəbəsini qeyd etməliyik.

Adada yerləşən bu qəsəbədə cəmi 1800 nəfər yaşayır. Onlar su və hava nəqliyyatı ilə Pirallahıya gedib-gəlirlər. Yerli sakinlərə nəqliyyatın pulsuz olduğu deyilir. Ancaq kənar şəxslərin getməsi üçün Xəzər Dəniz Gəmiçilik və Dövlət Neft Şirkətindən razılıq alınmalıdır. Qəsəbənin bir çox sosial problemləri var ki, onların nə zaman həll ediləcəyi bilinmir.

Odur ki, sosial-iqtisadi problemlərinə görə Pirallahıda görüləcək çox iş var. Rayon camaatı isə icra başçısına möhlət verməyin tərəfdarıdır. Sakinlərin fikri ondan ibarətdir ki, Vasif İmanov başçı vəzifəsinə yeni təyin olunub deyə ona işləməyə vaxt tanımaq lazımdır.

“Srağagün prezident gəlmişdi, hər yeri gəzdi. Gürgən tərəfdə təzə şəhər salacaqlar. Qəsəbəyə gedəndə Pirallahının girişində sağda yerləşir. Təzə körpü də tikilir, gediş-gəliş lap asan olacaq. Pirallahı 1-2 ilə çox dəyişəcək,”- deyə başqa bir rayon sakini Adil danışır.

Onun dediyinə görə, təzə körpü Qala-Pirallahı avtomobil yolunun üstündə salınır. Elə biz də həm körpü salınan, şəhər tikiləcək yerlərə baş çəkirik. Məlum olur ki, bu körpü sayəsində yeni şəhərə getmək mümkün olacaq.

Xatırladaq ki, prezident oktyabrn 14-də rayonda olarkən yeni şəhərin konseptual planı ilə tanış olub. İnkişaf layihəsinə uyğun olaraq yeni şəhər üçün Gürgən dəniz sahili boyu və ətraf ərazilər seçilib. Burada ən müasir və böyük yaşayış mərkəzi yaradılacaq.

İlkin olaraq yeni şəhər 120 min əhalinin yaşaması üçün nəzərdə tutulub. Bu isə o deməkdir ki, 20 min əhalisi olan Pirallahıya yaxın gələcəkdə böyük köç planlaşdırılır. Yeni binalar, həyət evləri, çoxmərtəbəli evlər, ticarət mərkəzləri tikiləcək, istirahət guşələri yaradılacaq, şəhəri dənizlə birləşdirəcək parklar salınacaq.

Layihəyə görə ilkin mərhələdə 60 yaşayış binasının tikintisi nəzərdə tutulub. Binaların əksəriyyəti dördmərtəbəli terras formasında olacaq. Yeni şəhərdə universitet kompleksi, balıqçılıq platforması tikiləcək və sənaye zonası da yaradılacaq.

Öyrənirik ki, Pirallahıda yeni şəhər planı torpağın da qiymətinin qalxmasına təsir edəcək. Çünki 100 min nəfərin rayona axını böyük bir canlanma yaradacaq. Hazırda Gürgənin girişindən ta Pirallahı mayakına qədər tikinti meydançası var. Gürgənə girər-girməz insanı böyük tikinti bumu qarşılayır. Hər yanda daş-kərpic, hasarlanmış sahələr böyük bir daş karxanasını xatırladır. Belə görünür ki, tikinti işləri sürətlə həyata keçiriləcək.



**Pirallahıda eşidib-gördüklərimizin ardınca rayon icra hakimiyyətinə müraciət etdik. Burada hansı işlərin görüldüyü və qarşıda həyata keçiriləcək planların nədən ibarət olduğunu öyrəndik. İcra başçısının müavini Vəzir Səfixanov “Yeni Müsavat”a su problemi haqda danışdı. Onun sözlərinə görə, magistral su kəməri çəkilir:** “Qəbələ-Oğuz su kəməri Zirəyə qədər çəkilib, ordan da Pirallahıya gələcək. Rayonda 20 minə yaxın əhali var. Hələlik iki məhəlləni su ilə təmin etmişik. Bu iki məhəllədə hardasa 2 min nəfər yaşayır. Qısa müddətdə su problemini həll etmək də çətindir.

Eyni zamanda kanalizasiya, istilik, qaz kommunikasiya xətləri dəyişdirilirr. İki uşaq baxçası tikilir. Söküləcək yeni binaların yenisi inşa olunacaq və insanlar təzə evlərə köçəcək. 20 min əhalini təmin edəcək çörək zavodu tikilir. Yeni şəhər salma proyekti var. Bilirsiniz ki, cənab prezident də sağ olsun, rayonumuza gəlib, burada gedən işlərlə maraqlandı".

**Başçı müavini qeyd etdi ki, Pirallahıda binaların çoxu qəzalıdır:** “Pirallahı qəsəbəsində mərkəzi prospekt boyunca yaşayış binalarının fasadlarının təmirinə başlanıb. Binaların fasadlarının yenilənməsi, giriş qapılarının və dam örtüyünün təmiri istiqamətində işlər aparılır, şəhərsalma və tikinti normalarına cavab verməyən kiçik və yarımçıq tikililər sökülür, ərazilər təmizlənərək abadlaşdırılır. O vaxtı Bakıda nə qədər köhnə köşk, "butka" varıydısa gətirib bura tökülmüşdü. Binalar təsdiq olunmuş layihə əsasında əsaslı təmir edilir. Pirallahı qəsəbəsində sakinlərin rahatlığının təmin edilməsi məqsədilə bazar, ticarət mərkəzləri və yanacaqdoldurma məntəqəsinin inşası nəzərdə tutulub. Yəni çoxlu planlarımız var, iş gedir. Helikopter meydançası və liman da köçürüləcək. Daha gözəl şəraitli yerdə olacaqlar. Ümumiyyətlə, bir neçə ilə Pirallahı Bakının ən gözəl rayonlarından birinə çevriləcək".

**❑ “Yenİ Müsavat”ın Reportyor Qrupu**









YENİ MÜSAVAT

Son səhifə

N 256 (5965) 17 oktyabr 2014



# Ürəyin dərmanı musiqidir

**Serbiyadakı Nis Universiteti alimlərinin apardığı araşdırmaya görə, instrumental musiqi ürəyi gücləndirir, ürək xəstələrinin daha tez yaxşılaşmasını təmin edir. Bundan başqa, sevilən musiqini dinləmək beyində endofrin hormonunun artımına səbəb olur ki, bu da ürəyin fəaliyyətinə müsbət təsir edir. Araşdırma çərçivəsində ürək xəstəsi olan 74 nəfər 3 qrupa ayrılıb və ilk qrupdakılar 3 həftə boyunca aerobika dərslərinə göndərilib. İkinci qrupdakılara isə dərslərə qatılmaqla yanaşı, gündə yarım saat musiqi dinləmələri tapşırılıb. Son qrupdakılar isə sadəcə musiqi dinləyiblər.**

3 həftə sonra idmanla məşğul olan və musiqi dinləyən xəstələrin ürəyindəki problemlərin böyük ölçüdə düzəldiyi müəyyənləşib. Alimlərin araşdırmasına görə, musiqi dinləyərək idmanla məşğul olmaq ürək fəaliyyətinin yaxşılaşmasına, eləcə də xəstələrin daha asan düzəlməsinə səbəb olur. Alimlər "ideal musiqi"nin hələ tapılmadığını desə də, insanlarda pozitiv hisslər oyadan, onların özünü yaxşı hiss etməsinə, rahatlaşmasına səbəb olan musiqilərin olduğunu bildirib.

# Marsda yaşamaq üçün 500 min dollar lazımdır

**Yaxın 15-20 ildə ilk insanlar yaşamaq üçün Marsa gedə bilərlər. Tədricən "Qırmız planet"də 80 min insan məskunlaşacaq. Milyarder Elon Mask - "Space X" kosmik şirkətinin təsisçisi və icracı direktoru öz istehsalı olan "Dragon" adlı kosmik gəmisini kosmosa göndərəcək.**



O, öz planları haqqında Londonda keçirilən "Kral astronavtları icması"nın iclasında danışıb. Milyarder əmindir ki, onun şirkəti insanları qonşu planetə apara biləcək gəmilər inşa edə bilər.

"Space X"in yaradıcısı Marsda bütöv şəhər salmaq niyyətindədir. Burda sakin olmaq üçün isə azı 500 min dollar lazımdır. Marsa gedəcək ilk qrup isə 10 nəfərdən ibarət olacaq.

# Bu gün maşın sürmək üçün ən təhlükəli gündür



**İnsanlar üçün hansı gün maşın sürmənin təhlükəli olması açıqlanıb. "Nationwide Insurance" şirkətinin verdiyi məlumata görə, Amerikada ən çox avtomobil qəzaları həftənin 5-ci günləri baş verir. Həmin gün Birləşmiş Ştatlar ərazisində 4-6-dan çox yol qəzası baş verir.**

"Cümə günləri insanlar qarşıdakı istirahət günləri barədə düşünürlər, planlar qururlar, bu səbəbdən yoldan diqqətləri yayınır", - deyə şirkətin vitse-prezidenti Bill Vindzor bildirib. Onun sözlərinə görə, qəzaların çoxu pik vaxtlarda baş verir və əsasən də qarşıda gedən avtomobillə toqquşma halları qeydə alınır.

# Nəbzi olmadan yaşayan ilk və tək insan

**Çexiyanın paytaxtı Praqada yaşayan keçmiş yanğınsöndürən Jakub Halik (37 yaş), dünyada nəbzi olmadan 6 ay boyunca yaşayan tək insan olaraq tibb tarixinə keçib. Ötən aprel ayında ürəyindəki şişə görə xəstəxanaya aparılan və ürəyi iki mexanik qan cihazı ilə dəyişdirilən Halik tam 6 aydır nəbzsiz yaşayır.**



Halikin vəziyyətinin 6 aydır yaxşı olduğunu açıqlayan həkimlər deyir ki, hər 5-10 ildə onun bədənindəki qan dəyişdirilməlidir. Maraqlıdır ki, nəbzi olmadan yaşayan ilk insan - texaslı Craig Levis 2011-ci ildəki əməliyyatından bir neçə həftə sonra həyatını itirmişdi.



# Çox yaşamağın 10 yolu

**Alimlər ayrı-ayrı araşdırmalar çərçivəsində insan həyatını uzatmaqla bağlı nəticələrə gəlib. Bunlar "ömrü uzatmağın 10 yolu" adı altında toplanıb.**

Sözügedən yollardan biri insanın tez-tez ac qalmasıdır. Dünyanın ən uzun yaşayan insanlarının yaşadığı Okinavada xalq tam doymadan yeməkdən əlini çəkir. İkinci yol dil öyrənməkdir. Bu, daha çox insanla ünsiyyət və müsbət enerji qazanmaq anlamına gəlir. Dağlarda yaşamaq, genetik müalicə, varlanmaq, bir inanca sahib olmaq, çox işləyib stressə girməmək, dərmandan düzgün istifadə, orqan transplantasiyası, dünyada yaxşı işlər görmək də yaxşı yaşamağın qaydaları sırasındadır.




**QOÇ** - Təxminən saat 13-dən başlayaraq şərikli iş görmək üçün şanslarınız artacaq. Bundan maksimum yararlanmağa çalışın. Allahın buyurduğu savablardan istifadə edin. Uzaq yola çıxmağa lüzum yoxdur.

**BUĞA** - İlk öncə bilməlisiniz ki, bu təqvim daxili tərəddüdlərinizi kifayət qədər səngidəcək. İşgüzar görüşlərdə iştirak etmək üçün böyük şanslarınız da olacaq. Uzaq səfərləri isə mümkün qədər təxirə salın.

**ƏKİZLƏR** - Hər şeydən əvvəl sağlamlığınızın qayğısına qalın. Qonşu və qohumlarınızla münasibətlərə xələl gəlməsinə macal verməyin, çox təhlükəlidir. Bu gün əlinizə düşən pulları boş məsrəflərə xərcləməyin.

**XƏRÇƏNG** - Görünür, ünsiyyətdə olduğunuz insanları kifayət qədər yaxşı tanımırsınız. Çünki dəflərlə müşahidə etsəniz də onlara yenə inanırsınız. Bir az diqqətli olsanız, günboyu heç bir qanqaraçılığı ilə üzləşməyəcəksiniz.

**ŞİR** - Çoxsaylı işgüzar görüşlər, perspektivli və yeni əlaqələr istər fəaliyyət zəminində, istərsə də qarşılıqlı münasibətlərdə sizə böyük səmərə verəcək. Pulla bağlı olan çətinlikləriniz də aradan qalxmağa başlayacaq.

**QIZ** - Bütün astroloji göstəricilər ümumi ovqatınızın yüksək olacağını bildirir. Qətiyyən passivləşmək olmaz. İşgüzar görüş və müzakirələrinizi intensivləşdirin. Amma məhəbbət amili də yaddan çıxmasın.

**TƏRƏZİ** - Bütün gücünüzlə ətrafınızdakı problemlərin ən kiçiyindən başlayaraq həll edin. Özünüzü qələbəyə tənzimləyin. Onu da unutmayın ki, ürəyinizdə eşq varsa, fani dünyanın əzablarına məğlub olmayacaqsınız.

**ƏQRƏB** - Qarşınızda duran bu zaman kəsiyindən fövqəladə bir şey gözləməyin. Belə ki, istər fəaliyyət zəminində, istərsə də qarşılıqlı münasibətlərdə ümumi axar passiv olacaq. Yalnız istirahətə yer ayırın.

**OXATAN** - Köhnə dostlarınızın köməyi ilə mövcud çətinliklərinizi dəf edəcəyinizə inanın. "Hər şeyin təzəsi, dostun köhnəsi" fikrinə ciddi yanaşın. Bu gün pulla bağlı da probleminiz olmayacaq.

**OĞLAQ** - Beyninizdə olan gözəl və qazanclı ideyaları tətbiq edin. Boş durmaq sizi ruhən xəstələndirə bilər. Ağıllı sandığınız insanlarla bir araya gəlin. Oturaq işlərə, kompüterə aludə olmağa ara verin.

**SUTÖKƏN** - Keçmişin acılarına qapılmaq sizə ağır zərbə vura bilər. Bir az nikbin olun, dünyanı, insanları sevin. Ulduzlar nahardan sonra bu istiqamətdə sizə şans yaradacaq. Yaxşı qidalanın.

**BALIQLAR** - Daha çox səhhətinizə fikir verin ki, qarşıdakı həftənin vəzifələrini həyata keçirə biləsiniz. Bu gün başlıca probleminiz olan maliyyə çətinlikləri qismən də olsa, qaydasına düşəcək.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# Hitler köynəkləri qəzəb yaratdı



**Kanadanın Monreal şəhərində yerləşən geyim mağazası Hadio üzərində Adolf Hitlerin şəkilləri olan idman köynəyi satır. Bu qeyri-adi köynəyi Serra Holts adlı alıcı aşkarlayıb. Onun sözlərinə görə, satılan geyim onu çox pərişan edib. Çünki şəklin altında aşağıdakı cümlə də yer alıb: "Yaşamaq üçün çox sürətli, ölmək üçün çox yavaş". Bu, britaniyalı rejissor Alan Parkerin bir kitabından sitatdır. Başqa bir idman köynəyinin üstündə isə əlində ürək tutmuş Hitlerin fotosu yer alıb. Mağazanın işçiləri bildiriblər ki, bu idman köynəkləri Hitleri məşhurlaşdırmaq yox, onu məsxərəyə qoymaq üçün hazırlanıb.**

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zabil MÜQABİLOĞLU

Lisenziya N: B 114
SAYI: 10.565